www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu   Gündəlik qəzet   5 avqust 2014-cü il   Cümə   № 222 (5931)   Qiymәti 40 qəpik

**Xəbər**

## Amerika vətəndaşı olan azərbaycanlıya cinayət işi açıldı

yazısı səh.2-də

**Gündəm**

## NATO-nun tarixi sammiti başladı



Azərbaycan prezidentinin də qatıldığı toplantıda Avropa təhlükəsizliyi üçün mühüm qərarların qəbulu gözlənilir; kritik müzakirələrin mərkəzində Ukraynadır; Qarabağ məsələsinin də diqqətdə olacağı istisna deyil...

yazısı səh.4-də

### Bağlanan türk məktəbləri Zərifə Əliyeva adına liseyin tabeçiliyində fəaliyyətə başladı

yazısı səh.3-də

### Hikmət Hacızadə həbs təhlükəsi barədə xəbəri təkzib etdi

yazısı səh.6-da

### "Çarıqlı milyoner"in çökməkdə olan biznes imperiyası

yazısı səh.7-də

### İlqar Mikayıloğlu ANS-dən getdi - Gülər Əhmədovanın reaksiyası

yazısı səh.2-də

### ABŞ və NATO-dan Rusiyaya qarşı yeni siyasi taktika

yazısı səh.2-də

### Misir Mərdanovun qohumu direktor vəzifəsindən azad edildi

yazısı səh.7-də

### Azərbaycan İŞİD-ə qarşı təcili tədbirlər görülməsini tələb edir

yazısı səh.2-də

### "Əl-Qaidə"nin Hindistan şöbəsi yarandı

yazısı səh.8-də

### Xalq artistinin ailə üzlərini öldürən məmur oğluna 12 il cəza istənildi

yazısı səh.12-də

### Müsavat başqanının kabinet məsələsi...

yazısı səh.4-də

### "Oazis"dəki qanlı davanın ən yeni təfərrüatları

yazısı səh.10-da

### "AAAF-İnşaat" MMC-nin vəhhabi sahibi ilə bağlı şok detallar

# İKİ OLİQARXIN ADI KEÇƏN BİZNES QURUMU HAQDA YENİ SENSASİON BİLGİLƏR

MMC-yə rəhbərlik edən sələfi Tofiq Heydərovun biznes tərəfdaşları Beynəlxalq Bankın şefi Cahangir Hacıyev, AZAL-ın rəhbəri Cahangir Əsgərov, sabiq deputat Dünyamin Xəlilov və Beynəlxalq Bankın 185 milyon kreditini mənimsəyən Xəqani Bəşirov olub; "Bakı Quşçuluq" ASC-nin torpaqlarını "su qiymətinə" ələ keçirən T.Heydərov Moldova, Türkiyə, Rusiya, Bolqarıstan, Gürcüstan, Ukrayna və Polşada özünə böyük biznes imperiyası qurub




yazısı səh.5-də

## Ərdoğanın Bakıda açdığı kodlar - "Azərbaycana verilən sözlər..."

Bakıdan NATO zirvəsinə gedən Türkiyə prezidenti Azərbaycanla işbirliyi kontekstində Qərbə hansı mesajları verdi?; "Azərbaycana verilən sözlər yerinə yetirilməlidir" iddiasının arxasında hansı ilginc proses dayanır?

yazısı səh.9-da




### İsa Qəmbərin qardaşı Qubad İbadoğlunu Müsavatın başqanı görmək istəyir

yazısı səh.6-da




### Bakıda keçiriləcək gözəllik müsabiqəsi ətrafında böyük qalmaqal

yazısı səh.13-də



### Mətanət Əzizova ərinə görə özünü öldürmək istəyir

yazısı səh.4-də

5 sentyabr 2014

## Nekroloq



**Müsavat Partiyasına ağır itki üz verib. Partiyanın Şəmkir rayon təşkilatının sədri Nizami Əliyev vəfat edib. Nizami Əliyev 1947-ci ildə Şəmkir rayonunun Dəllər Cırdaxan kəndində anadan olmuşdur.**

**Nizami Əliyev Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə xüsusi fəallıq göstərib. 1992-ci ildən Müsavat Partiyasının bərpa mərkəzinin üzvlərindən və Şəmkir rayon təşkilatının təmsilçilərindən biri olub. Nizami bəy Şəmkir rayonunda müsavatçılıq ideyalarının yayılmasında uzun illər yorulmadan çalışmışdı. O, ləyaqətli və əqidəli bir insan idi. İş və partiya yoldaşları onu özlərinə səmimi və sədaqətli dost hesab edirdilər. Nizami bəy Azərbaycanda demokratiya, insan haqları və azad seçki uğrunda fədakarlıqla mübarizə aparırdı. 2007-ci ildən Müsavat Partiyası Şəmkir rayon təşkilatının sədri vəzifəsində çalışırdı. Dəfələrlə təzyiqlərə və repressiyalara məruz qalsa da, əqidəsindən və haqsızlığa qarşı mübarizə yolundan dönməmişdir.**

**Belə bir insanın sıralarımızdan getməsi həm mərhumun yaxınları, həm də əqidə dostları üçün ağır itkidir.**

**Nizami Əliyevin əziz xatirəsi ziyalı, əqidəli, ləyaqətli və mübariz bir insan kimi müsavatçıların qəlbində əbədi olaraq yaşayacaqdır.**

**Allah rəhmət eləsin!**

**İsa Qəmbər və Müsavat Partiyasının Divanı**

## Orxan Əyyubzadənin məhkəmə prosesi keçirildi



**Sentyabrın 4-də Binəqədi rayon Məhkəməsində gənc siyasi məhbus Orxan Əyyubzadənin növbəti məhkəmə prosesi keçirilib. Məhkəmədə gənc fəalın ailə üzvləri və yaxınları iştirak ediblər. Hakim növbəti məhkəmə prosesinin sentyabrın 12-i saat 10:00-a təxirə salınması barədə qərar çıxarıb.**

Bu barədə musavat.com-a müdafiə tərəfinin şahidi, Müsavat Partiyasının Divan üzvü Tural Abbaslı məlumat verib. O, məhkəmə prosesinin açıq keçirildiyini bildirdi: "Bu gün Orxan Əyyubzadənin məhkəməsi oldu. Prosesdə mən, iki şahid və zərəçəkən tərəf iştirak etdi. Zərəçəkənlərdən ikisi ifadə verdi. 3 nəfər şahid prosesə gəlməmişdi. Prokuror həmin şahidlərin prosesə gətirilməsini tələb etdi. Mən müdafiə tərəf kimi ifadəmi verdim. Bildiyimiz kimi, Binəqədi Təcridxanasında Orxanla mən bir kamerada saxlanıldığımız zaman münaqişə baş vermişdi. Orxanın özü, vəkili və ailə üzvləri məhkəmədə iştirak edirdi. Bundan əlavə, təcridxananın əməkdaşları kütləvi şəkildə prosesə gəlmişdilər. Şahid və zərərçəkmiş olmayanlar belə mülkü geyimdə məhkəmə gəlmişdilər".

Tural Abbaslı Orxan Əyyubzadəyə qəzet verilməməsini qeyd etdi.

Orxan Əyyubzadənin hələ də ailəsi ilə görüşünə icazə verilmir. Saxlandığı təcridxana hakimin icazə kağızı olmadan görüşün mümkünsüz olduğunu bildirir. Hakim isə, yeni qanuna görə , təcridxana rəhbərliyinin görüş icazəsinin olduğunu qeyd edir. Beləliklə, hər iki tərəf məsələni bir-birinin üzərinə atırlar.

Orxan Əyyubzadə bu il mayın 6-da NİDA-çılara oxunan hökmə etiraz etdiyinə görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin önündə həbs edilərək, 20 sutka inzibati həbs cəzası alıb. Lakin mayın 26-da cəza müddəti bitən gənc fəal azadlığa buraxılmamışdı. Binəqədi Rayon Məhkəməsinə aparılaraq, barəsində 315.1 maddəsi ilə (hakimiyyət nümayəndəsinə müqavimət göstərmə) cinayət işi açılmışdı.

Hazırda onun işinə Binəqədi Rayon Məhkəməsində baxılır.

❑ **Cavanşir ABBASLI**

## Azərbaycan İŞİD-ə qarşı təcili tədbirlər görülməsini tələb edir

**"PRNewswire"nin yaydığı xəbərdə deyilir ki, Azərbaycan İraqda və Suriyada qanlı hadisələr törədən "İraq və Şam İslam Dövləti"nə qarşı təcili cavab tədbirləri görülməsinə çağırıb. Bu barədə musavat.com-un Avropa müxbiri yazır.**

Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinin üzvü olan Elxan Süleymanov belə bir tələblə çıxış edib. Hazırda Azərbaycan Avropa Şurasının Nazirlər Komitəsinə sədrlik edir və Elxan Süleymanov məhz bu qurumun təcili toplanmasını istəyib.

O bildirib ki, fəaliyyətsiz qalmaq, üstəlik, bu vəhşətə qarşı strateji planın olmaması yolverilməzdir: "Dünya ictimaiyyəti təcili siyasi, diplomatik, hərbi və digər müstəvilərdə İŞİD-ə üstün gəlmək üçün tədbirlər görməlidir. İraq və Suriyanın günahsız insanlarına qarşı qeyri-insani hərəkətlərin qarşısı alınmalıdır", Elxan Süleymanov deyib.

O, həmçinin vurğulayıb ki, təəssüf ki, biz bunu görmürük. Elxan Süleymanov İŞİD-ə qarşı bu susqun mövqeyi Qərbin ikili standartlar siyasəti ilə izah edib və deyib ki, onun fikrinə görə elə bu səbəbdən də dünya ictimaiyyəti bu məsələ ilə bağlı təcili tədbirlər görməyə maraq göstərmir.

Elxan Süleymanov Qarabağ məsələsində də ikili standartların aydın göründüyünü vurğulayıb və bildirib ki, Azərbaycan terrordan əziyyət çəkən ölkələrdən biridir və beynəlxalq antiterror alyansına daxildir.

## ABŞ vətəndaşı olan azərbaycanlıya cinayət işi açıldı

### MTN və Baş Prokurorluq vaxtilə "Yeni Fikir" hərəkatının sədr müavini olmuş Səid Nuriyə ölkədən çıxışı yasaqladı

**Vaxtilə "Yeni Fikir" Gənclər Hərəkatının sədr müavini olmuş, hazırda ABŞ vətəndaşı Səid Nuriyə Azərbaycandan çıxmaq yasaqlanıb. Sentyabrın 4-də S.Nuri atasının səhhətində yaranan problemlə bağlı Bakıya səfərindən sonra Kiyevə yola düşmək istəyib.**



Lakin Heydər Əliyev adına Beynəlxalq Hava Limanında ona bildirilib ki, Milli Təhlükəsizlik Nazirliyi və Baş Prokurorluğun İstintaq İdarəsi onun ölkədən çıxışına qadağa qoyub. Bu barədə facebook səhifəsindən yazan S.Nurinin sözlərinə görə, o, bir müddət öncə ABŞ səfirliyində olub, səfirlikdən ona bu qadağanın araşdırılacağı söylənilib.

**"Yeni Müsavat"a açıqlamasında o dedi ki, Amerika səfirliyinə onun həm də Azərbaycan vətəndaşı olduğu bildirilib:** "Səfirliyə deyilib ki, o bizim vətəndaşdır və daxili qaydaları pozub, cinayət işi açmışıq. Səfirliyə belə deyiblər. Ancaq mən bilmirəm ki, nə baş verir".

**S.Nuri müxtəlif ehtimallar olduğunu düşünür:** "Ola bilsin ki, 2005-ci ildə olanlar yenidən aktuallaşıb, yaxud facebookda yazdığım statuslara görə belə edirlər. Yəni yüzlərlə ehtimal ola bilər. Hələlik heç bir rəsmi açıqlama yoxdur. Rəsmi açıqlamanı gözləyirəm".

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov faktı təsdiqləyərək "Yeni Müsavat"a bildirdi ki, S.Nurinin ölkədən çıxışına qadağa ilə bağlı açıqlama veriləcək. Bildirək ki, S.Nuri 2007-ci ildə Birləşmiş Millətlər Təşkilatının Ali Qaçqınlar Komissarlığı tərəfindən siyasi qaçqın statusu alıb. 2012-ci ildə isə ABŞ vətəndaşlığına qəbul edilib. Amerika ordusunda çalışır.

Bir neçə gün əvvəl S.Nuri "Azadlıq" qəzetinə bildirib ki, Azərbaycana gələ bilmir. Onun sözlərinə görə, Azərbaycana gəlmək istəsə də, ABŞ-dakı konsul viza vermirdi. Nəhayət, Azərbaycana gəlməyə nail olan Səid Nuriyə indi geri qayıtmağa icazə verilmir.

2006-cı ildə "Yeni Fikir" Gənclər Təşkilatının sədri Ruslan Başirli və onun müavini Ramin Tağıyev hakimiyyəti zorla ələ keçirməyə cəhddə ittiham olunaraq 4 ildən 7 ilədək azadlıqdan məhrum olunub. Səid Nuri isə səhhətindəki problemlərə görə üç il sınaq müddəti ilə beş il şərti azadlıqdan məhrum edilib. O, 2006-cı ildə ölkəni tərk edib.

1951-ci il Cenevrə Konvensiyasına görə, siyasi qaçqın statusu almış şəxslər onlara sığınacaq vermiş ölkənin vətəndaşlığını qəbul edirlərsə, onlara avtomatik olaraq bir ölkənin vətəndaşlığını daşımaq icazəsi verilir. Ancaq müstəsna hallarda ikili vətəndaşlıq qala bilər.

Azərbaycanda da iki vətəndaşlıq yoxdur. Amerika vətəndaşı olduqdan sonra vaxtaşırı Azərbaycana gələn S.Nuri burada hər hansı siyasi fəallığı ilə seçilməyib. Yəni aksiyalarda iştirakı olmayıb, tədbirlərdə çıxış etməyib.

❑ **E.SALAMOĞLU**



## İlqar Mikayıloğlu ANS-dən getdi

**ANS-in aparıcısı İlqar Mikayıloğlu ANS-dən gedib. Onun sentyabrın 1-i ANS telekanalı ilə arasında bağladığı müqavilənin vaxtı tamamlanıb. Aparıcının özünün dediyinə görə, işdən çıxmasına səbəb səhhətində yaranan problemlərdir.**

ANS prezidentinin ictimai əlaqələr üzrə müşaviri Mais Məmmədovun "İlqar Mikayıloğlu ərizəsini yazıb, özü işdən çıxıb. Yəqin özünə yağlı qapı tapıb, kim bilir" sözlərinə aparıcı İlqar Mikayıloğlu mövqe.az vasitəsilə cavab verib: "Allah onun köməyi olsun. Yaşlı kişidir. Vallah, yağlı qapı olduğunu da bilmirdim, ondan eşitdim. ANS-ə heç vaxt qayıtmayacağam. Başqa telekanalda da işləyib-işləməyəcəyim dəqiq deyil. Bu dəqiqə qolumun hayındayam".

İ.Mikayıloğlunun ANS-dən çıxmasına bacısı, sabiq deputat **Gülər Əhmədova** münasibət bildirib.

O, aznews.az açıqlamasında deyib ki, bu dəqiqə onu İlqarın işi deyil, səhhəti maraqlandırır: "Onun qolu çox pis sınıb. Hamımız onun başına gələn bu xoşagəlməz hadisəyə görə narahatıq. Mənim üçün əsas onun tez sağalmasıdır".

**Sabiq deputat deyib ki, qardaşının səhhəti ilə əlaqədar ona tez-tez baş çəkir:** "Qolu sınandan sonra ona tez-tez baş çəkirəm. Amma nədənsə bu qərarı ilə bağlı mənə heç nə deməyib. İş məsələsi ilə bağlı İlqarla danışmamışam. Qardaşımın işdən getməyini ilk dəfə sizdən eşidirəm".

## ABŞ-da yorğan-döşəklə növbədə dayanıb, "iPhone 6" gözləyirlər

**"Apple" şirkəti istehsal etdiyi yeni "iPhone 6" əl telefonu haqqında elə bir informasiya yaymayıb. Ancaq Nyu-Yorkdakı məşhur 5-ci Aveny-nun qarşısında növbələr günü-gündən uzanmaqdadır. Bu barədə "Recode" xəbər yayıb.**

Uzaq Missisipidən olan cütlük Nyu-Yorka məhz ona görə gəlib ki, növbədə yer tutub "iPhone 6"nın gəlişini gözləsinlər. Yəni bu növbədə gözləmək prosesinin özü artıq əyləncə xarakterli tədbir hesab olunur. Bir çoxları yorğan-döşəklə gəlib. Çətir, günəş enerjisi ilə işləyən fənər, sukeçirməyən materialdan hazırlanmış örtüklər, qatlama stullar... növbəyə qatılanlar arasında çox populyardır.

O da qeyd olunur ki, hazırda növbədə dayananlar arasında veteranlar da var. Onlar keçən il yeni telefon modelini almaq üçün günlərini növbədə keçiriblər. "Apple" fanatlarının düşüncəsinə görə, bu gözləmə prosesinin özündə mistik bir sevinc var. Məsələn, növbəyə duranların biri keçən il 15 gün "Apple"in yeni modelini almaq üçün mağazanın qarşısında dayanıb. İndi həmin şəxs öz rekordunu təzələmək əzmindədir.

İlkin məlumata görə, "iPhone 6"nın təqdim etmə mərasimi sentyabrın 9-unda olacaq. Yeni modelin satışa sentyabrın 19-da çıxarılacağı gözlənilir. Növbələrin uzunluğu və sıxlığı isə günü-gündən artır.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

«QAYA MƏTBUAT YAYIMI» MMC!
İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
■ Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə catdırılmasını;
■ Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbest seçmək hüququndan istifadə etmək;
■ Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
Ən başlıcası gündəlik
«Yeni Musavat » qəzetinə–0,40 man
və bundan əlavə 2000 adda yerli və xarici nəşrlər.
■ Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,
Telefonla zəng etməyiniz kifayətdir:
Bakı şəh. 564-63-45 598-35-22
Respublikanın digər büyük şəhərlərinə də abunə qəbul olunur:
mobil: (050)-235-23-41



## NATO zirvəsində Ukrayna müzakirələri - şok nəticə...

### "Qərb Rusiya ilə savaşmayacaq"

**"Reuters" agentliyi NATO-nun Uels sammitinin 4 sentyabrdakı işi ilə bağlı geniş yazı hazırlayıb. Yazıda daha çox Ukrayna böhranına NATO-nun verdiyi önəm geniş işıqlandırılıb.**

Agentlik bildirir ki, Ukrayna prezidenti Petro Poroşenko Qərb liderlərindən dəstəklə bağlı ifadələr eşidib. Ukraynada separatçıların uğur qazanmasının arxasında isə Rusiya dayanır. Qərb ölkələri bu məsələdə yekdil rəyə malikdirlər. Rusiya sərhəddə qoşun toplayır. Və bu, Berlin Divarları yıxılandan sonra Moskvanın beynəlxalq səviyyədə baş vurduğu ən ciddi qarşıdurmadır.

Agentlik yazır ki, Qərb Ukraynaya sözdə dəstək verdi, həmçinin Moskvaya qarşı iqtisadi sanksiyalar tətbiq etdi. Ancaq Qərb onu da birmənalı qeyd etdi ki, onlar Ukraynaya görə Rusiya ilə müharibəyə qalxmayacaqlar. Mart ayında Krımın işğalından sonra Ukraynanın iki rusiyapərəst vilayətində vəziyyət daha da mürəkkəbləşib

Ukrayna prezidenti Petro Poroşenko zirvə toplantısı zamanı ABŞ prezidenti Barak Obama, Almaniya kansleri Angela Merkellə, Fransa prezidenti Fransua Ollandla və digər Qərb liderləri ilə görüşlər keçirib. Ukrayna prezidenti həmçinin zirvə toplantısına ev sahibliyi edən Böyük Britaniyanın baş naziri David Kameronla da bu mövzuda söhbət edib.

Fransa Moskvanın qonşu Ukraynada törətdiyi hərəkətləri ilə əlaqədar olaraq Rusiyaya Mistral hərbi gəmilərinin çatdırılmasını təxirə salıb. Bu işdə prezident Olland xüsusi rol oynayıb. Agentlik vurğulayır ki, elə buna görə də Moskva Fransa prezidentini ABŞ-ın təzyiqi ilə belə bir addım atmaqda ittiham edib.

"Fransanın nüfuzu Amerikanın ambisiyalarının güdazına getdi. Bu ölkə öz öhdəliklərinə sadiq etibarlı tərəfdaş imicini əldən verdi", Rusiya xarici işlər nazirinin müavini Maria Zaxarova Facebook səhifəsində belə yazıb.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**



**Yazarımız Tofiq Yaqubluya Azadlıq!**



# Yumşaqca "van minit"

(Bu yazımı Leyla Yunusa ithaf edirəm)

**Mən dəfələrlə iqtidarın yüksək titullu təmsilçilərinin hakimiyyəti ifşa edən açıqlamaları haqda yazmışam. Sonuncu dəfə bunu "ATV-yə təşəkkür" yazımda etmişdim. ATV polisin peşə bayramına həsr etdiyi bir verilişdə mərhum dövlət başçısı Heydər Əliyevin DİN-in yubileyində etdiyi çıxışını vermişdi. Heydər Əliyev deyirdi ki, vətəndaşlarımız 1993, 1994, 1995-ci illərdə qorxudan küçəyə çıxa bilmirdilər. Çünki xaos hökm sürürdü. Halbuki YAP-ın rəsmi təbliğatına görə, vətəndaşlarımız Elçibəy hökuməti dövründə qorxudan küçəyə çıxa bilmirlərmiş, Heydər Əliyev hakimiyyətə gələn gündən ölkədə əmin-amanlıq yaradılıb. Bundan sonra bu mövzuda hansısa yapçı mıqq eləyə bilər?**

YAP-ın təbliğatının əsas istiqamətlərindən biri də beledir ki, səriştəsiz Elçibəy hakimiyyəti yürütdüyü səhv siyasət nəticəsində dünyanı Azərbaycana düşmən etmişdi, heç bir dövlət haqq səsimizi eşitmir, bizi dəstəkləmirdi. Ancaq Heydər Əliyevin hakimiyyətə gəlişi sayəsində Azərbaycan informasiya blokadasını yardı, həqiqətləri dünyaya çatdırdı, dünya bizi müdafiə etməyə başladı, Ermənistan isə təklənərək təcrid olunmuş vəziyyətə düşdü. Bir neçə gün əvvəl baş nazirin müavini, "qaçqınkom" Əli Həsənov telekameralar qarşısında açıq şəkildə bəyan etdi ki, Azərbaycan dünyada tək qalıb, onu heç kəs müdafiə etmir, hətta Türkiyə də yanımızda deyil. İndi buyursunlar, bundan sonra yapçılar mıqq etsinlər, görüm necə edəcəklər! Yoldaş yapçılar, əgər Azərbaycan dünyada təklənibsə, Qarabağı qaytarmağın nə dərəcədə real olduğu haqda bir-iki söz desəniz çox maraqlı olardı. Partiyanızın əsas təbliğatçılarından və ideoloqlarından biri olan Mübariz Qurbanlını dini işlərlə məşğul olmağa göndəribsiniz. Olmaya daha Lazım kişiyə ehtiyac qalmadı, Qarabağı dualarla qaytarmağı düşünürsünüz?

Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Bakıda rəsmi səfərdə oldu. İqtidar təbliğatçıları özlərini yırtırlar ki, Rəcəb bəyin prezident seçkilərindən sonra ilk səfərini Bakıya etməsi Türkiyə iqtidarının Azərbaycana nə qədər önəm verməsinin göstəricisidir. Onu da qeyd edirlər ki, R.T.Ərdoğan əvvəlki seçki qələbələrindən sonra da ilk səfərini Azərbaycana edibmiş. Hə, noolsun? Olmaya çantasında Qarabağ probleminin həlli layihəsini gətirir? Düzdür, Türkiyə prezidenti hər dəfə olduğu kimi, bu dəfə də Azərbaycanı dəstəkləyən bəyanatlar verdi, Qarabağ mövzusunda isti mesajlarının şahidi olduq. Amma bu, hər şey demək deyil. Bir də gördün ölkəsinə qayıtdıqdan sonra ikinci bir Rauf Mirqədirov olayı yaşandı.

Rauf Mirqədirovun tutulması səbəbi ilə bağlı çoxlu versiyalar oxumuşam. Heç biri də ağlıma batmayıb. Deyirlər ki, Rauf bəy "Zerkalo" qəzetində Rusiyanın, Putinin əleyhinə yazırmış, ona görə də onun həbsi Moskvadan sifariş oluna bilərdi və s. Çox zəif arqumentdir, heç bir tənqidə dözə bilməz. Məsələ üzdə olduğu halda fantaziyalara baş vurmağa nə ehtiyac var? Birinci gündən demişəm ki, Rauf Mirqədirovun həbsi Leyla Yunusun həbsi planının tərkib hissəsidir. Əvvəlcə onunla əməkdaşlıq edən Rauf bəyi casusluqda, ermənilərə işləməkdə ittiham edirlər, bir müddət "təhqiqat" gedir və gəlib Leyla xanımın üstünə çıxırlar. Məncə, məsələ bu qədər sadədir.

Çoxları Ərdoğana məftundur. Onu qətiyyət, cəsarət və qeyrət mücəssəməsi sayırlar. Xüsusən də Davosda Simon Peresin nitqini kobudcasına "van minit" deyərək kəsdikdən sonra o, daha da məşhurlaşmışdı. Görəsən, cənab Ərdoğan o yumşaq formada da olsa bizim iqtidar sahiblərindən həbsləri, təqibləri dayandırmağı xahiş edə bilərmi? Ağlım heç kəsmir.

# Türk liseyləri ilə bağlı yeni qərar

## Bir müddət əvvəl fəaliyyəti dayandırılan məktəblər akademik Zərifə Əliyeva adına liseyin tabeçiliyinə verildi

**Sentyabrın 4-də "Çağ Öyrətim İşlətmələri" Şirkətinə daxil olan türk liseylərinin fəaliyyətinə "yaşıl işıq" yandırıldığı barədə məlumat yayıldı. Gələn xəbərlərdə bildirilirdi ki, "Araz" hazırlıq kursları və "Çağ Öyrətim İşlətmələri"nə daxil olan türk liseyləri yenidən müxtəlif adlarla fəaliyyətini bərpa edib.**

Lent.az-ın verdiyi məlumata görə, bir neçə ay öncə fəaliyyəti dayandırılan kurs və liseylər "Uğur" və "Ulduz" adları altında fəaliyyət göstərəcək. "Çağ Öyrətim İşlətmələri"nin də daxil olduğu keçmiş **Azərbaycan Beynəlxalq Təhsil Mərkəzinin müdir müavini Məhəmməd Hüseynov** oxu.az-a açıqlamasında yayılan məlumatları təsdiqləyib: "Bundan sonra tədris müəssisələri Zərifə Əliyeva adına liseylər kimi fəaliyyətini davam etdirəcək. Tədris sistemi Təhsil Nazirliyinin əsasnamələri əsasında həyata keçiriləcək. Məktəbdə çalışan müəllimlərin ştatında isə heç bir dəyişiklik yoxdur".

"Çağ Öyrətim İşlətmələri"nin bölgələrdə fəaliyyət göstərən liseylərindən isə sayta deyilib ki, Bakı və regionlardakı bütün liseylərin müəllim kontingenti saxlanılsa da, direktorların dəyişdiriləcəyi gözlənilir. Onu da əlavə ediblər ki, yaxın günlərdə Təhsil Nazirliyinin nümayəndələri bu məsələ ilə bağlı liseylərdə olacaqlar.

"Çağ Öyrətim İşlətmələri"nin adının açıqlanmasını istəməyən təmsilçisi isə "Yeni Müsavat"a bildirildi ki, türk liseylərinin fəaliyyətə başlaması ilə bağlı Təhsil Nazirliyinin qərarını gözləyirlər: **"Fəaliyyətə başlayacağıq, amma hələ Təhsil Nazirliyinin qərarı yoxdur"**.

Şagirdlərin valideynləri isə bildirib ki, bir gün əvvəl keçmiş Dədə Qorqud Özəl Türk Liseyində Təhsil Nazirliyinin nümayəndələrinin iştirakı ilə iclas keçirilib. Bildirilib ki, keçmiş türk liseylərinin fəaliyyəti bərpa olunacaq və bundan sonra bu məktəblər Zərifə Əliyeva adına liseylər kimi fəaliyyət göstərəcəklər.

Valideynlərin bildirdiyinə görə isə nazirlikdən sentyabrın 12-də onların bir daha iclasa gəlmələri istənilib.

SOCAR-dan da "Çağ Öyrətim İşlətmələri"nə daxil olan məktəblərin açılması ilə bağlı yayılan xəbərə reaksiya gəlib.

**"Qafqazinfo"ya açıqlamasında ARDNŞ mətbuat xidmətinin rəhbəri Nizaməddin Quliyev** bildirib ki, "Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi" bağlanan məktəblər haqqında qərarını bir müddət əvvəl verib: **"Həmin qərar yenə də qüvvədədir. Yayılan məlumatlar həqiqəti əks etdirmir"**. Qeyd edək ki, "Azərbaycan Beynəlxalq Təhsil Mərkəzi" SOCAR-ın nəzdində fəaliyyət göstərir.




Təhsil Nazirliyinin yaydığı açıqlamada qeyd olunur ki, (APA) Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin *("Çağ Öyrətim İşlətmələri")* bir müddət əvvəl fəaliyyəti dayandırılan liseyləri akademik Zərifə Əliyeva adına liseyin tabeçiliyinə verilib. Qeyd olunur ki, nazirlik Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin ləğv olunmuş ümumtəhsil müəssisələrinin şagirdlərinin yerləşdirilməsi prosesini yekunlaşdırır. Son məlumata əsasən, burada təhsil almış şagirdlərin 42 faizi artıq digər dövlət və özəl məktəblərinə qəbul olunub. Digər təhsil alanların Azərbaycan Respublikasının Konstitusiyası ilə təsbit edilmiş təhsil hüquqlarını təmin etmək və təhsillərini yüksək səviyyədə davam etdirilməsinə imkan yaratmaq məqsədilə Təhsil Nazirliyi Bakı şəhərində Akademik Zərifə Əliyeva adına liseydə, regionlardan isə Gəncə, Şirvan, Quba, Lənkəran, Mingəçevir və Ağdaşda fəaliyyət göstərən və şagirdlərinin nailiyyətlərinə görə həmin bölgədə ilk pillələri tutan dövlət ümumtəhsil müəssisələrində eksperimental pilot siniflərin açılması barədə qərar qəbul edib. Qəbul olunmuş qərara əsasən, eksperimental pilot siniflər həmin şəhərlərdə mövcud olan ABTK-nın bağlanmış lisey binalarında yerləşdiriləcək və seçimini etməmiş şagirdlərə könüllü əsaslarla bu məktəblərə keçmək təklif olunacaq. Eksperimental pilot siniflərdə tədrisin təşkili üçün özəl təhsil qurumlarının cəlb olunması nəzərdə tutulur. Burada tam orta təhsil proqramından əlavə, ayrı-ayrı fənlərin dərinləşdirilmiş, o cümlədən xarici dillərdə tədrisi proqramı tətbiq olunacaq.

**Zərifə Əliyeva adına liseyin direktoru Məhəbbət Vəliyeva** sayta açıqlamasında məlumatı təsdiqləyərək bildirib ki, bununla bağlı təhsil nazirinin əmri var. Onun sözlərinə görə, bu liseylər akademik Zərifə Əliyeva adına liseyin "Eksperimental pilot sinifləri" adlanacaq və belə formada fəaliyyət göstərəcək: **"Bizim lisey dövlət liseyidir və Təhsil Nazirliyinin birbaşa tabeliyindədir. Liseydə Azərbaycan və rus dillərində təhsil verilir. Amma hazırda fəaliyyət göstərəcək eksperimental pilot siniflərdə təhsil ingilis dilində və ödənişli olacaq. Bu vaxta kimi fəaliyyət göstərən türk liseylərində də şagirdlər məhz ingilis dilində və ödənişli təhsil alırdılar"**.

M.Vəliyeva əlavə edib ki, liseylər əvvəlki binalarında fəaliyyətlərini davam etdirəcəklər. Onun sözlərinə görə, əvvəlki qaydalar saxlanılmaqla liseyin şagirdləri öz təhsillərini davam etdirəcəklər: **"Yalnız bunların hamısı dövlətin nəzarətinə keçib və dövlət standartları orada da tətbiq olunacaq. Hər bir liseyin idarəçiliyi Zərifə Əliyeva adına lisey tərəfindən olacaq. Qəbul olunan şagirdlər və liseylər bizim liseyin tərkib hissəsidir. Buna görə də liseylərdə illik ödəniş, müəllim heyəti və hər şey saxlanılmaqla onlar Zərifə Əliyeva adına liseyin tabeçiliyində fəaliyyət göstərəcəklər"**.

Qeyd edək ki, bu il iyunun 18-də Dövlət Neft Şirkətinin (ARDNŞ) nəzdindəki Azərbaycan Beynəlxalq Təhsil Kompleksinin ümumtəhsil müəssisələri və "Araz Kursları" MMC-nin fəaliyyətinin dayandırılması haqqında qərar verilib.

❑ **Cavid TURAN**

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014



# Müsavat başqanının kabinet məsələsi...

## "Məsələ o deyil ki, kim hansı otaqda oturacaq..."

**Müsavat Partiyasında keçiriləcək başqan seçkiləri bir çox tərəflərdən müzakirə olunmaqdadır. Müzakirə edilən və maraqlı tərəflərdən biri də kabinet məsələsi - yeni və köhnə başqanın harada oturacağı ilə bağlı suallardır. Hazırkı başqan İsa Qəmbərin başqanlıq seçkisindən sonra da partiyada qalıb fəaliyyətini davam etdirəcəyi gözlənildiyindən, onun kabinetdən çıxıb öz yerini yeni başqana verib-verməyəcəyi məlum deyil. Bəs başqanlığa iddialılar nə düşünür, yeni başqan köhnə başqanın kabinetinə buraxılacaqmı? Yaxud köhnə başqan kabinet və kreslosunu yeni başqana verəcəkmi?**

**Başqanlığa namizəd Tural Abbaslının** fikrincə, yeni başqan elə köhnə başqanın kabinetində oturmalıdır. Çünki kabinet məhz Müsavat başqanı üçün nəzərdə tutulub: "Deməli, başqanın oturduğu indiki yer Müsavat başqanının kabinetidir və orada geniş bir ərazini əhatə edir. Qəbul otağı, mühafizəçilərin otağı var, bir balaca mətbəx var, başqanın ayrıca istirahət otağı var və ayrıca hamamı da var. Yəni bu şərtlər bir başqanın fəaliyyət göstərməsi üçün tələb olunan şərtlərdir. Nəzərə alsaq ki, başqan gün ərzində saatlarla partiyada oturur və fəaliyyətlə məşğuldur, bunlar minimum tələb olunan şəraitdir. Bu dəqiqə partiyada elə bir xüsusi şərait yoxdur ki, başqa otaqlarda da o cür şərtləri tərtib edəsən. Ona görə yeni başqan da orada oturacaq".

**O, həmçinin qeyd edib ki, başqanın kabineti ilə bağlı yeni və köhnə başqan arasında problem çıxacağını da düşünmür:** "İsa bəy hansı otağı bəyənsə, istəsə, onundur. İsa bəyin istədiyi otaq onun zövqünə, işləmə imkanlarına uyğun xüsusi tərtib oluna bilər. Bugünkü başqan kabinetində isə yeni başqan oturacaq".

**Başqanlığa iddialı Səxavət Əlisoy isə qeyd edib ki, sözügedən kabinet İsa Qəmbərə məxsusdur:** "Bu kabinet başqanlıqdan daha çox ona məxsusdur. Həyatı, ən azı on ili orada keçib. Düşünürəm ki, İsa bəy Müsavatdan getmir. Onun üçün ən yaxşı fəaliyyət göstərəcəyi yer vərdiş etdiyi həmin kabinetdir. Yeni başqan üçün mümkün olsa, yeni kabinet hazırlanar. Yəni özü zəhmət çəkib kabinet qurar. Mən İsa bəyin oradan çıxmasının qətiyyən əleyhinəyəm. İsa bəy nə qədər yaxın olarsa, yeni başqana o qədər gərək olar. Müsavat daxilində hər hansı qarşıdurmalar, çəkişmələr, daha nələr, nələr İsa bəy olmadan həll edilməsi çətin məsələ olar".

**Başqanlığa iddialı Qubad İbadoğlunun fikrincə isə yeni başqanın harada oturacağı ciddi bir məsələ deyil:** "Biz hələ o barədə düşünmürük, nə kabinet, nə kreslo barədə. Hesab edirik ki, İsa bəy öz fəaliyyətini davam etdirəcək. Bu baxımdan, iş şəraiti, fəaliyyət imkanları ilə bağlı heç bir məhdudiyyətdən söhbət gedə bilməz. Partiyanın qərargahında belə imkanlar var. Bu imkanlardan istifadə edib, İsa bəyin maddi resurslardan istifadə etməsinə şərait yaradacağıq". **Onun sözlərinə görə, kabinet məsələsi texniki bir məsələdir:** "İsa bəy istədiyi, arzuladığı kimi hər hansı yeri məqsədəmüvafiq hesab edəcəksə, problem olmayacaq.

Hər halda, orada kabinet imkanları var, bir çox müxtəlif otaqlar var, eyni şəraiti yaratmaq mümkündür. Məsələ o deyil ki, kim hansı otaqda oturacaq. Əsas odur ki, hər bir şəxs üçün orada iş şəraiti olsun, bərabər paylaşaq və hamı bundan Müsavat üçün bəhrələnə, istifadə edə bilsin. Biz əslində bu kabinetə İsa bəyin iş otağı kimi yanaşırıq və bu, yaqin ki, öz yerində qalacaq".

**Arif Hacılı isə bildirib ki, Müsavat Partiyasında başqan dəyişikliyi ciddi və Azərbaycan siyasət tarixində yeni bir hadisədir:** "Biz hazırda bu hadisə nəticəsində Azərbaycan cəmiyyətinə verə biləcəyimiz töhfələr barədə düşünürük. Texniki, təşkilati məsələlər vacib deyil və açığı, bu mövzuda müzakirələri də zəruri saymıram".

❑ **Röya RƏFİYEVA**

**Sentyabrın 4-də NATO-nun Uels sammiti öz işinə başlayıb. Azərbaycan prezidenti İlham Əliyevin də qatıldığı sammitdə NATO-ya üzv və qeyri-üzv ölkələrin dövlət başçıları iştirak edir. BMT və Avropa İttifaqından olan yüksək vəzifəli şəxslərlə birgə sammitə ISAF-da iştirak edən ölkələrin, Əfqanıstan və Yaponiyanın dövlət başçıları da qatılıblar.**




# NATO-nun tarixi sammiti başladı

## Azərbaycan prezidentinin də qatıldığı toplantıda Avropa təhlükəsizliyi üçün mühüm qərarların qəbulu gözlənilir; kritik müzakirələrin mərkəzində Ukraynadır; Qarabağ məsələsinin də diqqətdə olacağı istisna deyil...

"Yeni Müsavat"ın Avropa müxbiri Elbəyi Həsənlinin verdiyi məlumata görə, alyansın baş katibi Anders Foq Rasmussen açılış çıxışında Rusiya haqda sərt fikirlər səsləndirib, onu Ukraynaya təcavüzdə suçlayıb, NATO-nun Rusiya ilə əməkdaşlığı dayandırdığını söyləyib. Rasmussen həmçinin deyib ki, Baltikyanı ölkələrdə yeni çevik və hərbi qarşıdurmalara tez müdaxilə edə bilən bazalar yerləşdiriləcək, NATO-ya yaxın olmaq üçün Gürcüstan üçün xüsusi proqram hazırlanacaq, hərbi alyans separatçılarla mübarizədə Ukraynaya dəstək verəcək.

Ukrayna prezidenti Petro Poroşenko isə sammitdən öncə ABŞ prezidenti Barak Obama və Aİ liderləri ilə görüşüb. Poroşenko Rusiya prezidenti Putinlə danışıqlarını dünya liderləri ilə müzakirə edib. Sentyabrın 5-də davam etdiriləcək sammitin sonunda Şərqi Avropanı Rusiya təcavüzündən qorumaq üçün NATO-nun yeni hərbi qüvvələrinin yaradılması gözlənilir.

Toplantının gündəliyinin əsas mövzuları Ukraynada baş verən hadisələr, Yaxın Şərqdə və Şimali Afrikada artmaqda davam edən ekstremizm və məzhəb qarşıdurmaları, NATO-nun bu il Əfqanıstanda hərbi missiyasını başa çatdırması məsələləri əsas müzakirə mövzusu olacaq. Habelə Poroşenkonun iştirakı ilə NATO-Ukrayna komissiyasının iclası olacaq. NATO müdafiə və xarici işlər nazirlərinin də paralel iclası nəzərdə tutulub.

NATO müdafiə nazirlərinin 24 ölkədən olan tərəfdaş dövlətlərin təmsilçiləri ilə görüşdə Azərbaycan da iştirak edəcək. Bəzi müşahidəçilərə görə, bu tədbirdə Azərbaycanın işğal olunmuş əraziləri ilə bağlı mühüm müzakirələr də aparılacaq. Şimali Atlantika Alyansı Rusiyanın NATO-ya üzv dövlətlərinin ərazisində hibrid müharibəsinə qarşı yeni formul yaradılması məsələsinə baxır.

Dünən sammit çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin görüşü də gözlənilirdi. Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlikin sözlərinə görə, görüş ABŞ dövlət katibi Con Kerrinin təşəbbüsü ilə, Bakı vaxtilə axşam saatlarında (21:30) keçirilməli idi. ABŞ Dövlət Departamenti də toplantı çərçivəsində Azərbaycan və Ermənistan prezidentləri arasında danışıqların keçiriləcəyini açıqlayıb. Görüşün yeri barədə məlumat verilmir.

**Bu arada NATO rəsmisi xarici düşməndən kollektiv müdafiə olunmaq mexanizminə yenidən baxılacağını deyib. Müqavilənin 5-ci bəndində göstərilir ki, üzv dövlətlərin birinə edilən hücum alyansın bütün üzvlərinə edilmiş hücumdur:** "Lakin Rusiya Ukraynada hibrid müharibə taktikası ilə çıxış edir. Biz buna hazır olmalıyıq. Biz Putinin NATO üzvü olan ölkələrdə yaşayan milli azlıqların müdafiəsinə qalxacağı təqdirdə çalışacağıq ki, 5-ci maddəni tam işə salmayaq". **Onun sözlərinə görə, üzv ölkələrdən bir neçəsi Kremlin bu yola əl atacağından narahatdır:** "Unutmuruq ki, Estoniya əhalisinin 30 faizi ruslardır, Latviyada da eləcə. Buna görə də Baltikyanı ölkələr, o cümlədən Polşa çox narahatdır".



"NATO-da əminlik var ki, Ukraynada minlərlə rus hərbçisi, Rusiyaya məxsus yüzlərlə tank və digər hərbi texnika yerləşdirilib". APA-nın "Reuters"ə istinadən verdiyi məlumata görə, bu barədə NATO-dakı mənbə bildirib. ABŞ prezidenti Barak Obama və İngiltərə baş naziri Devid Kemeron isə alyansın Avropanın şərqində daha da möhkəmlənməsini istədiklərini bəyan ediblər. Avropa.info-nun xarici KİV-ə istinadən verdiyi xəbərə görə, ABŞ və Böyük Britaniya rəhbərləri NATO-nun Şərqdəki mövqelərini möhkəmləndirərək, burada yerləşən ölkələri Rusiyanın aqressiyasından qorumaq məqsədi güddüyünü bildiriblər.

ABŞ və Britaniyanın rəhbərlərinin birgə yaydığı bəyanatda bildirilib ki, bundan sonra onların müttəfiqlərinə qarşı olacaq hər hansı hərbi müdaxiləyə bütün qurum ölkələri birgə cavab verəcək.

❑ **Cavid TURAN**

# Mətanət Əzizova ərinə görə özünü öldürmək istəyir

## Mühacirətdə olan xanım hüquq müdafiəçisinin həyat yoldaşında xəstəlik aşkarlanıb; onu müalicə üçün xaricə buraxmırlar

### "Bir vasitəm qalıb ki, gedim səfirliyin qarşısında intihar edim"

**4 ay öncə Leyla Yunusla bağlı istintaqa cəlb olunduğuna görə ölkəni tərk etmək məcburiyyətində qalan Qadın Krizis Mərkəzinin rəhbəri Mətanət Əzizovanın həyat yoldaşı Eldar Əzizovun səhhətində ciddi problemlər yaranıb. Onun xəstəliyi Neftçilər Xəstəxanasında müayinələr zamanı aşkarlanıb.**



Mətanət Əzizova

Bu barədə məlumatı interpress.az-a M.Əzizovanın anası Mirvari Qəhrəmanlı verib: "Mətanətin həyat yoldaşı ciddi xəstədir. Müalicə üçün İrana aparmaq istəyirik, ancaq sərhəddə yasaq qoyulub. Məhkəməni də qəsdən uzadırlar. Vaxtında ciddi müalicə götürməsə, həyatı üçün təhlükə var. Öd kisəsindəki daşla əlaqədar cərrahiyyə əməliyyatı aparmaq istəyiblər. Qaraciyər və ödündə ciddi xəstəlik aşkar olunub. Xaricdə müalicəyə ehtiyac var. İranda bu xəstəliyin müalicəsi daha ucuzdur".

**Baş verənlərlə bağlı hazırda Avropa ölkələrindən birində mühacir kimi yaşayan hüquq müdafiəçisi Mətanət Əzizovanın özü ilə sosial şəbəkələr vasitəsilə əlaqə saxladıq. O, həyat yoldaşının səhhəti ilə bağlı musavat.com-a bunları dedi:** "Dəqiq diaqnozu hələ yoxdur. Müayinə edirlər. Kəskin ağrıları var. Mənimlə bağlı baş verən hadisələr istər-istəməz ona ciddi təsir etdi. Özünə çox qapandı. Yoldaşımın anası və qardaşı da düzgün diaqnoz qoyulmaması ucbatından rəhmətə gediblər. Ona görə də Azərbaycan səhiyyəsinə etibarım yoxdur. Eldara təcili ölkədən çıxmaq lazımdır. Ona görə çox narahatam. Ona qarşı hansısa addımlar atılacağından qorxuram. Qəsdən sağlamlığına ziyan vurarlar. O, düzgün müalicə almaq üçün ölkədən təcili çıxmalıdır. Təhlükəsizliyi də təmin olunmalıdır".

**Hüquq müdafiəçisi çarəsiz qaldığını və intihar həddinə çatdığını bildirdi:** "Mənim bir vasitəm qalıb ki, gedim səfirliyin qarşısında intihar edim. Bəlkə ondan sonra ailəmə qarşı olan təzyiqlər bitər, beynəlxalq təşkilatlar oyanar".

**Bütün bunlara baxmayaraq, Mətanət Azərbaycana qayıtmaq fikrində olmadığını da qeyd etdi:** "Hər nə olursa olsun, ölkəmə qayıtmaq fikrim yoxdur. Bunu heç ağlımdan keçirmirəm. Əvvəllər yoldaşımın səhhətində problemlər olmayıb. İndi anamla danışdım. Stress, vaxtında qidalanmamaq, sinir pozuntusu Eldarın səhhətinə ciddi zərbə vurdu. Onun müalicəsi düzgün olmalıdır ki, sağlamlığında problemlər olmasın. Adətən bu diaqnoz ilə İrana müalicə olunmağa gedirlər. Oradakı həkimlər həm güclüdür, həm də dərmanlar ucuzdur".

Qeyd edək ki, Mətanət Əzizova ölkəni tərk etdikdən sonra həyat yoldaşı Eldar Əzizov və oğlu Camalın Azərbaycandan çıxışına yasaq qoyulub.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014

# “AAAF-İnşaat” MMC-nin vəhhabi sahibi ilə bağlı şok detallar

**“AAAF Park” yaşayış kompleksində Vergilər Nazirliyi və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə İdarəsinin əməkdaşları tərəfindən yoxlama aparıldığı və bu yoxlamalardan sonra MMC-nin rəhbəri Tofiq Heydərovun saxlanılması barədə məlumatlar yayılıb. T.Heydərovun sələfi dini icmasının əsas fiqurlarından biri və icmanın maliyyə dəstəkçilərindən olması barədə də məlumatlar var.**




# İki oliqarxın adı keçən biznes qurumu haqda yeni sensasion bilgilər

## MMC-yə rəhbərlik edən sələfi Tofiq Heydərovun biznes tərəfdaşları Beynəlxalq Bankın şefi Cahangir Hacıyev, AZAL-ın rəhbəri Cahangir Əsgərov, sabiq deputat Dünyamin Xəlilov və Beynəlxalq Bankın 185 milyon kreditini mənimsəyən Xəqani Bəşirov olub; “Bakı Quşçuluq” ASC-nin torpaqlarını “su qiymətinə” ələ keçirən T.Heydərov Moldova, Türkiyə, Rusiya, Bolqarıstan, Gürcüstan, Ukrayna və Polşada özünə böyük biznes imperiyası qurub

Məsələ ilə bağlı “Yeni Müsavat” araşdırma aparıb və maraqlı detallar üzə çıxarıb. T.Heydərovun AZAL-ın rəhbəri Cahangir Əsgərovla yanaşı, Beynəlxalq Bankın İdarə Heyətinin sədri Cahangir Hacıyevlə də şərikli biznesi olması barədə təkzibolunmaz məlumatlar əldə etmişik. “AAAF Park” yaşayış kompleksi “Bakı Quşçuluq” ASC-nin ərazisində inşa edilib. ASC isə C.Hacıyevə məxsus olub. Bu barədə hələ ötən saylarımızda ASC-nin səhmdarı Şahin Əlizadəyə istinadən məlumat yaymışdıq.

### “Bakı Quşçuluq” ASC-nin torpaqları necə mənimsənilib?

Ş.Əlizadə redaksiyamıza bildirmişdi ki, “Bakı Quşçuluq” ASC-nin minor səhmdarları *(kiçik pay sahibləri - red.)* Beynəlxalq Bankın İdarə Heyətinin sədri, səhmdar cəmiyyətinin səhm paketinin gerçək yiyəsi Cahangir Hacıyevi müəssisəyə məxsus torpaq sahələrini qanunsuz olaraq AZAL-ın baş direktoru Cahangir Əsgərova satmaqda ittiham edirlər.

**Səhmdarın sözlərinə görə, Cahangir Hacıyev Cahangir Əsgərovu “Bakı Quşçuluq” ASC-nin minor səhmdarları ilə qarşı-qarşıya qoymaq istəyir:** ““Bakı Quşçuluq” ASC tam özəlləşdirilmiş səhmdar cəmiyyətidir. ASC-nin nəzarət səhm zərfi “Xəzər Menecment Sistems” MMC-yə məxsusdur. MMC-nin təsisçisi C.Hacıyevin ortağı olan Xəqani Bəşirovdur".

Yada salaq ki, X.Bəşirovun adı 2 il öncə qəzetlərin manşetini bəzəyirdi. Onun adı təsisçisi olduğu şirkətlər vasitəsilə Azərbaycan Beynəlxalq Bankından alınmış 185 milyon dollar kreditin mənimsənilməsində hallanırdı. Daha doğrusu, bu işlə bağlı cinayət işi açılmış və 2011-ci ilin sentyabrın 12-də Xətai Rayon Məhkəməsində X.Bəşirovun barəsində 3 aylıq həbs-qətimkan tədbiri seçilmişdi. Həbsdən verilən apelyasiya şikayətini Bakı Apelyasiya Məhkəməsi təmin etməyib və Xətai Rayon Məhkəməsinin hökmü qüvvədə saxlanılmışdı. Ancaq 2012-ci ilin yanvarında X.Bəşirov gözlənilmədən azadlığa buraxılır və ölkəni tərk edir. Hazırda onun Bakıya qayıtması ilə bağlı məlumatlar var.

**Ş.Əlizadənin sözlərinə görə, “Bakı Quşçuluq” ASC 36 hektar torpaq sahəsində yerləşmişdi və həmin torpaq sahəsi tam özəl idi. 2011-ci ildə səhmdar cəmiyyətin ləğvi prosesi başlandı və bununla “Xəzər Menecment Sistems” MMC ilə minor səhmdarlar arasında konfliktə start verildi:** "Cəmiyyətin ləğvetmə komisiyasının ASC-ni qeyri-qanuni yollarla ləğv edib minor səhmdarları mülkiyyət hüquqlarından məhrum etmək istəyi getdikcə konflikti dərinləşdirirdi. Əvvəllər səhmdar cəmiyyətə məxsus torpaq sahəsində “AAAF-İnşaat” MMC şəhərcik inşa edib, mənzil və villaları ayrı-ayrı vətəndaşlara satırdı. ASC-nin minor səhmdarları əvvəllər ehtimallar irəli sürürdülər ki, cəmiyyətin ləğvi əslində qeyri-qanuni torpaq sahəsinin alqı-satqı edilməsini ört-basdır etmək məqsədini güdürdü. Son zamanlar ələ keçən sənədlər onu təsdiq etdi ki, səhmdarların ehtimalları düz imiş".

### Cahangir Hacıyevin “Şəki gedişi”

**Səhmdarın sözlərinə görə, ASC-nin tam özəlləşdirilmiş 30 hektardan çox torpaq sahəsi 19 avqust 2011-ci il tarixində alqı-satqı yolu ilə satılıb:** “Ləğvetmə prosesinə isə yalnız 30 sentyabr 2011-ci il tarixində start verilib. Torpağı satandan sonra Cahangir Hacıyev ASC-ni Şəkiyə köçürmək istəyirdi, hətta buna dair məsələni bir dəfə səhmdarların ümumi yığıncağına da çıxarmışdı. Lakin sonradan, görünür, torpaq sahəsinin alıcısının təkidi ilə cəmiyyətin ləğvinə başlandı. Lakin son zamanlar yəqin haqsız olduğuna görə məhkəmə çəkişmələri ona bahaya oturduğundan Cahangir Hacıyevin adamları ona çalışır ki, məhkəmələrdə mübahisələr sona çatmamış ASC-ni hüquqi şəxslərin reyestrindən çıxarmağa nail olsun və bununla da hüquq-mühafizə orqanları qarşısında cavabdehlik daşımasınlar. ”Bakı Quşçuluq" ASC aradan çıxandan sonra səhmdarların bütün mümkün iradlarına və iddialarına “AAAF-İnşaat” MMC-nin cavab verməli olacağı barədə fikir dövriyyəyə buraxıblar. ASC-nin minor səhmdarları düşünürlər ki, C.Hacıyev qəsdən C.Əsgərovla səhmdarları qarşı-qarşıya qoymaq istəyir. Bunu ASC-yə məxsus torpaq sahəsinin “AAAF-İnşaat” MMC-yə satılmasına dair alqı-satqı müqaviləsinin surətlərinin səhmdarlara təqdim edilməsi də təsdiq edir. Sanki bununla səhmdarlara demək istəyirlər ki, “budur, sizə məxsus torpaq sahəsini ucuz qiymətə ələ keçirən şəxs, gedin ondan öz payınızı istəyin. Bununla bağlı səhmdarlar artıq Cahangir Əsgərova müraciət ünvanlayıb ki, ”əgər Cahangir Hacıyev istədiyinə nail olsa, onda səhmdarlar məcbur qalıb öz etiraz və iddialarını AZAL rəhbərinə qarşı yönəldəcəklər". Çünki sənədlərə görə, səhmdarları talayan məhz “AAAF-İnşaat”dır, məhz bu MMC torpaq sahəsini dəfələrlə bazar qiymətindən aşağı qiymətə alıb. Minor səhmdarlar anlayırlar ki, alqı-satqı müqaviləsində göstərilən qiymət real qiymət deyil və sövdələşmə tam başqa şərtlər əsasında baş verib. Məhz bu səbəbdən bu gün mübahisələr məhz Cahangir Hacıyevin komandası ilə səhmdarlar arasında gedir. Sonuncular hesab edirlər ki, onlara çatası ləğvetmə payını C.Hacıyevin komandası mənimsəyib".

### “AAAF-İnşaat” torpağı 5 dəfə ucuz qiymətə ələ keçirib

**“Bakı Quşçuluq” ASC-nin özəlləşdirilməsində də qanunsuzluğa yol verilməsi ilə bağlı iddialar var. ASC-nin veteranı və səhmdarı, müəssisənin sabiq direktoru Adil Mirzəyev bir qədər öncə “Yeni Müsavat”a bildirmişdi ki, Azərbaycan Beynəlxalq Bankının sədri Cahangir Hacıyev “Xəzər Menecments Sistems” MMC-nin sədri, sabiq deputat Dünyamin Xəlilovla fabriki qanunsuz yolla ələ keçirdikdən sonra müəssisənin qara günləri başlayıb.**

**A.Mirzəyevin sözlərinə görə, C.Hacıyev və D.Xəlilov “Bakı Quşçuluq” ASC-ni ələ keçirəndən sonra müəssisənin əmlakının talan edilməsinə start verilib:** “Heç bir əsas olmadan fabrikin ümumi balans dəyəri süni şəkildə, indiki hesabla 6 milyon manatdan çox azaldılıb. Fabrikə məxsus torpaq sahəsi özəlləşdirilərkən 11,4 hektar az göstərilib, 194 min baş müxtəlif yaş qruplarından olan quşlar və 48 milyon ədəd yumurta sənədsiz satılaraq mənimsənilib. Bundan başqa, ASC-yə məxsus olan, mühasibat uçotuna əsasən qalıq dəyəri 2 milyon 791 min 187 manat təşkil edən 63 adda əsas vəsaitlər, eləcə də 107 adda dəyəri 779 min 368 manat olan avadanlıqlar tikililər kimi satılıb”.

Səhmdar daha sonra bildirir ki, ASC-nin ərazisində 2010-cu ilin fevral ayından qanunsuz inşaat işləri aparan “AAAF-İnşaat” MMC ilə tikintinin birlikdə davam etdirilməsi üçün Beynəlxalq Bank 18 avqust 2011-ci ildə ASC-yə 5 il müddətinə 20 milyon manat ipoteka krediti ayırıb. Bundan cəmi 1 gün sonra, 19 avqust 2011-ci ildə isə dövlətə və biz səhmdarlara məxsus 31 hektar ərazi “AAA-İnşaat” MMC-nin baş direktoru Tofiq Heydərova qanunsuz olaraq 8 milyon 925 min manata satılıb. Halbuki həmin ərazidə torpağın 1 sotunun bazar qiyməti 15 min manatdır. Yəni real bazar qiyməti 46,5 milyon manat olan ərazi 5 dəfə ucuz qiymətə satılaraq mənimsənilib.

### Cahangir Hacıyev adaşına “torba tikir”

**Səhmdarların sözlərinə görə, C.Hacıyevin adamları ASC-ni qeydiyyatdan çıxarmaqla C.Əsgərovu “döyüş meydanında” səhmdarlarla tək qoyarkən çox gözəl anlayırlar ki, müflisləşdirilmiş “Bakı Quşçuluq” ASC-dən fərqli olaraq “AAAF-İnşaat” MMC özünü qeydiyyatdan çıxarıb aradan çıxa bilməz:** "Çünki “AAAF-İnşaat” Azərbaycan Ağır Atletika Federasiyasının inşaat şirkətidir və inşa etdiyi şəhərcikdə də Ağır Atletika Kompleksini tikdirir. Şirkətin rəhbəri Tofiq Heydərov Cahangir Əsgərovun müavini statusunda olan şəxsdir və hər hansı bir neqativ fakt aşkara çıxarsa, C.Əsgərovun həm cəmiyyətdə, həm də dövlət başçısının gözündə imici korlana bilər. Bu səbəbdən “AAAF-İnşaat”ın özünü ləğv edib səhmdarlarla şəhərciyin sakinlərini üz-üzə qoyması qeyri-mümkündür. C.Hacıyev yəqin düşünür ki, səhmdarlarla üz-üzə qalan C.Əsgərovun adamları çıxılmaz vəziyyətə uğrayıb ikinci dəfə xərcə düşüb problemi həll edər. Səhmdarlar bunu haqsızlıq saydığına görə C.Əsgərova müraciət edib bu ssenarinin inkişafının qarşısını almağa çağırıblar. Minor səhmdarlar hesab edirlər ki, mübahisə yalnız C.Hacıyevin komandası ilə səhmdarlar arasında getməlidir. Lakin hadisələrin sonrakı inkişafı səhmdarlardan asılı deyil, onu yalnız zaman göstərəcək".

Hadisələrin sonrakı inkişafı səhmdarların haqlı olduğunu üzə çıxarıb. C.Hacıyev oyundan çıxıb və bütün məsuliyyət C.Əsgərov və onun müavini F.Heydərovun üstündə qalıb. F.Heydərovun isə sələfi icmasının maliyyə dəstəkçisi olması hüquq-mühafizə orqanlarının diqqətindən yayınmayıb və onun fəaliyyəti nəzarətə götürülüb. Hazırda səhmdarlarla “AAAF-İnşaat” MMC arasında məhkəmə çəkişməsi var. Vergilər Nazirliyi “Bakı Quşçuluq” ASC-dəki maliyyə pozuntularını da təftiş edir. Ortada külli miqdarda mənimsəmə faktları var. F.Heydərovun hədəfə gəlməsi “Bakı Quşçuluq” ASC-dəki qanunsuzluqların yenidən aktuallaşmasına səbəb olub. İndi araşdırmalarda həm Cahangir Əsgərovun, həm Cahangir Hacıyevin, həm də onun biznes tərəfdaşları olan sabiq deputat Dünyamin Xəlilov və qalmaqallı biznesmen Xəqani Bəşirovun adı keçir. Təbii ki, bu şəxslərin sələfi icmasına aid olmasını iddia etmək qeyri-ciddi təsir bağışlaya bilər. Ancaq fakt budur ki, bu şəxslər sələfi icmasının maliyyə dəstəkçisinin biznes tərəfdaşları olublar. Araşdırmalar da bu müstəvidə aparılır.

### Tofiq Heydərovun xaricdəki biznesi

Sonda onu da qeyd edək ki, T.Heydərovun fəaliyyəti təkcə “AAAF-İnşaat” MMC ilə məhdudlaşmır. O, həm də “Zirvə İdman Kompleksi” MMC-nin sahibidir. “Zirvə İdman Kompleksi” MMC Moldovada Avropa Mərkəzi Məşq Bazasının tikintisini həyata keçirir. Razılaşmaya görə, bu baza paytaxt Kişinyovdan 30 kilometr aralıda, 1 080 000 kvadrat metr ərazidə qurulur. Bu barədə MMC-nin rəsmi məlumatında deyilir.

Rəsmi məlumata görə, bu kompleksin ətrafında da “AAAF Park Yaşayış Kompleksi”nin bənzərinin tikilməsi nəzərdə tutulub". MMC-nin “Zirve International Sport Clubs” (ZİSC) layihəsi çərçivəsində Türkiyə, Rusiya, Bolqarıstan, Moldova, Gürcüstan, Ukrayna və Polşada idman kompleksləri inşa etdirilib. Bu işləri sələfilərin Azərbaycan icmasının maliyyə dəstəkçisi Tofiq Heydərov həyata keçirib. Yəni T.Heydərov sıradan bir biznesmen deyil. Burada söhbət sələfilərin beynəlxalq səviyyədə təşkilatlanmış biznes şəbəkəsindən gedir.

**Yazıda adları çəkilən şəxslərin, qurumların mövqeyini dinləməyə və dərc etməyə hazırıq.**

❑ İqtisadiyyat şöbəsi

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014



# Mentaliteti dəyişmək olarmı?

Hüseynbala SƏLİMOV

**Bəli, düz deyiblər. İnsan psixologiyası ki var, o, olduqca qəribədir. Bəzən insanlar hamısı bir şey deyir, eyni bir şeydən gileylənir, amma hamı da öz dediyinin əksini edir.**

Bunun niyə belə olduğunu izah etmək çətindir. Bəlkə də ən sadə izahı budur ki, mentalitetdən və ənənələrdən ayrılmaq elə də asan deyil.

Bütün cəmiyyətlərdə standart davranış tərzi, standart davranış tipi olur. Hamı onlara əməl etməyə, onları yamsılamağa çalışır, çünki bu tipdən kənaraçıxmalar o qədər də yaxşı qarşılanmır, bəzən isə hətta problemlərə gətirib çıxarır.

İnsanların əksəriyyəti isə problem istəmir. Bəli, insanların əksəriyyəti tənələrə məruz qalmaq, cəmiyyət tərəfindən qınanmaq istəmir. Ona görə də hamı “Palaza bürün, ellə sürün!” misalı ilə yaşayır və ya bir qədər başqa cür desək, cəmiyyətlə ayaqlaşmağa cəhd edir.

Elə məhz bunun nəticəsində müəyyən stereotiplər mentalitetə, davranış tərzinə çevrilir. Bu, elə davranış tərzidir ki, guya orta statistik azərbaycanlını rusdan, rusu isə, tutaq ki, gürcüdən fərqləndirir.

Amma bu fərqlərin mahiyyətinə varanda görürsən ki, burada fundamental bir şey yoxdur, onlar daha çox situativ, ötəri dəyərlərdir...

Bir müddətdir ki, yenə də yas və toy məclisləri ilə bağlı mübahisələr başlayıb. Hətta bu məsələlərə hökumətin müdaxilə edəcəyi bildirilir.

Amma bunlar elə ciddi məsələlərdir ki, onlar tək bu gün, dünən aktuallaşmayıb. Bu məsələlər uzun müddət jurnalistikanın, ədəbiyyatın problemi olub. İndiki anda isə onlar hökumətin müdaxiləsi sayəsində aktuallıqlarını bir az artırıb. Düzdür, bu müdaxilənin davamlı olacağını zənn etmək çətindir, çünki söhbət çox böyük, bəlkə də nəhəng bir xidmət şəbəkəsindən gedir, elə bir şəbəkədən ki, onun oliqarx məmurlara çıxışının olmaması hətta ilk baxışda şübhəli görünərdi...

Amma qeyd olunan məsələlərlə bağlı müzakirələrin aparılması, onların aktuallaşdırılması, bu müzakirələr ətrafında ictimai rəyin formalaşdırılması ola bilsin, hökuməti də hansısa addımlar atmağa vadar edəcək...

Qərəz, müasir Azərbaycan toyu və yası həqiqətən də düşünüləsi məsələlərdir.

İsrafçılıq, böyük xərc, vətəndaşların əksəriyyətinin imkanlarına uyğun olmayan təm-təraq və bəzək-bunlar həmin bu məsələlərin sosial tərəfləridir. O ki qaldı bunların mental tərəflərinə, bu haqda əvvəldə dedik.

Azərbaycan toyu və yası heç də həmişə indiki formada olmayıb. Ona görə də onları bütünlüklə adət-ənənələrin siyahısına yazmaq məsələni qəlizləşdirmək demək olardı.

Ən qəliz cəhət isə budur ki, problem tək toylarla və yaslarla bağlı deyil. Ana sosial problemlər ucbatından əkiz uşaqlarından imtina edir. Gənc ailə çox uzun müddət uşaq üzünə həsrət qalır. Axırda da məlum olur ki, problem ərlə arvadın qohum olmasındadır.

Bütün bunlar problem deyilmi? Bu gün ölkədə elə problemlər var ki, onlar daha çox mentalitetdəki sapınmaların, əyriliklərin nəticəsi kimi təzahür edir və onlarla vidalaşmaq etnik-milli koda elə bir xələl gətirməzdi.

Sadalasaq bəlkə də həllini gözləyən üç mühüm, üç fundamental problem var. Onlardan ən birincisi ailənin planlaşdırılmasıdır. İnsanlar öz resurslarına və ölkənin resurslarına uyğun səviyyədə nəsil artırmalıdırlar.

Bəzən belə məsələləri qaldırmaq istehza ilə qarşılanır. Amma burada istehza ediləsi bir şey yoxdur. Bu məsələdə istehza ən yaxşı halda məsuliyyətsizliyin göstəricisi kimi dəyərləndirilə bilər. Məsuliyyətsizlik isə son nəticədə cəmiyyətlə konfrantasiyaya aparıb çıxarır.

Digər mühüm problem də qohum nikahların qadağan edilməsidir. Azərbaycanda ailə institutu yüz illər ərzində formalaşıb. Bu institutun dindən, etnik köklərdən gələn özəllikləri var. Onları dəf etmək o qədər də asan məsələ deyil, bunu etiraf edirik. Amma başqa yol da yoxdur. Dünyada qohum nikahlara yaxşı baxılmır, onlar nəinki ictimai, hətta tibbi-bioloji baxımdan bir o qədər də təqdir olunmur.

Nəhayət, üçüncü məsələ əvvəldə qeyd etdiyimiz toy və yas mərasimləridir. Bu mərasimlər öz dəbdəbəsi, təmtərağı ilə artıq bütün sərhədləri keçib. Onlar təkcə mentalitet problemi deyil, bu, həm də iqtisadi məsələdir.

Doğrusu, güman etmirik ki, bu məsələdə hökumət uzağa gedə biləcək. Ən azı ona görə ki, təmtərağı və dəbdəbəni cəmiyyətə aşılayan elə birinci növbədə bu hakimiyyətin özü, onun oliqarx məmurlarıdır.

# İsa Qəmbərin qardaşı müsavatçılara müraciət etdi

## “Azərbaycanda hüquqi dövlət qurulmasına nail olmaq üçün bütün namizədlər İsa bəylə birlikdə beş nəfərdən ibarət kollektiv kollegial başqanlıq sistemi qursunlar”



Rövşən Qəmbər

**Müsavat Partiyasının başqanı İsa Qəmbərin Almaniyada yaşayan qardaşı, Dünya Azərbaycanlıları Məclisinin sədri Rövşən Qəmbər özünün facebook səhifəsində Müsavatda keçiriləcək başqan seçkisi ilə bağlı müsavatçılara müraciət ünvanlayıb.**

Rövşən Qəmbər müraciətində öncə bildirib ki, son 23 ildə Azərbaycanda hüquqi dövlətimizin qurulmasına çalışan vətəndaşlarımızın, xalq hərəkatının ən böyük uğurlarından biri Azərbaycan Xalq Cəbhəsinin yaranmasıdırsa, digəri də ən çox istedadlı və ədalətsevər vətəndaşlarımızın fədakarlığı nəticəsində inkişaf etmiş Müsavat Partiyasıdır: “Müsavatçıların Azərbaycanda bu günə qədər davam edən hüquqi dövlətimizin qurulmasında müstəsna iştirakı haqda obyektiv tarixçilər layiqli sözlərini tarix kitablarında əbədiləşdirəcəklərinə çox inanıram! Rəsulzadənin yubileyi ilində Müsavat Partiyasının qurultayı iki il öncə Avropanın ən böyük mahnı yarışması keçirilən büllur sarayda keçirilsəydi, Azərbaycanın problemlərinin həllinə daha xeyirli olardı. Təəssüf ki, Müsavat Partiyasının qurultayının uğurlu keçəcəyindən rahatsız olaraq min nəfərlik sarayın verilməsinə mane olurlar...

Digər tərəfdən, bu qurultayın uğurlu nəticələr əldə etməsinə hər bir ədalətsevər vətəndaşlarımız maraq göstərir".

Rövşən Qəmbər sonra qeyd edib ki, Arif Hacılı da, Səxavət Əlisoy da, Tural Abbaslı da Müsavat Partiyasının başqanı olmağa layiq vətəndaşlarımızdır və kimin daha layiqli olmasına sentyabrın 27-də keçiriləcək qurultayın nümayəndələri səsvermə yoluyla qərar verəcəklər: “Lakin Qubad İbadoğlu da çox istedadlı, ədalətsevər, ləyaqətli, ingiliscə yaxşı danışan, dünyada ən çox tanınmış, qlobal beynəlxalq təşkilatların işində iştirak etmiş, enerjili gənc vətəndaşlarımızdan biridir. Çox istərdim ki, Azərbaycanda hüquqi dövlətimizin qurulmasına nail olmaq üçün bütün namizədlər İsa bəylə birlikdə beş nəfərdən ibarət kollektiv kollegial başqanlıq sistemi qursunlar. Azərbaycanda ən azından Estoniya səviyyəsində hüquqi dövlətimizin yaranmasına qədər, NATO və Avropa Birliyinə maksimal inteqrasiyasını mümkün edən dərəcədə inkişafına gecə-gündüz çalışıb xalqımızın problemlərinin həllinə nail olsunlar.

Yeni seçiləcək başqanın əsas vəzifəsi Azərbaycanda hüquqi dövlətimizin qurulmasına nail olmaqdır. Bunun üçün vətənimizdəki bütün imkanlarımızdan səmərəli istifadə edərək qlobal beynəlxalq təşkilatların innovativ potensialından maksimal yararlanmaq vacibdirsə, Qubad bəy, İsa bəy və Arif bəy gecə-gündüz birlikdə çalışsalar, daha tez Azərbaycanda hüquqi dövlətimizin qurulmasına nail olacaqlarına inanıram!

Müsavat Partiyasının qurultayının uğurlu nəticələr əldə etməsinə maksimal təsir edəcəyinizə ümid edirəm və arzu edirəm ki, Rəsulzadənin davamçıları Azərbaycanın adına layiq qurultayla yaxın gələcəkdə azərbaycanlıların Avropa Birliyinin üzvü olmağa çox layiqli millət olduğunu sübut etsinlər".

❑ E.SEYİDAĞA

# Milli Şuranın Koordinasiya Mərkəzi toplaşdı

**Sentyabrın 3-də Demokratik Qüvvələrin Milli Şurasının Koordinasiya Mərkəzinin növbəti iclası keçirilib. Demokratik Qüvvələrin Milli Şurasının mətbuat xidmətindən verilən xəbərə görə, iclasda ölkədəki ictimai-siyasi vəziyyət, siyasi məhbuslarla bağlı məsələlər və s. müzakirə olunub. Toplantıda bir neçə gün öncə Prezident Administrasiyasında KİV rəhbərləri ilə keçirilən görüş müzakirə edilib. Bu görüşü Milli Şura hakimiyyətin narahatlığı kimi qiymətləndirib.**

Məlumatda sonra deyilir ki, iclasda Leyla Yunusun və digər siyasi məhbusların hüquqlarının müdafiə komitəsinin gördüyü işlər təqdir olunub. Son günlər həyata keçirilən həbslər və repressiyalar pislənilib. Həbsdə olan siyasi məhbusların azadlığı istiqamətində səylərin artırılmasının vacibliyi bildirilib. Həmçinin vicdan və siyasi məhbusların müdafiə olunması ilə bağlı məsələləri diqqətdə saxlamaq şərti ilə vətəndaş cəmiyyətinə qarşı olan repressiyaların durdurulması, avtoritarizmə qarşı mübarizənin gücləndirilməsi, ölkədə demokratikləşmənin genişlənməsi istiqamətində səylərin artırılması qərara alınıb.

Mətbuat xidməti həmçinin məlumat verib ki, iclasda Milli Şuranın sessiyasının keçirilməsi barədə qərar qəbul olunub və sessiyanın təşkili ilə bağlı müvafiq strukturlara lazımi tapşırıqlar verilib.

15 sentyabr-Bakının işğaldan azad olunması ilə bağlı Milli Şuranın Şəhidlər Xiyabanında Türk əsgərinin abidəsini ziyarət etməsi barədə də qərar qəbul olunub. İclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

❑ E.SEYİDAĞA

# Hikmət Hacızadə həbs təhlükəsi barədə xəbəri təkzib etdi

## “Bizim bank hesabımız bağlanmayıb; düzdür, ofisdən çıxmışıq, ancaq bunun səbəbi odur ki, pulumuz yoxdur”

**Son günlər QHT sektorunda baş verənlər ölkənin siyasi gündəminin əsas mövzusuna çevrilib. Qaynar.info-ya daxil olan məlumata görə, bir neçə gün öncə tanınmış politoloq, Müsavat Partiyasının Məclis üzvü Hikmət Hacızadənin həm şəxsi, həm də rəhbərlik etdiyi təşkilatın bank hesablarına prokurorluq tərəfindən həbs qoyulub.**



Hikmət Hacızadə

Bununla yanaşı, “Far Centre” (Uzaq Mərkəz) İctimai Birliyinin ofisi və Mustafa Sübhi küçəsində yerləşən Gənclər Mərkəzinin qərargahını da bağlayıblar. Beləliklə, ofisin bağlanması üzündən təşkilat avqustun 18-dən fəaliyyətini dayandırıb. Bildirilir ki, Gənclər Mərkəzi H.Hacızadənin rəhbərlik etdiyi FAR CENTRE QHT-si tərəfindən formalaşdırılmışdı və müstəqil gənclərin toplana biləcəyi yeganə yer idi. “Qərargahın maliyyə xərci Amerikanın NED (Demokratiyaya Yardım Fondu) təşkilatı tərəfindən qarşılanır”, - deyə məlumatda bildirilir. Sayt xəbər verir ki, məlumatı H.Hacızadə özü də təsdiqləyib.

**“Gənclər Mərkəzi və hesablarımın dondurulması barədə danışmaq istəmirəm və hələ ki susmağı üstün tuturam”. Bunu isə hafta.az-a açıqlamasında H.Hacızadə deyib. O, rəhbərlik etdiyi Gənclər Mərkəzinin bağlanması və hesablarının dondurulması haqda heç kimə heç nə danışmaq istəmədiyini və susmaq haqqı olduğunu deyib:** “Bu haqda xahiş edirəm daha heç nə soruşmayın”. Politoloq həmçinin mərkəzi QHT rəhbərliyi ilə münasibətlərinin necə olması ilə bağlı sualı da cavabsız qoyub: “Mən bu sualınıza da susuram”. H.Hacızadə qərargahın maliyyə xərclərini qarşılayan Amerikanın NED təşkilatı barədə (Demokratiyaya Yardım Fondu) məsələyə münasibətini də bildirib: “Bu barədə hələ ki bizdə bir məlumat yoxdur”.

Məlumatda o da yer alır ki, bir neçə gün öncə H.Hacızadənin həm şəxsi, həm də rəhbərlik etdiyi təşkilatın bank hesablarına prokurorluq tərəfindən həbs qoyulub.

**Hikmət Hacızadə “Yeni Müsavat”a açıqlamasında isə yazıları tam təkzib etdi:** “Mənim haqqımda yazılanlar düzgün məlumatlar deyil, hamısı uydurmadır. Bizim bank hesabımız bağlanmayıb. Düzdür, ofisdən çıxmışıq, ancaq bunun səbəbi odur ki, pulumuz yoxdur”. **H.Hacızadə ona istinadən yazılanlara belə reaksiya verdi:** “Sadəcə, mənə zəng edib təkid edirlər, mən də heç nə danışmıram. Onlar da mənim yerimə nəsə uydururlar”. **Hikmət bəy həbs təhlükəsi və digər deyilənləri də cəfəngiyyat adlandırdı:** “Hələ ki heç bir təhlükə yoxdur. Prokurorluğa da çağırmayıblar. Yenə deyirəm, təşkilatımız fəaliyyətdədir, sadəcə, maliyyə probleminə görə ofisdən çıxmışıq. Vəssalam”.

❑ Cavid TURAN

**"AST Telman"... İndi borc içində boğulduğu deyilən yəhudi əsilli azərbaycanlı milyarderə məşhur filmdəki "çarıqlı milyoner" də demək olar. Adı tez-tez dəbdəbəli məclislər, ziyafətlər təşkil etməkdə, dünya şöhrətli müğənnilərlə əylənməkdə hallanan T.İsmayılovun həyat yoluna qısa nəzər salaq.**



# "Çarıqlı milyoner"in çökməkdə olan biznes imperiyası

## Milyonlarla borcu olan Telman İsmayılov labirintdən çıxa biləcəkmi?

"Yeni Müsavat" oxucusu üçün bildirək ki, Telman İsmayılov 1956-cı il oktyabrın 26-da Göyçayda anadan olub. Milliyyətcə yəhudidir. 1989-cu ildən AST (Alik (Ələkbər), Sərxan və Telman) şirkətlər qrupunun prezidentidir.

Moskvadakı "Çerkizov", "Varşavski" bazarlarının, "Praqa" restoranının, "Qof" mehmanxanasının, AST nəşriyyatlar qrupunun sahibidir. İsmayılovlar ailəsində 12 uşaq dünyaya gəlib ki, Telman onlardan onuncusudur.

T.İsmayılov 1973-76-cı illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda ali təhsil alıb. Hərbi xidmətini başa vurduqdan sonra isə Moskvadakı Plexanov adına Xalq Təsərrüfatı İnstitutunu bitirib. 18 yaşında - Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki İqtisad Universiteti) birinci kursunda təhsil alarkən mağaza sahibi olub.

"Forbes" jurnalının versiyasına görə, Rusiyanın ən varlı adamları sırasında yer alır və varidatının həcmi 700 milyon dollar civarında qiymətləndirilir.

Ümumrusiya Azərbaycanlıları Konqresinin və Avrasiya Yəhudiləri Konqresinin vitse-prezidentidir.

2009-cu ildə Türkiyədə "Mardan Palace" hotelini tikdirib. Hobbisi qiymətli saat yığmaqdır. Kolleksiyasında təxminən 2 mindən çox qiymətli saat var. Evlidir, iki oğlu var.

"Çarıqlı milyoner"in kimlərəsə borclu olması xəbəri yeni deyil. Buna qədər də AST Şirkətlər Qrupuna daxil olan AST Nəşriyyatı dünya şöhrətli yazıçılarla müqavilə bağlayaraq, onların kitablarını dərc edib, amma qonorarlarını ödəməyib.

Bu tanınmış yazıçılar Stiven Kinq, Den Braun, Paulo Koelo, Con Faulz, Struqatski qardaşları, Vladimir Sorokin, Mixail Veller, Polina Daşkovadır. İsmayılovun sahibi olduğu nəşriyyatın üst-üstə 5 milyona yaxın borcu var.

Məlumata görə, bu ildən onlar AST Nəşriyyatı ilə müqaviləni birtərəfli dayandırıblar. "AST Telman" isə hələ ki borcu qaytarmağa tələsmir.

Bu da son deyil. Kipr məhkəməsində "Manqazey" qrupunun sahibi Sergey Yançukova məxsus "Sezaria LTD" şirkəti iddia qaldırıb. Şirkətin iddianaməsində Telman İsmayılovu 135 milyon dollar krediti və kredit faizlərini ödəməyə məcbur etmək tələb olunur.

İddiaçı tərəf məhkəməyə müraciətində qeyd edib ki, 2010-cu ilin sentyabrında "Sezaria LTD" şirkəti Telman İsmayılovun "Tandum LTD" şirkətinə 1 illik 10%-lə 50 milyon dollar kredit verib. 2013-cü ilin aprelində isə Telman İsmayılovla borcun ödənilməsi ilə bağlı zəmanət müqaviləsi imzalanıb. Bu müqaviləyə əsasən, şirkət bu krediti ödəməyəcəyi təqdirdə öhdəliklər Telman İsmayılovun üzərinə düşür. Ancaq buna baxmayaraq, ödəmələr edilməyib. Əgər məhkəmə borcun ödənilməsini tələb edərsə, o zaman T.İsmayılovun əmlaklarına həbs qoyulacaq. Hələ bu nədir ki? Antalyada açdığı dəbdəbəli "Mardan Palace" hotelinə görə bu bankdan 62,5 milyon dollar kredit alaraq geri qaytarmayıb. Üstəlik, onun "Praqa" restoranını da itirmək təhlükəsi var. Belə görünür ki, belə davam etsə, "AST Telman" bütün varidatını itirəcək...

❑ E.SALAMOĞLU



# Misir Mərdanovun qohumu işdən çıxarıldı

**Misir Mərdanovun qohumu, Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının direktoru Novruz Dəmirov işdən azad olunub.**

Gimnaziyadan verilən məlumata görə, Novruz Dəmirov iki gündür işdən çıxarılıb. Hələ ki eks-nazirin qohumunun yerinə təyinat olmayıb.

Təhsil Nazirliyi Novruz Dəmirovun işdən azad olunması ilə bağlı "Qafqazinfo"nun sorğusunu cavablandırıb. Nazirliyin açıqlamasında bildirilir ki, A.S.Makarenko adına Humanitar Fənlər Təmayüllü Respublika İnternat Tipli Gimnaziyanın direktoru Novruz Dəmirov öz ərizəsinə əsasən işdən azad olunub.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Riyaziyyat və Mexanika İnstitutunun direktoru, sabiq təhsil naziri Misir Mərdanov onun xalası oğlu kimi təqdim olunan Pişəvəri adına Humanitar Fənlər Gimnaziyasının direktoru Novruz Dəmirovun işdən çıxarılmasına münasibət bildirib.

**Sabiq nazir M.Mərdanov publika.az-a açıqlamasında deyib:**

"Birincisi, mənim Novruz Dəmirov adında xalam oğlu yoxdur. Digər tərəfdən isə mən bu cür məlumatlara əhəmiyyət vermək istəmirəm. Dəqiqləşdirmədən məlumat yazırlar. Xahiş edirəm, mənim adım daha belə məsələlərdə hallandırılmasın".

"İşdən ayrılmaq məsələm doğrudur, amma hələ ki işimdəyəm, əmr gözləyirəm".

Bunu azvision.az-a açıqlamasında işdən azad olunduğu deyilən Pişəvəri adına Respublika Humanitar Fənlər Gimnaziyasının direktoru Novruz Dəmirov deyib.

**Direktor işdən öz xahişi ilə ayrıldığını bildirib:** "İşdən ayrılmaq üçün ərizə ilə Təhsil Nazirliyinə müraciət etmişəm. Ancaq işdən azad olunmağımla bağlı əmr verilməyib. Öz xahişimlə işdən ayrılmaq istəyirəm".

**Sabiq təhsil naziri Misir Mərdanovla qohum olması haqda yayılan məlumata aydınlıq gətirən Novruz Dəmirov bu məsələnin mənasız olduğunu vurğulayıb:** "Öz şəxsi istəyimlə işdən ayrılıram. Bunun Misir Mərdanovla və digərləri ilə bağlı heç bir əlaqəsi yoxdur. Həmin informasiyaların məsələyə heç bir aidiyyəti yoxdu".

Saytın əldə etdiyi digər məlumata görə, N.Dəmirov Misir Mərdanovun xalası oğlu olmasa da, yaxın qohumluq əlaqələri var.

# Adı kredit rüsvayçılığında hallanan məmur işdən çıxarıldı

## Müəllimlərin adına saxta arayış verməkdə ittiham olunan Əliş Hüseynov vəzifəsindən kənarlaşdırılıb

**Müəllimlərin adına saxta arayış verməkdə ittiham olunan Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mərkəzləşdirilmiş mühasibatlığının Suraxanı-Xətai rayonları üzrə xidmət bölməsinin rəhbəri Əliş Hüseynov vəzifəsindən kənarlaşdırılıb.**

Bu barədə virtualaz.org saytına hüquq müdafiəçisi Teymur Rza məlumat verib.

T.Rza bildirib ki, Əliş Hüseynovun işdən çıxarılmasının 171 saylı məktəbin direktoru İradə Murğuzovaya qarşı irəli sürülən ittihamlarla bağlılığı ehtimal edilir: "171 saylı məktəbin direktoru İradə Murğuzova müəllimlərdən öz adlarına kredit götürərək ona verməsini istəmişdi. İradə Murğuzova əvvəlcə hər ay kreditləri ödəyəcəyini desə də sonradan pulu müəllimlərə ödətdirib. Kreditlərin alınması üçün banklara təqdim edilən arayışlar isə Əliş Hüseynov tərəfindən verilib.

Arayışda müəllimlərin maaşları şişirdilib. Məsələn, 200 manat alan müəllimin məvacibi 292 manat 25 qəpik göstərilib. Müəllimlərin eyni zamanda bir neçə bankdan kredit ala bilməsinə şərait yaradılıb. Belə ki, 171 saylı məktəbin müəllimləri 171 saylı bağçanın əməkdaşı kimi təqdim ediblər".

**Hüquq müdafiəçisi Xətai Rayon Məhkəməsində məktəbin müəllimi Mədinə Tağıyevanın direktor İradə Murğuzovaya qarşı iddiasına baxıldığını dedi:** "Məhkəməyə təqdim edilən iddia ərizəsindən sonra Bakı Şəhəri üzrə Təhsil İdarəsi araşdırmalara başladı. İradə Murğuzova isə ötən tədris ilində müəllimələrə verdiyi töhmətləri tələm-tələsik ləğv etdi. Əliş Hüseynovun işdən çıxarılmasının səbəbləri açıqlanmasa da bunun kredit qalmaqalı ilə əlaqəli olduğunu ehtimal edirik".




Qeyd edək ki, Əliş Hüseynov mətbuata açıqlamasında onun barəsində saxta arayış verməsi ilə bağlı yayılan məlumatları təkzib etmişdi.

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin mərkəzləşdirilmiş mühasibatlığının Suraxanı-Xətai rayonları üzrə xidmət bölməsindən virtualaz.org saytına Əliş Hüseynovun işdən çıxarıldığını təsdiqləyiblər. Lakin Ə.Hüseynovun hansı səbəbdən işdən uzaqlaşdırılması ilə bağlı suallara aqressiv cavablar veriblər:** "Əliş müəllimi Xatun müəllimə əvəz edir. Onun işdən çıxması sizi niyə narahat edir ki? Biz mətbuata açıqlama verməyə borclu deyilik".

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən isə virtualaz.org saytının suallarına "araşdırma tamamlanandan sonra açıqlama veriləcək" cavabı verilib.

# Bakı NATO-nu seçəcəkmi?



Azər RƏŞİDOĞLU

**Azərbaycan kimi seçəcək? Uelsdə keçirilən NATO-nun sammiti bu sualı yenidən aktuallaşdırır. Bakı gec-tez öz geosiyasi seçimini etməlidir. Ukraynadakı qanlı savaş da onu deməyə əsas verir ki, Azərbaycan ətrafında hansısa planların qurulduğu və onların həyata keçmək ərəfəsində olduğu ehtimalları yüksəlməkdədir.**

Xəzər dənizinin ABŞ geosiyasətində olduqca mühüm rol oynadığını əlavə şərh etməyə ehtiyac yoxdur. Son zamanlar Vaşinqton bu bölgədə daha da möhkəmlənmək üçün konkret addımlar atmaq niyyətindədir. Enerji layihələri ilə zəngin olan Xəzər hövzəsi amerikalı ideoloqların qənaətinə görə, Rusiya və İran üçün bağlı olmalıdır. Amerikanın Xəzər hövzəsində NATO bazasını yerləşdirmək cəhdləri Vaşinqtonu daha fəal gedişlər etməyə sövq edir. Bu baxımdan, ABŞ hərbi bazalarının Xəzərə qısa bir zamanda buraxılması NATO sammitində rəsmi Bakıdan tələb edilə bilərdi.

Ukrayna-Rusiya savaşında Bakının tutacağı mövqe Vaşinqton-Moskva savaşının qəlibini müəyyən edə bilər. Rəsmi Bakı supergüclərin qarşıdurmasından faydalanmaq niyyətindədir və istəmir ki, gələcəyi ayrı bir ölkədən asılı olsun.

Lakin Bakı NATO ilə inteqrasiyadan yayınarsa, demokratiya ilə bağlı təzyiqlər arta bilər. Bu təzyiqlərdən yayınmaq üçün Bakı İran və Rusiya ilə əməkdaşlığa gedə bilər. Tehran və Moskva demokratiyanın yayılmasını Amerika təsirinin artması kimi qəbul edir. Ukraynadakı demokratik inqilab anti-Rusiya hakimiyyəti ilə sonuclandı.

Qərb Bakıya Ukrayna məsələsində NATO ilə əməkdaşlıq sərgiləməyi tələb edir.

Azərbaycanın gələcək inkişafı Qərblə əməkdaşlıqdan asılıdır. Qərb Azərbaycan siyasi hakimiyyətinin üz tutduğu "xilas kəməri"dir. Rusiya ilə əməkdaşlıq isə təhlükəlidir. Biznes fəaliyyəti qurmaq üçün də yararlı deyil. İstənilən anda milyonlarla vəsait bata bilər.

Etibarlılıq baxımından Kreml yaxşı müttəfiq deyil. Moskva ilə əməkdaşlıq edən siyasi liderlər son anda asanlıqla qurban verilə bilərlər. Tarixdə yüzlərlə belə fakt mövcuddur.

Bunu Azərbaycan hakimiyyəti də anlayır. Siyasi elitanın Qərblə əməkdaşlıqdan başqa yolu yoxdur.

Birmənalı şəkildə Rusiyaya meyllənmək qorxuludur. Kremlin tələbləri olduqca böyükdür və "şimal qonşusu" ilə həddən ziyadə yaxınlıq müstəqilliyin itirilməsi ilə sonuclana bilər. Rusiya anti-ABŞ qarşıdurmasından istifadə edərək, Azərbaycana hərbi müdaxilə də edə bilər. Rusiya ilə yaxınlıq təhlükəlidir. Azərbaycan kimi kiçik ölkələr üçün "açıq qapı" diplomatiyası da yolverilməzdir. Bakı Qərblə əməkdaşlıq yolunu seçməyə məhkumdur. Bu, ölkənin və siyasi elitanın təhlükəsizliyi baxımından ən düzgün seçim olardı.

Qərbin Bakıya təklif etdiyi model məmurlarımızın yalnız biznes maraqlarının təminatı demək deyil, eyni zamanda onların siyasi gələcəyini və şəxsi təhlükəsizliklərini sığortalamış olur.

Hələ ki Azərbaycan geosiyasi baxımdan önəmli fiqur statusunu azaltmadan saxlayır. Lakin seçimin Qərbə doğru olacağını indidən ehtimal etmək olar. ABŞ-ın Azərbaycanda hərbi bazalara sahib olmasını zəruri edən planlar da mövcuddur.

Onu da unutmaq olmaz ki, ABŞ Azərbaycana çoxmilyonlu yatırımlar qoyub, ölkə Vaşinqtonun enerji layihələrində iştirak edir, geosiyasi amillərlə yanaşı bu iqtisadi faktor da təhlükəsizliyin zəmanətçisi kimi ABŞ qoşunlarının Azərbaycanda mövcudluğunu zəruri edən amillər sırasındadır.

Ehtimal edə bilərik ki, qarşıdakı iki ildə Azərbaycan Qərb üçün daha böyük maraq kəsb edəcək. Bu baxımdan, ABŞ-ın ölkəmizdə öz hərbi mövcudluğuna nail olmaq istəyi də reallaşa bilər.

Ukraynadakı son proseslər fonunda Azərbaycanın itirilməsi ABŞ üçün fiasko anlamına gələ bilərdi. Bu baxımdan, yaxın mərhələdə NATO qoşunlarının ölkəmizə gəlişi perspektivi barədə deyilənlər də inandırıcı səslənməyə başlayıb...

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014



# Boşluğa çatanlar

Zamin HACI
zaminhaci@gmail.com

*"Çörəyin daşdan çıxırsa*
*Qabqacağı neyləyirsən?*
*Bir məclisdə yerin yoxsa*
*Qanacağı neyləyirsən?*
*****
*Dön soluna, sağına bax,*
*Hamı ağıllı, sən axmaq.*
*İndən belə adam olmaq*
*Gecdi axı, neyləyirsən?"*

**(Ramiz Rövşənin şeirindən)**

**İş elə gətirib ki, son zamanlar dava-şavadan çox yazmalı oluruq. Mən heç də Suriyadakı vətəndaş müharibəsini, "İslam Dövləti" yaraqlılarının İraqa girməyini, Ukrayna-Rusiya savaşını nəzərdə tutmuram. Qarabağ bölgəsi də mövzu deyil. Bu yaxında Ramiz müəllim xəbərdarlıq elədi, biz də işimizi bildik, ta cəbhədən nəsə yazan öz payına casusdur! Nəyimizə gərək, qoy cəbhədən AzTV reportaj versin, biz də baxaq, gözümüz-könlümüz açılsın. Bizi düşündürən tamam ayrı kateqoriyalı davalardır.**

Bu davalar Azərbaycanın hər yerində dükan-bazarda, restoranlarda düşür. Adətən səbəb boş bir şey olur, əsasən də seksual motivdə. (Bu yerdə Ziqmund Freydin ruhuna bir salavat zikr edək və zəncir qıran libidonun nələrə qadir olduğunu izləyək. Zəncirləri bərk çəkin). Ya müştəri satıcı qıza sataşır, ya ofisiant ad günü keçirdənlərə ilişir, yüngülvari söz atır... Vəssalam! Bundan sonra birinci dünya savaşı başlayır. Göydə uçan şıllaq-təpik, bıçaqlaşma, pəncərə-qapıları, qabqacaqları qırmaq, ayaq altında qalıb çığırışan uşaqlar, dombalaq aşan nurani ağsaqqallar, bir-birini (üzünü) cıran ağbirçəklər, ketçupa qarışan qırmızı qanlar, basdırmaya bulaşanlar, tikəkababı gözə soxanlar, antrikot girən qulaqlar və sairə... Mənzərə mənim təsvir elədiyimdən də rəngarəngdir, istəsəniz "Oazis"dəki davanın videosuna internetdə baxın. Camaat bir-birinin belinə minib, yalan olmasın, faşistlər Moskvaya girmək üzrədir, ancaq restoranın "canlı musiqisi" bir saniyə də ara vermir! Rəhmətliyin uşağı, heç olmazsa belə olanda "medlenni" musiqi verin, camaat sakitləşsin, dalaşanlar qucaqlaşıb rəqs eləsin. Yoxsa elə bil qəsdən daram-durumu artırıb milləti bir-birinə qırdırırlar. "Oazis"lərdə vətəndaş müharibəsi başlasa bunun bizə xeyri nədir?

Ancaq qeyd elədiyim kimi, bunlar nəticədir, Qavrila Prinsipin şahzadə Ferdinandı öldürməsi bir bəhanədir, alt qatda ciddi səbəblər vardır, o cümlədən bizim dava prinsiplərimiz fərqlənir . İlk növbədə, restoranların müştəriləri yenidən bölüşdürmək istəyi münaqişələrin əsas səbəbidir.

Təbii, biz xalqımızın müdrikliyinə, Ramiz müəllimin də Prezident Aparatından verdiyi təlimatlara uyğun olaraq bu məişət pozğunluqlarına yeni gözlə baxacağıq. Gərək media da davadan yalan yazmasın. Beş boşqab sınıbsa, denən iki dənə stəkan qırılıb. 3 ofisiantın qarnına şiş soxulubsa, məlumatda yaz ki, diş çöpü tamadanın əlinə batıb. Düşmənləri sevindirmək olmaz.

Düşmən demişkən, ermənilər acından ölürlər, hər gün biri qaçıb gəlir. Vəzirov sağ olsaydı yenidən "Ay uca xalqım, gözünüz aydın, ermənilər qayıdır!" deyərdi. Biz isə yeməyin çoxluğundan qırılırıq, dava eləyirik. El məsəlimizdə deyilən kimi, acından ölüncə, yeyib partlamaya düş, öl!

Bəli, cəmiyyətdə heç bir gərginlik, qarşıdurma, əsəbilik, nevroz halları yoxdur. Mən sizə bir sirr açım: xalqımızı bu sakitlik baxımından hətta dzen-buddizmin tərəfdarı saymaq olar. Hamı nirvana vəziyyətindədir, ali həqiqətə çatıb, yoqa pozasında oturub. Diqqət eləsəniz, bizdə ən çox işlənən ifadələrdən biri "boş şeydir" ifadəsidir. Dünya dağılsın, Andromeda qalaktikası gəlib təpəsinə düşsün, azərbaycanlı öz "oazis"ində dinozavr basdırması yeməkdən aralanmaz, yalnız başını bulayıb "boş şeydir" deyəcəkdir. Və dzen-buddizmin əsas anlayışlarından biri də boşluq anlayışıdır! Buddist rahiblər illərlə meditasiya edir ki, bu boşluğun mahiyyətini anlasınlar. Biz isə bir naharda buna çatırıq.

Yalnız bu son restoran olayında bir detaldan xoşum gəlmədi. Yazmışdılar ki, davanın şiddətindən başqa masalarda əyləşənlər öz məclislərini yarımçıq qoyub qaçıblar. Qaçmaq düzgün deyil, gördün davadır, sən də bir yandan giriş, ləzzətli olsun. Birlik belə yaranır.

# NATO Ukrayna üçün "U dönüşü" edəcəkmi?

## Alyansın kritik sammiti Rusiya təcavüzünün yaratdığı əsas çağırışlara sanballı cavablar tapmalıdır; qitənin, alyansın, Güney Qafqazın gələcək taleyi Uelsdə həll olunur; Ərdoğan Obama ilə, Əliyev Sərkisyanla görüşəcəkmi?..

**NATO-nun dünyanın diqqətində olan Uels sammiti öz işinə başlayıb. Mübaliğəsiz demək olar ki, bu, Avropada "soyuq müharibə" dövrü bitəndən sonra alyansın ən kritik zirvə toplantısıdır. Məhz Uels zirvəsi on illiklər ərzində formalaşmış və pis-yaxşı effektli olmuş Avropa və dünya təhlükəsizlik arxitekturasının Rusiya tərəfindən ayaqaltı edilməsindən dolayı yeni təhlükələrə adekvat cavablar tapmalıdır - həm də effektli və tez nəticə verən cavablar.**

Bu xüsusda toplantının mərkəzi mövzusunun Ukrayna və yaxud Ukraynaya Rusiyanın təcavüzü məsələsi olacağı gözlənilir. İndi hamını əsas bir sual düşündürür: Qərb onun özünün də təhlükəsizliyinə ən böyük, ən real təhdid olan bu böhrandan hansı çıxış yolu tapacaq? Başqa sözlə, postsovet məkanında Rusiyanın getdikcə hüdudları genişlənən sürünən işğalını durdurmaq üçün nəhayət, Kremlin başa düşəcəyi dildə çevik kontur-tədbirlər planı qəbul ediləcəkmi? Bir az da konkret ifadə etsək, Avropa Ukraynaya sahib çıxacaqmı, yoxsa hələ bir müddət də Rusiyaya yalnız ağcaqanad dişləməsinə bənzər iqtisadi-maliyyə sanksiyaları ilə kifayətlənməli olacaq?

Suallara birmənalı cavablar yoxdur. Bir sıra skeptik təhlilçilərə görə, NATO sammiti sıradan toplantı kimi də tarixdə qala bilər. Rusiyanın istəyi də elə bu deyilmi? Doğrudur, zirvə toplantısı ərəfəsi məlumat yayılıb ki, Uels sammitində 5 ölkə - İsveç, Finlandiya, Avstraliya, Gürcüstan və İordaniya "NATO-nin 1 nömrəli tərəfdaşı" adını qazanacaq və bu status onlara alyansla əməkdaşlığı genişləndirmək imkanı yaradacaq. Belə bir



status alyansa faktiki üzv olmadan ən yüksək status hesab edilir.

Bəs Ukrayna? Nədən ona da eyni status tanınmasın? Yoxsa Qərb bu Şərqi Avropa ölkəsinin indiki taleyi ilə, onun parçalanması, Krımın həmişəlik Rusiya tərəfindən işğalı ilə barışmaq fikrindədir? O zaman Vladimir Putinin şirniklənərək daha da qabağa getməyəcəyinə, Baltikyanı və Güney Qafqaz ölkələrinə görünməmiş təhlükə yaratmayacağına kim zəmanət verəcək?

Bu mənada NATO-nun Uels zirvəsi şübhəsiz ki, Azərbaycan üçün də xüsusi önəm daşıyır. İstisna deyil ki, toplantı çərçivəsində postsovet məkanında Rusiyanın körüklədiyi etnik-ərazi münaqişələri və onların həll yoluna, o cümlədən Dağlıq Qarabağ məsələsinə diqqət yönəldilsin.

Yeri gəlmişkən, NATO Parlament Assambleyası bir neçə il öncə qəbul elədiyi qətnamədə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini ortaya qoyub. Bu mövqe Krımın ilhaqı, Ukrayna böhranı fonunda təzədən NATO liderləri səviyyəsində təsdiqini tapacaqmı? Ən əsası, alyans postsovet məkanında işğal məsələsinə vahid mövqe sərgiləyəcəkmi?

Hər halda, sammit çərçivəsində ABŞ prezidenti Barak Obama ilə görüşəcəyi bildirilən Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan söz verib ki, toplantıda Dağlıq Qarabağ ixtilafının uzanması məsələsini qaldıracaq. Onun Obama ilə görüşünün baş tutması isə bu yöndə həm Türkiyənin, həm də Azərbaycanın mövqeyinə pozitiv ştrixlər əlavə edərdi. Türkiyə tərəfi üçün bu görüş ikiqat əhəmiyyətli sayılır, çünki Amerika prezidenti türkiyəli həmkarı ilə təmasa uzun müddətdir can atmır. Eyni zamanda Birləşmiş Ştatlar üçün yeni təmas vacib görünür. Nədən ki, regional təhlükəsizliyin təmin edilməsi və beynəlxalq terrorçuluqla mübarizədə Türkiyənin rolu artıb ki, azalmayıb.

Sammitdə Azərbaycan və Ermənistan prezidentləri - İlham Əliyev və Serj Sərkisyanın ABŞ dövlət katibi Con Kerrinin vasitəçiliyi ilə görüşəcəyi haqda da məlumatlar var. Belə bir görüş də ABŞ üçün az əhəmiyyət daşımır və ən azından, prezidentlərin üçtərəfli Soçi görüşündən sonra münaqişənin həllində Rusiyanın dominant vasitəçi olmadığını nümayiş etdirmək üçün Ağ Evə, Qərbə lazımdır.

Ancaq bu görüşlərin heç biri reallaşmaya da bilər - zirvə toplantısının tarixi bir hadisə olmadığının neqativ təzahürləri kimi.

❑ **Siyasət şöbəsi**

# "Əl-Qaidə"nin Hindistan şöbəsi yarandı

## Millətçi baş nazir Narendre Modinin gəlişinə radikal müsəlmanlar belə cavab verdi

**"Əl-Qaidə" təşkilatının rəhbəri Ayman əl-Zavahiri bəyan edib ki, onlar bundan sonra Hindistanda da fəaliyyət göstərəcəklər. Belə ki, "əl-Qaidə"nin Hindistan şöbəsi də fəaliyyətə başlayıb. Ayman əl-Zavahiri deyib ki, "cihadın möhtəşəm bayrağını Cənubi Asiya ölkələrində də dalğalandıracağıq". Bu barədə "Reuters" agentliyi məlumat yayıb.**



Müşahidəçilərsə o fikirdədir ki, Ayman əl-Zavahiri bu bəyanatı ilə "İraq və Şam İslam Dövləti" (İŞİD) ilə aralarında olan rəqabəti öz xeyirlərinə dəyişməyə cəhd edir. Ancaq İraq və Suriyanın böyük ərazilərinə nəzarət edən "İslam Dövləti" ilə rəqabət aparmaq xeyli çətin görünür.

"Əl-Qaidə" təşkilatının rəhbəri bildirib ki, Hindistan şöbəsi ortada olan sərhədləri aradan qaldıracaq və regionda yaşayan müsəlmanları birləşdirəcək. "Əl-Qaidə"nin Hindistan bölümü Mayami və Banqladeş, Assam, Qucarat, Əhmədabad və Kaşmirdə də fəaliyyətdə olacaq.

Ayman əl-Zavahirinin bəyanatı Hindistanda həyəcanla qarşılanıb. Dərhal ölkənin bir neçə əyalətində təhlükəsizlik tədbirləri gücləndirilib.

Agentlik bildirir ki, indiyə qədər "əl-Qaidə"nin Hindistanda mövcudluğu ilə bağlı elə bir fakt qeydə alınmamışdı. O da vurğulanır ki, Hindistanın yeni baş naziri, Qucarat ştatının sabiq hökumət başçısı Narendre Modi millətçi kimi tanınır. Yeni baş nazir seçilən Narendre Modinin gəlişi müsəlmanların ürəyincə olmayıb. Hələ 2002-ci ildə Narendre Modi daxili işlər naziri olarkən min nəfərdən artıq müsəlmanın ölümündə ittiham olunub.

Ayman əl-Zavahirinin bəyanatında Qucaratın adının çəkilməsi təsadüfi deyil. Qeyd etdiyimiz kimi, hazırkı baş nazir bir müddət həmin ştatın hökumət başçısı olub. Bəyanatda adı çəkilən Əhmədabadsa Qucarat ştatının paytaxtıdır. Və həmin şəhər Hindistanın yağı düşməni Pakistanla sərhəddə yerləşir.

"Reuters" agentliyi xatırladır ki, Hindistan əhalisinin 15 faizi müsəlmandır. Bu isə 170 milyon insan deməkdir. Hindistan dünyada müsəlmanların ən çox yaşadığı üçüncü ölkədir. Pakistanla Hindistan arasındakı dini zəmindəki müharibələr zamanı isə yüz minlərlə insan ölüb.

İyun ayında isə "əl-Qaidə" müsəlman çoxluğun yaşadığı Kaşmirə müraciət edərək yerli gəncləri beynəlxalq cihad hərəkatına qoşulmağa səsləmişdi.

❑ **Elbəyi HƏSƏNLİ, Sürix**

# Ərdoğanın Bakıda açdığı kodlar - "Azərbaycana verilən sözlər..."

## Bakıdan NATO zirvəsinə gedən Türkiyə prezidenti Azərbaycanla işbirliyi kontekstində Qərbə hansı mesajları verdi?; "Azərbaycana verilən sözlər yerinə yetirilməlidir" iddiasının arxasında hansı sensasion proses dayanır?

**Türkiyənin 12-ci prezidenti Rəcəb Tayyib Ərdoğanın Bakı səfəri, qısamüddətli "viza anlaşılmazlığı" nəzərə alınmasa, müsbət tonlarla yadda qaldı. Bir sıra ekspertlər vurğulayır ki, dövlət başçılarının seçkidən sonra ilk xarici səfərlərini qardaş ölkədən başlamaları ölkələrin daxilindən çox, xaricə ötürülən mesajdır. Liderlərin son Bakı bəyanatlarına diqqət yetirdikdə, bu məqam aşkar görünür.**

**Ərdoğana Azərbaycan dövlətinin ali mükafatının - "Heydər Əliyev Ordeni"nin təqdim edilməsi mərasimində çıxış edən prezident İlham Əliyev bildirdi ki, getdikcə inkişaf edən Türkiyə-Azərbaycan münasibətləri heç bir ölkəyə qarşı yönəlməyib:** "Biz istənilən dövlətə dəstək verməyə hazırıq. Türkiyə-Azərbaycan münasibətlərinin inkişafı bütövlükdə regionun inkişafına xidmət edir".

**R.T.Ərdoğanın çıxışındakı mesajlardan ən yaddaqalanı isə "Azərbaycana verilən söz tutulmalıdır" oldu. Beynəlxalq birliyə səslənən Ərdoğan Ermənistan-Azərbaycan münasibətlərində ölkəsinin səf dəyişməyəcəyini bir daha bəyan edi:** "Biz bütün məsələlərdə Azərbaycanın yanındayıq. Buradan NATO-nun zirvə toplantısına gedəcəyik. Keçmişdən bu günə qədər bir çox toplantılarda Azərbaycana yönəlik verilən sözlər var. Necə ki, digər ölkələrə verilən sözlər yerinə yetirilir, ilgili ölkələrdən Azərbaycana verilən sözləri yerinə yetirmələrini istəyəcəyik. Bu, bir ianə, lütf deyil, bir haqdır. Bu sözləri yerinə yetirmək gərəkdir. Bu məsələdə qərarlılığımızı özəlliklə ifadə etmək istəyirəm".

Göründüyü kimi, R.T. Ərdoğan kodlarla, şifrələrlə danışıb. Lakin əsas mahiyyəti ifadə edib! Azərbaycana, Türkiyə dövlətinin də iştirakı ilə sözlər verilib! Heç şübhəsiz, bu sözlər Dağlıq Qarabağla bağlıdır və cənab Ərdoğan "başqa dövlətlərə verilən sözlər yerinə yetirilir" deyərkən də, Ermənistanı nəzərdə tutur.

Vaxtilə bu barədə daha çox "Yeni Müsavat" yazmışdı. 2009-cu ildə böyük skandala səbəb olan "Sürix sazişi" şərti adı ilə ortaya çıxan beynəlxalq bir təşəbbüs deşifrə olunmuşdu. Ermənistanı blokadadan çıxartmaq və Türkiyə ilə sərhədləri açmaq üçün Azərbaycanı təkləyən böyük dövlətlər yekunda istədiklərini edə bilməmişdilər. O zaman Türkiyə ictimaiyyəti və Azərbaycan iqtidarı prosesə ciddi müqavimət göstərdi. Yekunda AKP iqtidarı gizli oyundan çıxdı; sərhədlər açılmadı; üstəlik, ortada Azərbaycan olmadan, hər hansı anlaşmanın ola biləcəyinin mümkünsüzlüyü də bəlli oldu. Məhz həmin vaxtlarda Türkiyənin də birbaşa iştirakı ilə Azərbaycana sözlər verildi.

"Yeni Müsavat" o zamanlar yazırdı ki, Azərbaycana yarımişğal edilmiş iki rayonun - Füzuli və Ağdamın qaytarılacağı vədi verilib; qarşılığında ölkəmiz sərhədlərin açılması prosesinə müqavimət göstərməyəcəkdi. Lakin məlum olduğu və Ərdoğanın da etiraf etdiyi kimi, bu günə qədər də həmin sözlər icra olunmayıb. İndi Ərdoğan bu sözləri deməklə, həm də Azərbaycanın önəmini artırır: **"Bakını qane etməyincə, Ankaradan ermənilərlə bağlı yumşalma gözləməyin"**, deməkdir bu. Yeri gəlmişkən, düşmən ermənilərin saytı olan "PanARMENIAN.Net"in xəbərində deyilir ki, Türkiyənin yeni prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan edib ki, Dağlıq Qarabağ məsələsi NATO-nun 4-5 sentyabrda keçirilən zirvə toplantısında müzakirə olunacaq məsələlər sırasına daxil edilməlidir. Yazıda iddia olunur ki, cənab Ərdoğan Türkiyənin məsələdə qərarlı olduğunu bir daha nümayiş etdirməyə hazır olduğunu da xüsusi bəyan edib.



**Hörmətli Ərdoğanın Bakı səfərini və buradakı mesajlarını "Yeni Müsavat"a şərh edən "Atlas" Arşdırmalar Mərkəzinin sədri Elxan Şahinoğlu deyir ki, Türkiyə prezidentinin səfəri simvolik olsa belə, verdiyi mesajlar önəmli idi:** "Ərdoğanın andiçmə mərasiminə Ermənistan prezidentini dəvət etməsi Azərbaycanın siyasi dairələrində və ictimaiyyətində yenə eyni sualı gündəmə gətirmişdi - prezident Ərdoğan Ermənistanla münasibətləri normallaşdırmaqmı istəyir? Bu, Azərbaycan üçün sanki əbədi suala çevrilib. 2008-ci ildə İsveçrədə Türkiyənin Ermənistanla imzalanan protokollarından sonra Ərdoğanın Bakıya gələrək Milli Məclisdəki çıxışı zamanı verdiyi vədin arxa plana keçəcəyini zənn etmirdim. Belə də oldu. Ərdoğan Bakıya son səfəri zamanı yenə eyni sözləri təkrarladı ki, Dağlıq Qarabağ münaqişəsi həll olunmayana qədər Ankara Ermənistanla münasibətləri normallaşdırmayacaq. Bu açıqlama həm Azərbaycan siyasi dairələrini və cəmiyyətini növbəti dəfə rahatladı, həm də Ermənistana bir mesaj oldu ki, Ankaradan geri addım gözləməsinlər".

**Elxan Şahinoğlu düşünür ki, zaman-zaman Türkiyə iqtidarının sərhədlərin açılması üçün nəbz yoxlama cəhdləri yalnız Azərbaycanın xeyrinə nəticə verib:** "Ərdoğanın İrəvanın və erməni lobbisinin istəyi ilə gələn ilin aprelində İrəvana gedib "soyqırımın" yüz illiyi mərasiminə qatılması da xülyadır. Ərdoğan bu ilin aprelində onsuz da güzəştə gedərək, Birinci Dünya müharibəsi zamanı Türkiyədə ermənilərin də öldüyünü dedi. Ərdoğan bundan artığına getməz. Azərbaycanda bəzən yanlış olaraq o fikir də dolaşır ki, guya Qərb Ərdoğana təzyiq edir ki, Ankara Ermənistanla sərhədi açsın. Qərb 10 il əvvəl Türkiyə zəif olanda Ankaraya təzyiq edə bilərdi. İndi isə həm Türkiyə güclüdür və kənar təzyiqlərə baş əymir, həm də Qərb Ermənistana görə Türkiyəyə təzyiq etmək hayında deyil; daha çox Ukraynada, Suriyada, İraqdakı savaşlar, İŞİD terroru düşündürür ABŞ-ı və Avropa Birliyini. Ərdoğanın Əliyevlə görüşdə dediyi "hazırda bölgədəki problemlər iki ölkənin müştərək çözəcəyi problemlərdir" ifadəsini isə belə oxumaq lazımdır: Türkiyənin maraqları nəzərə alınmadan Cənubi Qafqazdakı problemləri həll etmək çətindir. Burda hamıya, o cümlədən Ermənistana, Rusiyaya və Qərbə də mesaj var".

**E.Şahinoğlunun fikrincə, Türkiyə prezidentinin NATO ölkələrinin Azərbaycana verdiyi vədlərin yerinə yetirməsini xatırlatması rəsmi Bakıya çox vacib dəstəkdir:** "NATO bir təşkilat olaraq Azərbaycanın ərazi bütövlüyünü vurğulayan qurumdur. NATO Parlament Assambleyası çərçivəsində də Azərbaycan üçün önəmli qərarlar qəbul edilir. Ancaq digər qərarlar kimi Azərbaycanla bağlı NATO çərçivəsindəki sənədlər də masa üzərində qalır. Demək, başlıca məqsəd həmin sənədləri və bu sənədləri qəbul edən təşkilatları hərəkətə gətirməkdir. Avqustun əvvəllərində cəbhə bölgəsində atəşkəsin intensiv pozulması Qərbi də ciddi narahat etdi. ABŞ və Avropada ehtiyat etdilər ki, Ukrayna, Suriya və İraqın ardından Azərbaycanla Ermənistan arasında da savaş başlayar və bu müharibə Rusiya, Türkiyə və İranın təsirləri ilə regional müharibəyə çevrilə bilər. Odur ki, Qərb Cənubi Qafqazda müharibə istəmir. Ancaq Azərbaycan və Türkiyə torpaqlarımızın işğalını uzadan status-kvonu da istəmir. Demək, əgər Qərb bölgədə müharibə istəmirsə, zəhmət çəkib Ermənistanı yola gətirsinlər. Bəli, Ermənistan Rusiyanın hərbi müttəfiqidir, ancaq qonşu ölkəni maliyyələşdirən əsas mənbələr Qərbdədir, NATO üzvləridir. Əlbəttə, NATO-nun Uelsdəki zirvə toplantısına Azərbaycan prezidenti İlham Əliyev də qatılıb və o, çıxışlarında işğal mövzusuna toxunacaq. Ancaq Türkiyə NATO ölkəsidir və onun səsi bu sammitdə daha gur çıxacaq. Ona görə də Ərdoğanın Qarabağ münaqişəsinin həlli vacibliyi ilə NATO liderləri ilə fərdi müzakirələri daha təsirli ola bilər. Əlbəttə, bütün bunlar o demək deyil ki, proses ölü nöqtədən tərpənə bilər. Sadəcə, Uelsdə Əliyevlə Ərdoğan iki mesajın ciddiliyini NATO ölkələrinə çatdıra bilərlər. Birincisi, bölgədə müharibə riski böyükdür, ikincisi, Ermənistanı Rusiyanın caynağından qoparmağın və Türkiyə-Ermənistan münasibətlərinin nizamlanmasının yeganə yolu Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllindən keçir".

❑ **Aygün MURADXANLI**

# Belə ölkədə yaşayırıq...



**Xalid KAZIMLI**

**Belə bir ölkədə yaşayırıq: dənizi hasarlı, meşəsi çəpərli, çölü məftillənmiş, gölü dövrələnmiş, çayı qurumuş, dağı karxana, şəhəri tozlu-palçıqlı, kəndi palçıqlı-tozlu, yolu yamaqlı, suyu xlorlu... Və biz bu ölkəyə "Vətən" deyirik, əsasən sevirik.**

**Biz belə bir ölkədə yaşamağa çalışırıq:** idarə edənləri zalım, məmuru nainsaf, yırtıcı, hakimi ədalətsiz, fərraşı əliçomaqlı, darğası acgöz, varlısı harın... Və biz vətəndaş olaraq onlara itaət edirik.

**Biz belə bir ölkədə baş dolandırırıq:** müəllimi repetitor, həkimi reseptitor *(bu, yeni və süni termindir - apteklərin çox və baha dərman satmasına yardımçı olanları ehtiva edir)*, gömrükçüsü qaçaqmalçı, qaçaqmalçısı narkobaron, narkobaronu oliqarx, deputatı biznesmen, biznesmeni məmur. Və biz bunları bilə-bilə "qanunun aliliyi"ndən danışan vaizlərə qulaq asırıq.

**Biz belə bir ölkədə işləyirik:** hər gün soyula-soyula, hər gün söyə-söyə, söyülə-söyülə, hər gün döyülə-döyülə, gözümüzü döyə-döyə, hər gün hiddətlənə-hiddətlənə, gündə üç dəfə bu ölkədən baş götürüb getmək istəyə-istəyə, gündə beş dəfə bu ölkədə doğulduğumuza lənət oxuya-oxuya, gündə bir neçə dəfə bizdən də pis olanlara baxıb şükür edə-edə... Və biz bu ölkəyə bağlıyıq.

**Biz belə bir ölkədə həyat uğrunda mübarizə aparırıq:** yaltağının yeri başda, riyakarının əli aşda, mübarizi qandallı, dürüstü qapı dalında, nadürüstü rəyasətdə, milyon oğurlayanı saraylarda, toyuq oğrusu zindanlarda, haqq davası edənlər işsiz, etiraz bildirənlər başıqapazlı... Və biz bu ölkədə gələcəyə nikbin nəzərlərlə baxırıq.

**Biz belə bir ölkədə qalmışıq:** insanlarının bir qismi ruspərəst, bir hissəsi farspərəst, bir dəstəsi qərbpərəst, xeylisi çörək mühaciri, yeni bir qrupu orda-burda ölüm axtaran və tapan, üç nəfəri doğru-dürüst yekdil ola bilməyən, darmadağın, yeddi məzhəbə, qırx sektaya bölünmüş bir cəmiyyət. Və biz usanmadan həmrəylikdən, azərbaycançılıq ideyasından danışırıq.

**Biz belə bir ölkədəyik:** müğənnisi toy həşirində, ruhanisi vay peşində, jurnalisti gözüqıpıq, aktyoru tamada, yazıçısı kitab buraxmaq üçün bazarda inək satmaqda, oliqarxa mədh söyləməkdə, naşiri kitab satmaq üçün məmurlara və oxuculara yalvarmaqda, gözəl modelləri pullu sponsor-məşuq axtarışında, futbolçusu portuqal, xokkeyçisi koreyalı, voleybolçusu ukraynalı... Və biz mədəniyyət və incəsənətin inkişafından, idmana qayğıdan bəhs edən moizələr dinləyirik.

**Biz belə bir ölkədə mövcuduq:** cansağlığını Türkiyədə, İranda, Almaniyada, İsraildə axtarırıq, istirahət üçün Gürcüstana, Türkiyəyə, Avropaya, BƏƏ-yə gedirik, ticarət üçün Avropaya və Asiyaya üz tuturuq. Və qayıdıb ölkəyə gələndə "vətənimin torpağına, daşına qurban" deyə yalançı patriotluq etməkdən çəkinmirik.

**Biz belə bir ölkədəyik:** addımbaşı haqsızlıq görürük, hər an həbs olunmaq, dolaşdırılmaq qorxusu yaşayırıq, hər yerdə ayrı-seçkiliklə, yerlibazlıqla, qohumbazlıqla üzləşirik və hesab edirik ki, elə belə də olmalıdır.

**Biz belə bir ölkədə çarpışırıq:** Burası ağa qara, qaraya ağ deyənlərin, "mən salim olum, cümlə-cahan batsa da, batsın" düşünənlərin, "nə şər iş olur-olsun, mənim xeyrim gəlsin" devizi ilə yaşayanların, özləri əzilən olduqları halda əllərinə imkan düşsə qarşılarındakını əzib keçməyə hazır olanların, kalori və komforta görə hər şeyindən keçə bilənlərin çoxluq təşkil etdiyi ölkədir.

Biz belə bir ölkədə yaşayırıq. Əslində yaşamağa çalışırıq, vaxtımızı əridirik. Bunun düzgün, normal yaşayış olmadığını bilə-bilə, firavan ölkələrdə olduğu kimi yaşamağı arzu edə-edə, amma bundan ötrü əlini ağdan-qaraya vurmaya-vurmaya günlərimizi sovuruq.

Bu, bizi xoşbəxt etməyəcək. Bu riyakarlıq, əliəyrilik, yalançılıq, acgözlük, tamahkarlıq, düşüncəsizlik, fırıldaqçılıq, pozğunluq, sapıqlıq, xəbislik, hiyləgərlik, təkəbbürlülük, yaltaqlıq, alçaqlıq bizi bədbəxt edəcək...

Pozitiv istisnalar sayılmır. Çünki onlar qaydanı pozmur. Keşkə ümid verən bir işartı olsaydı... Keşkə "hər şey yaxşılığa doğrudur" deyə biləydik...

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014

# "Oazis"dəki qanlı davanın ən yeni təfərrüatları

## "Yeni Müsavat" hadisə yerində oldu, ortaya ilginc detallar çıxdı; dava ilə bağlı həbslər başladı

**Bakının məşhur restoranlarından sayılan "Oazis"də baş verən kütləvi dava ölkənin əsas mövzularından sayılır. Məlumdur ki, artıq əksər həmkarlarımız bu hadisənin izinə düşüblər və ortaya ilginc detallar çıxıb.**



Hadisənin ilkin təqdimatından bəlli olmuşdu ki, müştərilərdən biri ilə restoranın ofisiantları arasında başlanan "söz atışması" daha sonra öz yerini qanlı döyüşə verib. Hazırda xəstəxanada müalicə olunan Zaur Əsgərov *(təzyiqə məruz qaldığı iddia edilən ailənin başçısı)* mediaya açıqlamasında hadisədə özünün və qonaqlarının zərərçəkən olduğunu bildirmişdi. Onun sözlərinə görə, övladının 3 yaşını qeyd etmək üçün "Oazis"də 15 nəfərlik yer götürübmüş, öz xanımı ilə rəqs edərkən mühafizəçilərdən biri ona həyat yoldaşının yaxasını bağlamasını məsləhət bilib. Dava da bununla başlayıb. Z.Əsgərovun sözlərinə görə, aşpazlar, ofisiantlar, hətta restoranın sahibi Mirtalib də onları döyüb.

**Dava nədən başlayıb?**

**Sentyabrın 4-də "Yeni Müsavat"ın əməkdaşı öncə müştəri qismində "Oazis" restoranında olub. Restoranın Rövşən adlı administratoru ilə ad günü keçirmək adı ilə danışıqlar aparan müxbirimiz ondan 2 gün öncə sözügedən məkanda baş vermiş davanın təfərrüatlarını soruşub. Administrator bildirib ki, təmsil etdiyi restoranda müştəriyə qarşı elə bir hərəkət törədilə bilməz:** "Sadəcə, həmin qonaqlar dava axtarırdılar. Bir neçə dəfə dava salmaq istəyiblər, alınmayıb. Sonra ofisiantı çağırıb, dava salıblar. Özü də onun xanımının yaxasında düymə yox idi. Boğazlı paltar geyinmişdi. Dava salan kişinin özü köynəyinin düymələrini açıq qoymuşdu. 10 ildə belə bir şey eşitmisiz bizim barədə? Dava olmasın deyə biz spirtli içki vermirik, istəyən özü ilə alıb gətirir".

**Administrator məlum davanın başlanma anı ilə bağlı da detalları açıqladı. Dedi ki, dava salan qrupun yan masasında xanımlar oturub:** "O, öz ailəsinin yanından uzaqlaşıb, ordakı qızlardan birini rəqsə dəvət edib. Qız rəqs üçün razılaşıb. Amma onunla oynayan adam az qala köynəyini soyunub. Biz ona demişdik ki, olar siz yaxanızı bağlayasınız? O da başlayıb söyüş söyməyə. Bizimkilər kənara çəkiliblər. O da gedib qapının ağzına, başlayıb bizim mühafizə xidmətinin işçiləri ilə dalaşmağa. Ondan sonra gəlib ofisiantla dalaşıblar, onu vurublar..."

Administrator təxmin edir ki, ailə hesabı ödəməmək üçün qəsdən dava salmış da ola bilər. Əks halda, bu dava üçün heç bir səbəb olmayıb.

**"Qız söhbəti", yoxsa...**

**Əməkdaşımız daha sonra "Yeni Müsavat"ın müxbiri kimi restoranın baş administratoru Azad Tomayevlə danışıb. A.Tomayev baş vermiş insidentlə bağlı fərqli detalları açıqlayıb:** "Bu obyekt 10 ildir işləyir. Hacı obyektidir. O tərbiyəsizliyi heç kim edə bilməz. Kiminsə yoldaşı dura-dura yaxınlaşa bilməz ki, xanımınızın yaxasını bağlayın. O kor deyil, şikəst deyil. Öz məclisləridir. Bunlar ailələri ola-ola üzbəüz masada oturan 4 qıza qarşı biədəb hərəkətlər edilib. Digər stollarda oturanlar bu adamın hərəkəti ilə bağlı şikayətlər edib. Mühafizəni göndərdik ki, özünüzü ələ alın, burda ailələr var. Dedilər ki, elə bizim də ailəmiz var. Mən də dedim, əgər sizin də ailəniz varsa, lap yaxşı, daha diqqətli olun. Qayıtdılar ki, xeyir ola, bu qızlara görə siz bizə söz deyirsiz? Dedik ki, ailəvi istirahət mərkəzidir, siz ünvanı səhv salmayın".

**A.Tomayev dedi ki, müştərinin bu rəftarından sonra ona mədəni olması ilə bağlı bir daha məsləhət verilib:** "Dedim ki, bizim üçün fərqi yoxdur - siz və ya digər müştəri. Müştərinin də çoxu ailəlidir. Ailəli olduğu üçün burda artıq-əskik söhbətlər istəmirik. Kimsə oynamaq istəyirsə, diskotekaya getsin. Siz burda ab-havaya baxıb hərəkət etməlisiniz. İçəri girəndə görməlisiniz ki, siz səhv yerə gəlmisiniz. Burda qapalı kabinetimiz yoxdur, açıq şou zalıdır".

**Müsahibimiz təxmin edir ki, bütün baş verənlər hazırlanmış bir plan olub. Belə ki, dava salan dəstə özü ilə hətta qaz balonu da gətiribmiş:** "İnanın ki, qaz balonuna qədər çıxardılar. Elə bil ki, hazırlanmış bir hadisə idi. Mühafizəçilər bunları sakitləşdirirlər, "can, qurban olum, başına dönüm" deyərək, hər şeyi yoluna qoymağa çalışırlar, amma alınmır. Məsələn, dava salanlardan biri əsəbi idi. Ofisiant buna su süzdü ki, içib sakitləşsin. Götürüb ofisiantı söydü. Ondan sonra daha pis dava düşdü. Ofisiant da dedi ki, mənim nə günahım var, günü 12 manata işləyən adamam".







**Baş administrator bildirdi ki, restoranın sahibi Hacı Mirtalib Mirioğlunun davaya şəxsən müdaxilə etməsi, qonaqlardan birinin başına butulka ilə vurması söhbəti ağ yalandır. Onun sözlərinə görə, Hacı davanı eşidəndən sonra restorana gəlib:** "10 ildə mətbuatda heç bizim haqqımızda nəsə pis bir şey eşitmisiz? İçki vermirik, içəri kişi kampaniyası buraxmırıq. 5 kişinin gəlib burda oturması mümkün deyil. Biz icazə vermirik".

**Hesabı ödəmədən gedən bütün müştərilər və "ər mənimdir, icazə vermişəm qızlarla oynasın" deyən qadın....**

**Müsahibimiz dava salan kişinin həyat yoldaşı ilə bağlı ilginc detalı da açıqladı. Dedi ki, həmin xanım şəxsən baş administratora "ər mənimdir, icazə vermişəm ki, gedib qızlarla oynasın" deyə etiraz edib:** "Bu adamlar çıxırdılar masanın üstünə, qonaqların üstünə bakal atmaqdan tutmuş hər şeyə qədər edirdilər. Hər şeyi vurub qırırdılar. Məqsədli şəkildə edirdilər hər şeyi".

**Konkret restorana dəyən ziyana gəlincə, A.Tomayev bildirdi ki, dava düşdüyü üçün həmin gün gələn qonaqlar hesabı ödəmədən məkanı tərk ediblər. Bu isə üst-üstə 12-13 min manatlıq hesab olub:** "Əmlaka vurulan ziyanın məbləği isə 40-50 min manatdan az olmadı. Təsəvvür edin ki, o davada ən azı 50-60 stol-stul sındı. Restoranın 6-7 nəfər işçisi isə xəsarət aldı. İşçilərimizdən birinin gözündə zədələnmə, eləcə də çanaq sınığı var. Başından çəngəl ilə vurmuşdular. Əlində tikişi var. O ailədən şikayətçiyik. Gəmidə oturub gəmiçi ilə dalaşıblar. Biz restoran işlədirik. Hacı bizim ağsaqqaldır. "Azəri", "Röya" da bizim restoranlardır. Bu adam 20-22 ildir ki, bu işin içindədir. Bəyəm biz bilmirik ki, qonağı necə qarşılamaq lazımdır? Biz ofisiantları 3 dəfə təlimatlandırırıq. Hər şeyi instruktaj edəndən sonra xidmətə buraxırıq. Bura şadlıq sarayı deyil, restorandır. Harda görünüb ki, restoran ofisiantı qonağın geyiminə qarışsın?"

**Baş administrator bir daha xatırlatdı ki, əgər dava salan tərəfin ilkin xoşagəlməz hərəkətlərinə qonaqlar tərəfindən şikayət gəlməsəydi, bu insident də baş verməyəcəkdi:** "Şikayət olmuşdu onlardan. 6 nəfər pəzəvəng oğlan idi, özünü də apara bilmirdi. Demişdik ki, camaat burda ailəsi ilə istirahət edir, xınayaxdı var, ailəsi ilə oynamaq istəyənlər var. Qonaqlar oyun meydançasına sizə görə çıxa bilmirlər. Bunların xətrinə dəydi ki, mən Yasamal uşağıyam-filan. Halbuki nə dəxli var sən kimsən? Sonra da qayıtdılar ki, bəs siz dünən gəlmisiz, biz bu gün. Nə olsun axı? Bunun mətləbə nə dəxli var ki?"

**"Oazis"in sahibi də danışdı**

**Mirtalib Mirioğlu isə hadisə barədə axar.az-a bunları deyib:** "Restoranda xanım kollektivi var. Kimsə qardaşı və həyat yoldaşı olmadan restorana gəlibsə, o deməK deyil ki, kimlərsə onları narahat edə bilər. Xanımlar tanımadığı şəxslərin onlara qarşı kobud davranması və onları narahat etməsi ilə bağlı restoranın mühafizəçilərinə məlumat veriblər. Restoranın işçiləri məsələni aydınlaşdırmaq istəyərkən olay daha da böyüyüb və kütləvi davaya çevrilib. Masadakı boşqablar və pəncərələr sınıb. İşçilərdən 3 nəfər xəsarət alıb".

**Restoran sahibi mühafizəçilərin həmin şəxsə həyat yoldaşı ilə bağlı "get arvadına de, yaxasını bağlasın" məsələsinə də aydınlıq gətirdi:** "Necə fikirləşirsiz, kim kimə elə söz deyər? Heç olmasa, elə bir şey uydursunlar ki, inandırıcı olsun. Mühafizəçi onun özünə irad tutub ki, paltarınızı düymələsəniz yaxşı olar, qarnınız çöldə qalıb. Həmin vaxtı da dava düşməyib. Davanın düşməyinə səbəb bunların mütəmadi olaraq yan masadakı xanımları narahat etməsi olub. Ən dəhşətlisi isə odur ki, həmin şəxsin xanımı ərinin başqa xanımlara söz atmasına haqq qazandırırdı. Biz onun əri ilə söhbət edəndə arvadı qışqırırdı ki, ər mənimdir, özüm bilərəm, yaxşı edir xanımlara ilişir".

**Restoran sahibi onu da dedi ki, elə dava da bu sözlərdən sonra baş verib:** «Biz həmin şəxsi sakitləşdirmişdik. O, içkili olduğu üçün nə danışdığını bilmirdi. Amma o, ofisiantı şapalaqladı, dava da ondan sonra düşdü. Videoda özünüz də görəcəksiniz ki, butulkaları işçilərimin başında necə sındırırlar, bıçağın arxası ilə dayanmadan yüzdən çox zərbə vurublar".

"Oazis"in sahibi bildirib ki, dəyən zərərlə bağlı Binəqədi Rayon Məhkəməsinə müraciət edilib və zərərin ödənilməsi tələb olunur.

**Dava iştirakçısı: "6 nəfərlə mühafizəçiləri və ofisiantı döyüb stolları aşırmağa gücümüz çatardı?"**

**"Yeni Müsavat" hadisə ilə bağlı qarşı tərəfin də mövqeyini öyrənməyə çalışıb. Amma onları tapmaq mümkün olmadı. Amma davada iştirak etdiyi bildirilən Vaso Şəfiyev facebook səhifəsində restoranın baş administratorunun açıqlamalarını yayaraq belə şərh verib:** "Əslində bu "kişi" danışan kimi heç nə olmayıb... Sadəcə, günahsız olmadığımızı necə sübut edəcəyimiz qalıb. Bildiyim qədəri ilə media gərək araşdıra, sonra xəbər yaya. Belə xəbərlər istintaqa çox pis təsir edir. Xəsarət alan Ravid Abdullayev, Emil Tumasov və Zaur Əsgərov göz qabağındadır. Yəni kimsə düşünür ki, biz 6 nəfərlə mühafizəçiləri və ofisiantı döyüb stolları aşırmağa gücümüz çatardı? Binəqədi polisinin işi şəffaf görəcəyinə inanıram və qardaşlarımın da hər üçünə tezliklə şəfa diləyirəm. Hər şey tərbiyəsiz ofisiantın sözlərindən sonra başladı".

Sonda qeyd edək ki, hadisə ilə bağlı Cinayət Məcəlləsinin 221.1 maddəsi ilə cinayət işi açılıb.

"Qafqazinfo" xəbər verir ki, dava iştirakçılarından biri - Ravid Abdullayev həbs edilib. Hadisə ilə bağlı Cinayət Məcəlləsinin 221.1 maddəsi ilə cinayət işi açılıb. Hazırda xəstəxanada olan davanın digər iştirakçısı Zaur Əsgərov bildirib ki, bir azdan onun da həbs olunması gözlənilir.

Məlumatı Daxili İşlər Nazirliyinin mətbuat xidməti təsdiqləyib.

***P.S.*** *Sabahkı sayımızda qarşı tərəf - "Oazis"də döyülənlərin də geniş mövqeyini dərc edəcəyik.*

❑ **Sevinc TELMANQIZI**

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

**Erməni diasporu 2015-ci ildə qondarma “erməni soyqırımı”nın 100 illiyini dünya miqyasında yüksək səviyyədə qeyd etmək üçün ciddi hazırlıqlar görür. Türkiyə dövləti dəfələrlə 2015-ci il hadisələrinin obyektiv araşdırılması üçün öz arxivlərini erməni tarixçilərinə təklif etsə də, qarşı tərəf müxtəlif bəhanələrlə bundan imtina etdi ki, bu da ermənilərin əslində real həqiqətlərdən bəhrələnmək, tarixə obyektiv şəkildə işıq salmaq niyyətində olmadıqlarını isbatladı.**



# Azərbaycan və Türkiyə “soyqırım” iddialarını alt-üst etməyə hazırdırmı?

Elə ötən həftə Türkiyə prezidenti R.T.Ərdoğanın xoşməramlı niyyətlə çıxış edərək inauqurasiya mərasiminə Ermənistan prezidentini dəvət etməsinin qarşılığında Ankaraya gələn erməni nazir E.Nalbəndyanın Türkiyə prezidentini 2015-ci il “soyqırım” tədbirlərinə dəvət etməsi də düşmən ölkənin nə qədər məkrli olmasının göstəricisi idi. Erməni diasporu və Ermənistanın havadarı olan güclər hətta Türkiyə-Ermənistan sərhədlərinin açılması barədə imzalanan və Azərbaycanın maraqlarına zidd olan razılaşmanın belə gerçəkləşməsinə imkan verməməklə tarixi ədavətin davam etməsində maraqlı olduqlarını ortaya qoydular. Bu mənada görünən odur ki, erməni lobbisi 2015-ci ildə böyük hay-küylə qondarma “soyqırım” təbliğatını aparacaq.

Zamanında Osmanlı dövlətini zəiflətmək üçün erməni kartından istifadə edən Avropa dövlətləri və Rusiya bu gün də onların əlində oyuncağa çevrilən ermənilərdən yararlanmaqda davam edir, yəqin ki, gələn il bu xüsusda yeni faktların şahidi olacağıq. Ermənilər qondarma “soyqırım”la bağlı yalanlara dünyanı inandırmaq üçün dram janrında Hollivud filmlərinin çəkilməsi, saxta sənədlərin və görüntülərin hazırlanması, qondarma “soyqırım”ı tanıyan ölkələrin meydanlarında xatirə abidələrinin ucaldılması, montaj fotolarla dünyanın aparıcı ölkələrində sərgilərin təşkil olunması, qondarma soyqırımı tanıyan ölkələrin bürokratlarına mükafatların verilməsi, sosial şəbəkələrdən məharətlə istifadə edərək, ictimai rəyin yönləndirilməsi, dünyada 21 ölkənin, ABŞ-da isə 43 əyalətin tanıdığı qondarma soyqırımın tanınması üçün digər ölkələrə də təzyiq edilməsini qarşıya əsas məqsəd qoyublar. Bunun qarşılığında Azərbaycan və Türkiyənin də müvafiq işlər görməsi, tarixdə olmayan hadisələrə görə Türkiyənin zəif duruma salınması, həmçinin Azərbaycanın təhdid olunmasına imkan verməmək üçün addımların atılması zəruridir. Maraqlıdır, Azərbaycan və Türkiyə bu istiqamətdə hansı işlər görüb, görür və ya görmək niyyətindədir? Soyqırım iddialarını alt-üst etmək üçün iki qardaş ölkənin müvafiq qurumları və diaspor təşkilatlarının vahid plan-proqramı varmı?

**Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Elşad Mirələm bildirdi ki, bu məsələ müzakirə olunur:** “Müəyyən ideyalar, təkliflər və layihələr var. Yəqin ki, müvafiq məsləhətləşmələrdən sonra konkret addımlar barədə daha təfsilatlı danışmaq mümkün olacaq. Ancaq məsələ Azərbaycan və türk diaspor təşkilatlarının, habelə hər iki ölkənin bu sahəyə bilavasitə məsul olan dövlət orqanlarının gündəmindədir”.

**İstanbul Aydın Universitetinin şöbə müdiri, professor Kamil Vəli Nərimanoğlu deyir ki, ermənilər son illərdə qondarma soyqırımın 100 illiyinə ciddi şəkildə hazırlıq görürlər və açığı, bir xeyli iş görüblər:** “Diasporun qurultayını keçiriblər, ardıcıl müxtəlif ölkələrdə çoxlu internet materialı yayıblar. Yəni istər diaspor içərisində, istərsə də Ermənistanda bu məsələ ilə bağlı ciddi hazırlıq gedir. Ancaq Türkiyə və Azərbaycan bu məsələ ilə bağlı çox çalışmır. Halbuki bu məsələnin böhtan, uydurma olduğunu əsaslı dəlillərlə isbat etmək üçün kifayət qədər əsaslar var. Ermənilərin canfəşanlığı ortadadır. Bu canfəşanlıq həqiqəti ört-basdır edə bilməz, amma dünya ictimai fikrini çaşdırmaq baxımından ermənilərin xeyrinə işləyə bilər. Mənim çalışdığım İstanbul Aydın Universitetində ”Yeni Türkiyə" dərgisi və strateji mərkəzi var. Orda bizim xeyli materiallar çap olunacaq. Həmin materiallardan çıxış edərək biz əvvəla, türk-erməni münasibətlərinin tarixini obyektiv işıqlandırmalıyıq. Bizim tarixi birliyimiz, mədəniyyət birliyimiz, onların dərin kökləri, türkcə yazan erməni aşıqları, şairləri, erməni mədəniyyətində türk izləri, bəlkə ayrı-ayrı sahələrdə ermənilərin təsiri kimi məsələlər obyektiv işıqlandırılmalıdır". **Professor deyir ki, bir-birimizin yanında, sadəcə, öyünmək üçün ermənini söyməyin mənası yoxdur:** “O, heç bir divident gətirməz. Daha çox neytral olan dünya ictimaiyyətinə, dövlətinə, insanına müraciət olunmalıdır. 100 il bundan qabaqla bağlı bir mübahisə var, onun tarixi səbəbləri var, ağır, acımasız nəticələri var. Araşdırılmalı və neytral insan, neytral dünya insanı üçün izah edilməlidir. Yoxsa təhqirlə, ”bizdən mədəni millət yoxdur, hər şeyi bizdən almısınız, biz haqlıyıq" deməyin faydası yoxdur".

**K.V.Nərimanoğlu digər bir məsələyə də xüsusi diqqət çəkdi:** “Türkiyə və Azərbaycan bu məsələdə dövlət olaraq, türk olaraq ayrılmamalıdır. Bu işdə ayrılıq olarsa, ermənilərə çox böyük üstünlük verilmiş olacaq. Dövlət olaraq Azərbaycan və Türkiyə dövlətləri, millət olaraq Azərbaycan və Türkiyə milləti konsepsiya ilə çıxış etməlidir. Hətta 35 milyondan çox İran türkləri də bu məsələdə bərabər hüquqda götürülməlidir. Çünki azərbaycanlılar həm Gürcüstanda, həm Dərbənddə yaşayırlar, dünyanın hər yerində yaşayırlar, həm də Ermənistan bizim tarixi torpaqlarımızdır. Dünyada 50 milyondan çox Azərbaycan türkü, 80 milyondan çox Türkiyə türkü var. Azərbaycan türkü ilə Türkiyə türkünün, ümumiyyətlə, İslam aləminin xristian dünyasından və erməni faşizmindən aldığı yaralar obyektiv şəkildə işıqlandırılmalıdır. Təəssüf ki, bu birlik konsepsiyası işlənib hazırlanmayıb. Ya Rusiyanın qorxusundan, ya tənbəllikdən, ya bu məsələni təsir dairəsinə almaq istəyən adamların təsirindən, ya da etinasızlıqdan bu konsepsiya hazırlanmayıb. Xüsusilə də Türkiyə təəssüflər olsun ki, bu sahədə çox fəal deyil”.



**Kamil Vəli Nərimanoğlu:** “İki dövlət və bir millət olaraq vahid konsepsiya ilə çıxış etməliyik”



**Elşad Mirələm:** “Məsələ Azərbaycan və türk diaspor təşkilatlarının, habelə müvafiq dövlət orqanlarının gündəmindədir”



**Qafar Çaxmaqlı:** “Ermənilər dövlət səviyyəsində bir komissiya yaradıb, Türkiyədə və Azərbaycanda da bununla bağlı bir qurum olsa yaxşı olar”

**Kamil Vəli hesab edir ki, baş verənlər soyqırımdan çox qarşılıqlı qırımdır:** “Yəni türkün ermənini, erməninin türkü öldürməsi Cəfər Cabbarlının məşhur ”Atan kazaklardır" cümləsində çox dəqiq ifadə olunub. Mirzə Cəlilin “Kamança” pyesi bu cəhətdən çox misilsiz bir əsərdir, Sabirin “Beynəlmiləl” şeiri də bu səviyyədədir. Türkiyədə yaşayan ermənilərin nə üçün Osmanlıya arxadan zərbə vurması, Azərbaycan torpaqlarına köçürülməsi siyasəti, İrəvandan azərbaycanlıların köçürülməsi və ermənilərin məskunlaşdırılması kimi problemlər gərək xüsusilə tarixi aspektdə, eyni zamanda filoloji, fəlsəfi aspektdə işlənməlidir. Erməni məsələsi düşmənçilik prizmasından deyil, tarixi kök, mədəniyyət birliyi ilə kontekstində, sonra siyasi motivlərlə, böyük dövlətlərin təkidi, mənafeyi, çıxarları üçün ortaya salınan nifaqlar kontekstində işlənməlidir".

**Professor deyir ki, bu məsələ erməni diasporunun qidalandığı, maddi baza olaraq istifadə etdiyi şəbəkə halına gəlib:** “Onların varlığı bu məsələni şişirtməklə bağlıdır. Əgər onlar obyektiv yanaşsalar, görərlər ki, Ermənistan enerji layihələrindən kənarda qalıb, çox böyük itkilər verib. Bu gün 100 minə qədər erməni Türkiyədə ucuz işçi qüvvəsi kimi çalışır, erməni xalqının böyük köçünü müşahidə etməkdəyik. Tutduqları Dağlıq Qarabağ, ətraf 7 rayon ermənilər üçün heç bir divident gətirmir. O torpaq ki, əkilmir, becərilmir, orda mədəniyyət yaradılmır, o torpaq həmin xalq üçün məzarlıqdan başqa bir şey ola bilməz. Erməni xalqı ağılsız xalq deyil, ermənilər vəziyyəti çox gözəl başa düşür. Amma erməni xalqının mədəniyyətinə, sərvətinə yiyələnmiş, oradakı elektrik stansiyasını belə qorxu ünvanına çevirmiş, ölkədəki iqtisadi durumla əsla maraqlanmayan Rusiya artıq Ermənistanın müstəqilliyinə son qoyub. Ancaq bu zəifləmə Ermənistanın tam ortadan çıxması demək deyil. Çünki onun arxasında böyük güclər var. Bu güclər erməni kartından, işğal olunmuş torpaqlar kartından, 1 milyonluq qaçqın-köçkün faktorundan hələ istifadə edirlər və edəcəklər. Bu mənada bizim Türkiyə ilə çox güclü hərbi-strateji əməkdaşlığımıza ehtiyac var. Təxminən Ermənistanla Rusiya arasında hansı statuslu anlaşma varsa, Azərbaycanla Türkiyə arasında da elə bir anlaşma olmalıdır, sazişlər bağlanmalıdır. İqtisadi baxımdan da Azərbaycan-Türkiyə-Gürcüstan gömrük zonasının, iqtisadi zonanın yaradılmasına ehtiyac var”.

K.V.Nərimanoğlu qeyd etdi ki, Azərbaycanla Türkiyə arasında müstəqilliyimizə xələl gəlmədən konfederasiya səviyyəsində addımlar atılmalıdır: “Azərbaycan müdafiə olunmamalı, artıq hücuma keçməlidir”.

**Azərbaycan Erməni Araşdırmaları Mərkəzi və Ərciyəs Universiteti Ermənişünaslıq bölümü başqanı Qafar Çaxmaqlı deyir ki, əslində o, qondarma “erməni soyqırımı”nın 100-cü ili ilə əlaqədar Ermənistanın və erməni diasporunun planlı fəaliyyətinə qarşılıq vermək üçün Türkiyədə görülən işlərin səviyyəsindən narazıdır:** “Həmişə olduğu kimi, durub gözləyirik ki, görək ermənilər hardan hücum edəcəklər, biz ona cavab verək. Bu yalanı dünyaya daha məntiqlə inandırmaq üçün işlər görülməsi pərakəndədir, bəzi hallarda isə o, istənilən effekti vermir. Baxın, ermənilər iki il öncə dövlət səviyyəsində bir komissiya yaradıblar. Soyqırım təbliğatının hər sahəsinə aid məsul adamlar var. Türkiyədə və Azərbaycanda bununla bağlı mən arzu edərdim ki, bir qurum olsun. Türkiyə son zamanlar bu məsələyə diqqət ayırır. Başbakanlıqda, Xarici İşlər Nazirliyində, strateji araşdırmalar mərkəzlərində bu məsələ ilə birbaşa məşğul olan qruplar yaradılıb. Bu məsələ ilə bağlı təbliğatı gücləndirmək tədbirləri görülür. Dövlət qurumlarından başqa nüfuzlu basın-yayın quruluşları müxtəlif proyektlər işləməkdədirlər”.

**Q.Çaxmaqli deyir ki, bəzi proseslərdə şəxsən iştirakçıdır:** “Məsələn, nüfuzlu ”Yeni Türkiyə" jurnalı məşhur ermənişünasların *(o cümlədən Azərbaycanlı müəlliflərin)* hazırladıqları 5 cildlik kitab üzərində işləyir. Onun redaksiya heyətində mən də varam. Simpoziumlar, konfranslar, digər təbliğat projelərinin həyata keçirilməsi təqdir edilə bilər. Amma məncə, Azərbaycanla Türkiyənin ortaq fəaliyyəti ilə ermənilərin soyqırım təbliğatının miqyasını azalda bilərik. Ermənilər 100-cü ilə daha çox filmlərlə çıxacaqlar. Hollivudu da bu işə alət ediblər. Bizim yaxşı sənədli filmlərimiz, sənədli materiallarımız var. Amma onlar da, bu mövzuda yazılmış digər əsərlər də xarici dillərdə olmalıdır. Ermənilər gələn il aprelin 24-nə imkan daxilində daha çox dövlətlərdən adamların gəlməsini təmin etmək istəyirlər Biz buna mane olmağa çalışmalıyıq. Çalışmalıyıq Ermənistanın bu tədbiri “proval” olsun. Bu məsələlər üzrə vahid bir mərkəz yaradılsa, müəyyən işlər görmək mümkündür. Hələ gec deyil. Həm Azərbaycanda , həm də Türkiyədə bu mövzuları mükəmməl səviyyədə bilən mütəxəssislər var. Onların potensialından istifadə olunması dövlətlərimizi düşündürməlidir".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014

# Gül dükanlarımızda əsasən xarici güllər satılır

## Əməkdaşımız milli gülçülüyümüzün böhran keçirməsinin səbəblərini araşdırıb; paytaxt dükanlarındakı satıcılar nə deyir?..









**Güllər gözəlliyi, ətri, zərifliyi ilə insanı həmişə valeh edib, onda xoş ovqat yaradıb. Xüsusən də qızılgül hər zaman öz təravətini, cazibədarlığını saxlayıb və hər kəs tərəfindən sevgi ilə qarşılanıb. Araşdırmalara görə, qızılgül 5 min il bundan əvvəl Asiyada yetişdirilməyə başlanıb. SSRİ dönəmində demək olar ki, paytaxtın hər küçəsində əlində gül satan insanlara rast gəlirdik.**

İndi isə onları yalnız sevgililər günündə və ya 8 martda görmək olar. Azərbaycanda onlarla gülçülük təsərrüfatı olub. O sırada Abşeronda Zabrat, Maştağa, Nardaran, Bilgəh, Mərdəkan və Şüvəlan gülçülük sovxozları fəaliyyət göstərib. Bu kəndlərin sakinləri nəinki Bakını, ümumən bütün MDB məkanını güllə təmin edib. Ancaq gəlirli sahə olan gülçülük son 10-15 ildə unudulub. İndi güllər yalnız ayrı-ayrı şəxslərə məxsus istixanalarda yetişdirilir.

Mütəxəssislərə görə, Bakı kəndlərində gülçülüyün durumu 20-25 il əvvəlki dövrlə müqayisə edilərsə, 20 faiz gülçülük təsərrüfatının qaldığı məlum olar. Maraqlıdır, hazırda gül mağazalarında Azərbaycanda yetişən yerli güllər varmı? Ümumiyyətlə, azərbaycanlıların gülü əsasən hansı məqsədlə aldıqlarını öyrənmək üçün "Neftçilər" metrosu yaxınlığında fəaliyyət göstərən bir neçə gül dükanına baş çəkdik.

İlk baş çəkdiyimiz gül salonunda güllərin rəngarəngliyi və təravəti insanı bihuş edirdi. Daha çox diqqət cəlb edən isə bir neçə rəngi özündə birləşdirən qeyri-adi qızılgül idi. **Dükanın satıcısı Tural Abbasov** bu güllərin Ekvadordan gətirildiyini dedi: "Bizim mağazamızda qızılgülün müxtəlif növləri var. Onların bir ədədi isə 4 manatdır. Daha çox satılan da elə bu qızılgüllərdir. Bayram olmayan ərəfələrdə gülləri ad günləri, nişan, toy və ya sadəcə olaraq evə qoymaq üçün alırlar. Bizdə qeyri-adi güllər də var. Onlardan biri də riyatris gülüdür. Bu gülün özəlliyi gec solmasındadır. Qızılgül sərin hava şəraitində saxlanılarsa 10 gün qalır. Digər güllər isə növündən asılı olaraq 15-20 gün arasında solmur".

**Başqa bir gül salonunun sahibi Anar Əliyev isə güllərin Ekvadordan əlavə, həm də Türkiyədən gətirildiyini dedi:** "Mağazamızda Azərbaycanda yetişən güllər də var. Məsələn, qərənfil. Ancaq onun alıcısı yoxdur. Təəssüflər olsun ki, qərənfil ancaq qəbir üstünə qoyulan gül kimi xarakterizə edilir. Ona görə də alıcıları yalnız qəbirüstünə gedənlərdir".

**A.Əliyev gül alarkən bir neçə məqama diqqət etməyin vacibliyini də vurğuladı:** "Qızılgül alarkən onların qönçələrini yoxlayın. Qönçəni əlinlə yoxlayırsan, əgər möhkəmdirsə, demək, gül təzədir. Yumşaqdırsa, almağa dəyməz. Belə gül artıq təravətini itirib və tez solacaq. Çəmən güllərinin ortası yaşıldırsa, demək, tam yetişməyib. Yanlarında da ara-sıra qönçələr görünürsə, gül körpədir. Ümumiyyətlə, kalalar bir həftə, çəmən gülləri 15-20 gün, qış aylarında hətta 1 ay da qala bilər. Qızılgüllər ev şəraitində 4-5 gün qalır. Amma mağazada düzgün qulluq sayəsində gec solur. Güllərin gec quruması üçün otağın havası tez-tez dəyişilməlidir. Otaqda təmiz hava olmalıdır, temperatur 15-20 dərəcəni keçməməlidir. Temperatur 20 dərəcədən yuxarı olarsa, güllər məhv olar. Ümumiyyətlə, güllərin gec solması üçün onları vaxtaşırı olaraq soyuq su ilə doldurulmuş pulverizator vasitəsilə sulamaq lazımdır".

**Həmsöhbətim seçim edərkən daha çox qızılgüllərə üstünlük verildiyini deyir.** "Ağ qızılgüllər əsasən kişilərə, qırmızı qızılgüllər isə xanımlara hədiyyə olunur. Elə xanımlar da var ki, ağ qızılgülləri xoşlayırlar. Ən bahalı və nadir gül isə orxideya hesab olunur. Orxideyanın 1 dənəsini 50 manatadır. Çəmən güllərini əsasən Hollandiyadan gətiririk".

Onu da qeyd edək ki, xarici ölkələrdə hər bir gül nəyisə simvolizə edir. Məsələn, bir çox ölkələrdə ən məşhur gül qızılgül sayılır. Xüsusilə də Bolqarıstanda bu güllər çox məşhurdur. Lotos gülü isə Hindistanın rəmzi hesab olunur. Bu güllər rəssamların əsərlərində, tikililərin sütunlarında və məbədlərdə təsvir olunur. Hindistan xanımları bu çiçəklərlə öz saçlarını bəzəməyi xoşlayırlar. Hesab olunur ki, bu güllərin müalicəvi əhəmiyyəti var. Elə ölkələr də var ki, orada güllərə xüsusi yanaşırlar.

Güllərlə bağlı bir sıra əfsanələr, adət-ənənələr də var. Misal üçün, Yaponiyada sakura çiçəyi çox məşhurdur. Sakura gülünün açması yaponlar üçün vacib bir hadisədir. Yaponlar ailəsi, iş yoldaşları, tanışları və qohumları ilə yığışıb bu güllərin açmasına tamaşa etməyə gedirlər. Xrizantem gülü də Yaponiyada çox sevilən güllərdəndir. Bu gülün rəsmini yaponların pasportunun üzündə də görmək olar. Ən yüksək orden imperator möhürünü simvolizə edən Xrizantem Ordenidir.

Amerikada isə hər ştatın öz rəmzi - gülü var. Texasda valehedici göy rəngli lupin ştatın rəmzi sayılır. Lupin gülləri açanda torpağın üstünü sanki göy xalça örtür. ABŞ-ın özünün isə rəmzi ümid verən və sevinc gətirən qızılgül hesab olunur. Qızılgül həm də İngiltərənin rəmzi sayılır. Çinin isə rəmzi pion gülüdür. Bu gül əmin-amanlıq, xoşbəxtlik və sevgi mənasını verir. Hər il Çinə pion gülünün festivalında iştirak etməyə minlərlə adam gəlir. Pion gülü festivalı həm də nikah bağlamaq üçün uğurlu gün sayılır.

Rusiyada çobanyastığı günü təbiəti simvolizə edir. İspaniya və İtaliyanın rəmzi isə zanbaq gülüdür. Fransada da ağ zanbağa böyük əhəmiyyət verilir. Lakin elə ölkələr də var ki, güllər mənfi hadisələri simvolizə edir. Bu səbəbdən də gül hədiyyə etməzdən əvvəl bu haqda ətraflı məlumat öyrənmək lazımdır. Məsələn, Almaniyada zanbaq gülü ölülərin dünyası ilə assosiasiya edilir.

❑ **Günel MANAFLI**
**Fotolar müəllifindir**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




## Xalq artistinin ailəsində faciə yaşadan məmur oğluna 12 il cəza istənildi

**Bakı Ağır Cinayətlər Məhkəməsində xalq artisti Ağasəlim Abdullayevin ailə faciəsi ilə nəticələnən yol qəzasına səbəb olan şəxsin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

APA-nın məlumatına görə, prosesdə dövlət ittihamçısı Ramazan Hadıyev çıxış edərək təqsirləndirilən Mədətov Xalid Mübariz oğlunun 12 il müddətinə azadlıqdan məhrum edilməsini istəyib. Məhkəmə sentyabrın 11-də işini davam etdirəcək.

Qeyd edək ki, martın 15-də saat 00:30 radələrində Suraxanı rayonu, Zığ şossesində Abdullayev Vüqar Ağasəlim oğlunun idarə etdiyi VAZ-2106 markalı 10-NB-466 dövlət qeydiyyat nişanlı avtomobillə Mədətov Xalid Mübariz oğlunun idarə etdiyi "Mercedes-Benz G-55" markalı 90-FE-007 dövlət qeydiyyat nişanlı avtomobil toqquşub. Nəticədə "VAZ-2106"da olan sərnişinlər - 1959-cu il təvəllüdlü Brilyant Abdullayeva və 2008-ci il təvəllüdlü Ağasəlim Abdullayev hadisə yerində ölüb, 1950-ci il təvəllüdlü Ağasəlim Abdullayev və 1984-cü il təvəllüdlü Səadət Abdullayeva isə müxtəlif dərəcəli bədən xəsarətləri ilə 3 saylı şəhər klinik xəstəxanasına yerləşdiriliblər.

X. Mədətov "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sabiq sədr müavini Mübariz Mədətovun oğludur.

Həmin hadisədən 2 gün sonra isə ölkə prezidentinin sərəncamı ilə Mübariz Mədətov tutduğu vəzifədən azad edilib, oğlu isə həbs olunub.

# "Planet" sökülür, amma...

## **Nizami RİH-in sözçüsü Babək Tatlıyev:** "İcra Hakimiyyəti olaraq, heç bir təsərrüfat subyektinin sökülməsi barədə göstəriş vermək səlahiyyətimiz yoxdur"





**İki gün öncə mətbuatda Nizami Rayon İcra Hakimiyyətinin Bakının məşhur şadlıq saraylarından biri olan "Planet"in sökülməsi ilə bağlı tapşırıq verməsi barədə məlumat getmişdi. Xəbərdə icra hakimiyyətinin şadlıq sarayının gəlin maşınının zala daxil olan hissəsinin sökülməsi haqqında göstəriş verdiyi qeyd olunurdu.**

Hətta xəbərdə bildirilirdi ki, söküntü işinin başa çatdırılması üçün obyekt sahibinə oktyabr ayına qədər vaxt verilib.

Məlumatın nə dərəcədə doğru olmasını aydınlaşdırmaq üçün "Planet" şadlıq sarayına baş çəkdik. Şadlıq sarayının gəlin maşınının zala daxil olan hissəsində söküntü işlərinin aparıldığının şahidi olduq. Ərazidəki avtomobil dayanacağının nəzarətçisi söküntü işləri aparılan yerdə mağaza tikiləcəyini bildirdi. Nəzarətçi onu da qeyd etdi ki, artıq söküntü işləri başlayandan gəlin əsas qapıdan zala daxil olur.

**"Planet" şadlıq sarayının administratoru Vüqar adlı şəxs yayılan xəbərləri təkzib etdi:** "Jurnalist xanım özündən uydurma xəbərlər yayıb. Şadlıq sarayı sökülmür. Sadəcə, təmir işləri gedir. Məlumat tam yalandır və həqiqətə uyğun deyil. Bu cür xəbərləri yaymaq düzgün deyil. İşlərimiz tam qaydasında gedir. Şadlıq evlərinin yığışdırılması ilə bağlı xəbərlərin ortaya çıxmasının bizim şadlıq sarayına heç bir təsiri olmayıb. Əksinə, toy sifarişlərimizin sayında artım var. Jurnalistlərdən xahiş edirəm ki, hər hansı bir məlumat yazanda dəqiqləşdirsinlər. Yazı xətrinə yazmasınlar".

**Şadlıq sarayı ilə bağlı yayılan xəbərdə adı keçən rəsmi qurum - Nizami Rayon İcra Hakimiyyəti ilə də əlaqə saxladıq. RİH-in təsərrüfat şöbəsinin müdiri Babək Tatlıyev yayılan xəbər haqda ilk dəfə mətbuatdan oxuduqlarını bildirdi:** "Biz bu məsələni ilk dəfədir eşidirik. Birincisi, rayon icra hakimiyyəti olaraq heç bir təsərrüfat subyektinin, özəl obyektin sökülməsi haqda göstəriş verməyə ixtiyarımız yoxdur. Bu bizim funksiyamıza aid deyil. Belə bir şey etmirik. Hansı məntiqlə özəl obyektin işinə qarışıb, onu sökdürə bilərik? Belə bir şey olsa, bizi məhkəməyə verə bilərlər. Sahibkarların buna tam hüquqları çatır. Ümumiyyətlə, oranın sökülməsindən xəbərimiz yoxdur. Belə yalan xəbər yayan saytlar barədə hansısa bir tədbir görməyi düşünmürük. Biz sadəcə təkzib verə bilərik. Mətbuatdan xahişimiz odur ki, jurnalist etikasına əməl olunsun. İcra Hakimiyyəti haqqında məlumat gedirsə, bizimlə dəqiqləşdirilsə, daha gözəl olardı. Bu, həm jurnalist etikasına uyğun olardı, həm də dəqiq məlumat olardı. Əsas mənbədən alınan məlumat daha məntiqlidir. Heç bir mətbuat orqanının bizimlə əlaqə saxlamağı problem deyil. Saytımız var. Orada telefonlarımız yazılıb. Daim telefonlara cavab verilir. İndiyə qədər Nizami Rayon İcra Hakimiyyətinin istənilən məmuru mətbuatın, jurnalistlərin suallarından yayınmayıb".

Sonda qeyd edək ki, paytaxt Bakıda yerləşən restoranlar arasında "Planet"də gəlin maşınının zala daxil olması özəlliyi ilə məşhurdur.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**



# Bakıda keçiriləcək gözəllik müsabiqəsi ətrafında böyük qalmaqal

## **Banu Şucai:** "Tər-təmiz fırıldağı ona görə qurublar ki, məni özlərinin namizədi ilə əvəzləsinlər..."

**Sentyabrın 14-də Bakıdakı "Crystall Hall"da keçiriləcək "Miss Globe International" nüfuzlu gözəllik müsabiqəsi ətrafında əsl qalmaqal yetişir. Musavat.com-un minval.az-a istinadən verdiyi xəbərə görə, məsələ ondadır ki, yarışmada Azərbaycanı təmsil etməli olan model Banu Şucai müsabiqədə iştirakdan kənarlaşdırılıb.**

Hazırda yarışmanın təşkilatçısı olan "Z-Company" şirkətinin nümayəndələri öz hərəkətlərini onunla izah ediblər ki, əvvəllər müsabiqə ilə "Merac Production" şirkəti məşğul olub və bu şirkətlə də münasibətləri korlamaq istəmirlər, çünki müsabiqənin yeni təşkilatçısı Zamiq Yusifovun təbirincə desək, "Merac Production"un Banu Şucai üzərində haqqı var və bu şirkətin rəsmi razılığı olmadan Şucainin müsabiqədə iştirakına görə "Z-Company" problem yaşaya, hətta məhkəməyə çəkilə bilər.

Ancaq deyəsən, şirkət rəsmiləri nəzərə almayıblar ki, onları məhkəməyə elə Banunun özü çəkəcək - qanuni hüquqları pozulduğu üçün. Onun sözlərinə görə, "müqəddəs yer boş qalmadığı" üçün "Z-Company" bu tər-təmiz fırıldağı qurub ki, Banunu başqa birisi ilə - öz adamları ilə əvəzləsin. Yeni iddiaçının adı isə gizli saxlanılır.

**Vəziyyətlə bağlı minval.az-a danışan Banu Şucai deyib:** "Yeni təşkilatçıların sözlərinə görə, mənim müsabiqədə iştirakım yalnız o halda mümkündür ki, "Merac Production" konkursda iştirakıma etiraz etmədiyi haqda rəsmi məktub göndərsin və məhkəmə çəkişməsi olmayacağına söz versin. Mən anlamıram, hansı məhkəmə çəkişməsindən söhbət gedə bilər ki, "Merac Production"la heç bir müqavilə bağlamamışam və onların mülkiyyətində deyiləm. Hamı bilir ki, bu şirkətin başçısı Səbuhi Əliyev həbs edilib. Ona görə də nə o, nə də onun şirkəti ümumiyyətlə, hər hansı hüquqa malik deyil. Bu kompaniya indi sadəcə mövcud deyil. O zaman hansı məktubdan söhbət gedə bilər?"

Banu Şucai onun yerinə tapılan təzə namizədin adını da çəkib - Oksana Rzayeva. Şucai həmçinin problemlə bağlı ölkənin 1-ci xanımı Mehriban Əliyevaya da müraciət eləmək fikrində olduğunu söyləyib.

Arayış üçün bildirək ki, iri biznesmenlərdən və "Miss Globe International" müsabiqəsinin əsas təşkilatçılarından olan S. Əliyev mayın 24-də saxlanılıb. Məhkəmə onun haqqında iki aylıq həbs-qətiimkan tədbiri seçib. O, dələduzluqda və korrupsiyada suçlanır. Məlumatlara görə, biznesmenin həbsi konkursun imicinə xələl gəlməməsi üçün gizli saxlanılır".

❑ **Musavat.com**

# "Yol terroru"nda yollardakı çala-çuxurun izi

## **Elməddin Muradlı:** "Yolda çoxlu incəliklər var ki, qəzaların artmasına səbəb olur"; "qəzalarda ölənlərin sayı döyüş bölgəsində ölənlərin sayını üstələyir"



**Yol qəzalarının qarşısının alınması üçün qanunlar sərtləşdirilir, cərimələrin miqdarı dəfələrlə qaldırılır. Amma qəzalar azalmır, yollarda ölənlərin sayı döyüş bölgəsində ölənlərin sayını üstələyir.**

Azərbaycanda 2014-cü ilin 5 ayı ərzində 996 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 404 nəfər ölüb, 1003 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 2013-cü ilin ilk 3 ayı ərzində646 yol-nəqliyyat hadisəsi qeydə alınıb, nəticədə 258 nəfər həlak olub, 691 nəfər yaralanıb. 2012-ci ildə yol qəzaları zamanı yaralananların sayı 2997, ölənlərin sayı 1168 nəfər, 2013-cü ildə isə 1164 nəfər ölüb, 2948 nəfər yaralanıb. 2013-cü il ərzində respublika ərazisində 20 nəfərin həlak olması, 61 nəfərin yaranlanması ilə nəticələnmiş 81 qəzanın üstü isə bağlı qalıb.

Vəziyyəti dəyişmək üçün hansı addımlar atılmalıdır? Cərimələrin artırılması, cəzaların sərtləşdirilməsi vəziyyətdən çıxış yoludurmu?

**"Jurnalistika və İnkişaf Mərkəzi" İctimai Birliyinin rəhbəri Elməddin Muradlı deyir ki, yeni qaydaların tətbiqindən sonra tərtib olunan statistik məlumatlar göstərdi ki, cərimələrin artırılması, cəzaların sərtləşdirilməsi o qədər də yaxşı effekt vermir:** "Bir vaxtlar Azərbaycanda bu gün 500 manat olan cərimə o vaxt 7-8 manat idi. O dövrdə isə 600-800 min avtomobil var idi. İndi ölkəmizdə 1 milyon 200 min avtomobil var, cərimələrin də miqdarı hər il artırılır. Təsəvvür edin, qəzaların sayı nə qədər artır, hər il yol qəzalarında ölənlərin sayı 1100 nəfərdən aşağı olmur. Bu, son 2-3 ilin statistikasıdır və rəsmi statistikadır. Cərimələr artdıqca qayda pozanların da sayı artır. Qəzaların da sayında artım müşahidə olunur. Yay aylarında rəsmi statistikanı nəzərdən keçirmişəm və bu nəticə əldə olunub ki, hər həftə Azərbaycanda ən azı 20 nəfər yollarda ölür. Bəzən ölənlərin sayı 35-dən də artıq olur".

**E.Muradlı maraqlı bir məqama diqqət çəkdi:** "Dünyanın inkişaf etmiş ölkələrində 100 yol qəzasında 4-5 ölüm faktına rast gəlinirsə, Azərbaycanda 100 qəzanın 70-dən faizdən çoxu ölümlə nəticələnir. Maraqlı məsələ budur ki, inkişaf etmiş ölkələr eyni yolun eyni hissəsində 4-5 yol qəzası baş verən kimi dərhal narahat olurlar, mütəxəssislər gedib o ərazidə araşdırma aparır, müşahidə aparır ki, bu nöqtədə niyə çox qəza baş verir. Və səbəbi aşkar edib tədbir görürlər".

**Mərkəz rəhbəri bildirdi ki, Azərbaycanda vəziyyət tam başqadır:** "Bizdə, ümumiyyətlə, yol infrastrukturu bərbad haldadır. Yol nişanlarından tutmuş, yollardakı təhlükəsizlik qurğularına qədər, çoxlu problemlər var. Bəzən yol çəkən təşkilatlara elə gəlir ki, yolu çəkib, üstünə asfalt vurub bəzəkli xətlər çəkməklə iş bitir. Elə deyil. İş bitmir. Yolda çoxlu incəliklər var ki, qəzaların artmasına səbəb olur. Bu gün elə paytaxt Bakıda çoxlu ziddiyyətli yol nişanları var. Çala-çökək yolların sayı-hesabı yoxdur, nişanlar, svetoforlar ağacların, tikililərin arxasında itib-batır və bütün bunlar da qəzaya səbəb olan amillərdir. Rusiyada qanun qəbul olunub, yoldakı çala-çökək 5 sm-dən artıqdırsa, dərhal aradan qaldırılmalıdır. Bizdə belə bir qanun, qayda, standart yoxdur. Ona görə də Bakının mərkəzində hətta 10 sm çökək olan yollarımız da var".

**E.Muradlı yol vergisinin təyinatı üzrə xərclənməsi məsələsinə də toxundu:** "Maraqlıdır, Dövlət Yol Polisi İdarəsi hər il hər bir avtomobildən 20 manat yol vergisi alır. 1 milyon 200 min avtomobildən alınan bu pulların qarşılığında yollar niyə bu haldadır? Vətəndaşdan yol vergisi alan təşkilatlar niyə yolu bərbad halda bizə təqdim edirlər? Axı mən əziyyət çəkirəm, qəza şəraitinə düşürəm, mənzil başına vaxtında çata bilmirəm və üstəlik, maşınım də bu çala-çökək yollarda dağılıb gedir. O zaman sən hansı haqla məndən 20 manat yol vergisi alırsan?

O ki qaldı cərimələrə, nə qədər artsa da, cəzalar nə qədər sərtləşdirilsə də, qaydanı pozanlar yenə olacaq. Çünki yol hərəkəti qaydalarını bilmədən və yaxud da kitabı əzbərləyib gedib vəsiqə alanlar praktiki cəhətdən sürücülük vərdişlərini öyrənənə kimi biz əziyyət çəkəcəyik. İstər Dövlət Yol Polisi İdarəsi, istərsə də Nəqliyyat Nazirliyi, digər aidiyyəti qurumlar yollarımıza ciddi nəzarət etməlidir. İndi hansı dövrdür ki, yolun ortasında lyukun ağzı açıq qalır, maşınlar ora düşür? Hər bir küçəyə, yola dislokasiya üzrə yol polisi əməkdaşı cavabdehdir və nəzarət etməlidir. Bəzən yol polislərinə elə gəlir ki, onun işi ancaq yolda sürücüləri saxlayıb cərimə yazmaqdır. Amma təlimatı yaxşı oxusalar, görərlər ki, yollardakı çatışmazlıqların aradan qaldırılması da onların işidir. Qəza baş verirsə, qayda pozulursa, bunun səbəbini aşkar etmək çətin deyil. Çətin olan odur ki, bunların qarşısını almaq üçün tədbirlər görmək lazımdır. Bax, bütün problemlərin başında duran məsələ də budur ki, qabaqlayıcı tədbirlər görülmür".

❑ **E.HÜSEYNOV**

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014




# Ona bağlananları məyus edən dünya...

Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

**Cümə söhbətləri**

**Bismilləhir-Rahmənir-Rahim! Bəşəriyyətin islahı üçün gəlmiş mübarək İslam dini insanları təşviq edir ki, zərərli məsələlərdən çəkinməklə əbədi səadətə qovuşsunlar. Mübarək İlahi mətnlərdə, buyuruşlarda insanların ən çox çəkindirildiyi məsələlər, dünya ilə bağlıdır. Bu həyatda insanları dünyaya bağlanmaq qədər zəlil və xar edən ikinci bir məsələ yoxdur.**

## Qəlbini dünyaya bağlayanlar, üç şeyə bağlanmışdır

**Həzrət İmam Sadiq (ə) buyurur:** "Qəlbini dünyaya bağlayan kəs, qəlbini üç şeyə bağlamışdır: sonu olmayan qəm-qüssəyə, əlçatmaz arzuya və doğrulmayan ümidə". Hər kim ki, qəlbini dünyaya bağlayar, onun halı bu üç məsələ ilə səciyyələnəcək. Onlardan birincisi qəm-qüssədir. Kim qəlbini dünyaya bağlasa, onu sonu olmayan qəm-qüssə gözləyir. Çünki, dünya istəkləri bitmir, qurtarmır. İnsanın dünyaya yönəlməsi yekun bilmir, bu yönəlmənin sonu yoxdur. Dünya ilə qanelənmək mümkün deyil. İnsan hər dəfə nəyəsə çatanda, nəyisə əldə edəndə yeni bir şeylər istəyir. Dünyanın özü-özlüyündə insanı qaneləndirmək gücü və potensialı yoxdur. İnsan hər dəfə də nələrəsə çatmayanda da qəm-qüssəyə batar. Tam qane olmayanda qəmlənər və bu silsilənin sonu olmaz.

Dünyaya bağlayan kəs ikinci tərəfdən özünü bir şeylərə bağlamışdır ki, onlara nail olmaq imkanı və fürsəti yoxdur. Bu dünyada insanın uzun arzularına çatması mümkün deyil. Bu arzular bitmir: biri qurtarır, digəri başlayır, digəri qurtarır, növbətisi başlayır və s. Bununla da özünü dünyaya bağlayan insan özünü əslində uzun arzulara bağlamış olur.

Dünyaya bağlanan insanın əziyyət çəkdiyi üçüncü məsələ isə doğrulmayan ümiddir. Dünyaya bağlanan insanın çox geniş ümidləri olar. Dünya isə ümidləri doğrultmayan bir yerdir. Bu dünyada nəyə bağlanarsansa, dünya ona çatmaq üçün ümidləri doğrultmaz. Çünki dünyanın ümidləri doğrultmaq imkanı yoxdur. Dünyanın səciyyəvi xüsusiyyətləri müvəqqəti, keçici, ötəri olmasıdır. Bir gün hamımız bu dünyadan gedirik. Dünyanın ümumiyyətlə ödəmə, vermə, tam mənada sevindirmə halı yoxdur. Nə versə də, keçici və ötəridir. Dün-



yanın səbatlı və davamlı olaraq insana rahatlıq vermək imkanı yoxdur. Dünya daxilində bir şeyə nail olan insan, mütləq növbəti bir şeyi istəyir.

## Dünyaya bağlananın bu dünya ilə vidalaşması da ağır olar

**Həzrət İmam Sadiq (ə) digər mübarək hədisində dünyaya bağlanmağın acı nəticəsindən xəbərdar edir:** "Dünyaya bağlanan kəs ayrılıq vaxtı daha çox heyfsilənər". İnsanın ölərkən, dünya ilə vidalaşarkən heyfsilənməsi olar. Daha çox dünyaya bağlı olmuş kəsin, dünyadan vidalaşması da ağır olar. Bir də var ki, insan öncədən bu dünya ilə vidalaşmağa hazırlaşsın. Anlasın ki, bir gün bu dünyadan gedəcək, bu dünya müvəqqətidir, bura bitəcək. Belə edərsə, insan vidalaşanda da bu dünyadan rahat ayrılar.

**İmam Sadiq (ə) dünyaya bağlanan insanlara bu dünyada verilən ən böyük cəza barədə də məlumat verir:** "Allah Təala gecə-gündüz ən böyük dərdi-səri dünya olan kəsin gözləri önünə yoxsulluğu gətirər, işini pərişan edər və Allah Təalanın qismət etdiyindən başqa dünyadan ona bir şey yetişməz..." Kimin ki, gecə-gündüz ən böyük dərd-səri dünya olar, yoxsul olmaq təhlükəsi hər an onun gözləri qarşısında canlanar. Belə şəxsi davamlı olaraq yoxsulluq təhlükəsi izləyər. İstəyir bütün günü dünya qəmini çəksin, bütün çalışmaları dünya üçün olsun - nəhayətdə Allah Təalanın onun üçün müəyyənləşdirdiyi ona çatacaq. Amma bununla yanaşı, dünya məsələlərini özü üçün dərd-sər edəndə hər an yoxsulluq qorxusu da gözləri önündə canlanar və bu hiss onu ora-bura qaçırdar. Yəni dərd-səri dünya olan adamın yoxsulluq təhlükəsi ilə qarabaqara izlənməsi qaçılmaz olar, onun işlərində daim nizamsızlıq hökm sürər, nə qədər çalışarsa, onsuz da qismətindən artıq əlinə bir şey çatmaz.

## Axirətə bağlananın xeyirli aqibəti

**İmam Sadiq (ə) mübarək hədisin davamında dünyaya bağlantısı olmayan, axirət bağlantısı olan insanın da vəziyyətini göstərir:** "...Gecə və gündüz ən böyük dərdi-səri axirət olan kəsin qəlbini Allah Təala ehtiyacsız edər və işlərini sahmana salar". Bu hədis heç də sui-istifadə etmək üçün deyil. Tənbəllər öz əməllərinə haqq qazandıra bilməz ki, bu hədis bizə şamildir, biz dünya dalınca deyilik. Qətiyyən belə deyildir. Əslində onlar dünya dalınca olmadıqları kimi, axirət arxasınca da deyillər. Ola bilər ki, insan maddi dünya dalınca, pul, mal-mülk dalınca deyil, amma əslində o, başqa dünya dalınca ola bilir. Dünyanın formaları növbənövdür. İnsanlar var ki, yuxu dünyasının, problemsizlik dünyasının ardıncadır. İnsan əgər dünyasını axirət üçün tənzimləyə bilsə, bu hədis onun halına şamil olar. İnsan dünyasını axirəti üçün tənzimləyəndə, bu dünyada iş-gücünə də ciddi yanaşacaq, hər bir məsələsində də məsuliyyətini hiss edəcək. Misal üçün, günümüzdə bir yeniyetmə, bir gənc deyə ki, təhsil, elm dünya ilə bağlı olduğu üçün mən təhsil almıram - bu, çox nadan yanaşma olar. Bu gün bir məktəbli əgər gününü savadlanmağa, təhsilə, elm öyrənməyə sərf etmirsə, o, hər mənada öz aqibətini zay etmiş olur. Xüsusən də bu, təhsil almağa, savadlanmağa imkanı, şəraiti olan şəxsə aiddir. Ailəsi, ətrafı, mühiti o cür ola ki, ondan yalnız dərs oxumaq tələb olunsun. O cür vəziyyətdə olmaya ki, onun ruzi qazanmaq problemi olsun. Belə bir şəxsin dərs oxumaması xüsusilə pisdir.

## Nemətlərdən məhrum olduğumuz üçün təəssüflənməyək, çünki...

**Həzrət İmam Cəfər Sadiq (ə) bizlərə bu mövzuda gözəl bir nümunə də göstərir. İmam (ə) buyurur:** "Cənnətə axırıncı daxil olan peyğəmbər (ə) - Həzrət Süleyman ibni Davud (ə) olacaq. Bunun səbəbi - onun dünyada bütün nemətlərdən bəhrələnməsidir". Bəzən insanlar narahat olur ki, mən bu dünyada bir çox nemətlərdən məhrum oluram. Unutmaq lazım deyil ki, bura müvəqqəti yerdir. Hətta birinin məhrum olmamaq ləyaqəti var idisə də, amma məhrum olmuşdusa da, heyfsilənməyə dəyməz. Bunun Qiyamətdə əvəzi olacaq. Nə qədər çox bu dünyada nemətlərdən bəhrələnəcəyik, nəticədə axirətdə fərqli bir vəziyyətdə olacayıq.

## Dinimizin borca münasibəti

Mübarək dinimiz dünyanın içərisində olan bir çox zərərli məsələlərdən də xəbərdar edir. Bunlardan biri də borcla bağlıdır. Dinimizdə borc vermək haqqında çoxsaylı buyuruşlar var və borc vermək təqdir olunur. Dinimiz insanları borc verməyə, digərlərinə əl tutmağa təşviq edir. Amma digər tərəfdən dinimiz sui-istifadəni də çox pis dəyərləndirir. Təəssüflər olsun ki, günümüzdə, toplumumuzda bu məsələlərdə insanların mənəvi öhdəlikləri çox aşağı enib. Nəticəsi bu olur ki, növbəti yaxşı iş görmək istəyən bir insana əslində maneçilik törədilir. Bir insan yaxşı işlər görür, düzgün qarşılıq görməyəndə isə sabah o yaxşı işi görmək üçün tərəddüd edəcək, düşünəcək. Ən pisi də odur ki, insanlara elə gəlir ki, borcun miqdarının fərqi var. Misal üçün, çox miqdardırsa, qaytarmaqla bağlı daha çox məsuliyyəti var, az miqdardırsa ona bir o qədər əhəmiyyət vermək lazım deyil. Nəticədə möminin ən mühüm xüsusiyyəti - etibarı sıradan çıxır. Möminin etibardan artıq dəyəri ola bilməz. Möminin ən böyük dəyəri - etibarıdır. O aradan gedəndən sonra artıq vəziyyət çox çətinləşir.

## Borc alan gecənin qəmi və gündüzün zəlilliyinə düçar ola bilər

**Əziz İslam Peyğəmbəri (s) buyurur:** "Borc almaqdan çəkinin ki, o gecənin qəmi və günün zəlilliyidir". İnsanın hələ uşaq ikən evdə tərbiyəsində bu aşılanmalıdır ki, hər birinci istəyini həyata keçirmək üçün borc almasın. Uşağa başa salınmalıdır ki, bu borc almaq zəruri məsələlərə aid olan istisnavi bir haldır. Təəssüflər olsun ki, insanlar elə bir vəziyyətlərə düşürlər ki, hər hansı əyləncələri, ləzzətləri üçün, dünya məsələlərində belə, vacib olmayan, zəruri olmayan mövzuları üçün də borc alırlar. Xüsusilə indi dünyada bu, çox geniş yayılıb. Dünya insanının ən böyük problemi budur ki, öyrəşdirilib ki, hər şeyini bu və ya digər formada borca alsın. Dünya insanı borclu haldadır. Təbii ki, belə insanın vəziyyəti yaxşı olmayacaq. Bu, gecənin zəlilliyi, gündüzün isə qəmidir. Borca tərəf gedən insan özünü qəmə, zəlilliyə tərəf aparar. Əlbəttə ki, istisnavi vəziyyətlər bura aid deyil.

## Borcun özü ilə gətirdiyi xüsusiyyətlər

**Həzrət Əmirəlmöminin (ə) buyurur:** "Çox borclu olmaq doğru danışanı yalançı və sözübütöv adamı sözündən çıxan edər". Borcun özü ilə gətirdiyi belə xüsusiyyətlər var. Borclu olandan sonra artıq insan yalan danışmağa, sözü bütövlükdən çıxmağa başlayır. İnsan yalan danışdı, sözübütöv olmadısa, etibarı aradan gedir və bununla da onun heç bir dəyəri qalmır. Dəyərləndirsə görəcək ki, çox xırda, çox aşağı şeylərə görə bu hala gəlib çatıb.

Həzrət İmam Sadiq (ə) buyurur: "Az borc götürün. Az borclu olmaq ömrü uzadar". Təbii ki, borclu olmaq insana bir ağırlıq, bir çətinlik yaradar. Dinimiz nə qədər borc verməklə bağlı təşviq edirsə, bir o qədər borc almaqdan çəkindirir. Borc verməyə təşviq edilmə borc alana aid deyil. Borc alan təbii ki, təşviq edəcək. Borc alan o hədislərə fikir verməlidir ki, borc götürmək bəyənilmir. Xüsusən də borcun qaytarılmasına diqqət edilməlidir. Bəziləri düşünür ki, borc aldığı insana həmin borcu qaytarsa da, qaytarmasa da onun imkanı yaxşıdır, vəziyyətində ciddi dəyişiklik olmayacaq. Amma bu cür düşüncə qətiyyən yolverilməzidir.

Borc alan insan borcunu mütləq qaytarmalıdır. Uşaqlara bu, uşaqlığından aşılanmalı, böyüklər də buna əməl etməlidir. Buna əməl etməyəndən sonra insanın bütün dünyası və axirəti əldən gedir. İnsan cürbəcür vəziyyətlərdə ola bilər. Amma borcun xroniki hal alması çox təhlükəli haldır. Bəzən insanın həyatı bu vəziyyətə gəlib çata bilər ki, bir borcu qaytardıqdan dərhal sonra növbəti borc barədə düşünsün. Bəzən toplumda belə məsələlərə görə bərəkət də, mənəvi ab-hava da aradan gedər. Digər tərəfdən, insanların bu xüsusiyyətlərinə toplumda ciddi fikir verərlər. Birinin vəziyyətini dəyərləndirmək üçün onun etibarlılığına diqqət edilir. Bir də görürsən ki, bir insanın borcu başından aşır, o isə ziyarətə gedir. Soruşanda deyir ki, mənə hədiyyə ediblər. Hədiyyə edənə demək lazımdır ki, kömək etsin borclarını qaytarsın. Elə bil ki, həmin adamı ziyarətə göndərdi.

## Möminin əsas xüsusiyyətlərindən biri etibarlılıqdır

Bir önəmli məsələ də budur ki, imkanı olan kəslər də imkanı olmayanları təhrik etməməlidir. Bir çox valideyinlər var ki, uşaqlarına düzgün olaraq öyrədir ki, imkanı olmayanların yanında imkanlı olduğunu göstərməsin. Hətta keçmiş zamanlarda bu əxlaq, bu yanaşma xüsusilə yayılmışdı. Bir kasıbın yanında özünü imkanlı olduğunu göstərmək ayıb sayılardı. Bu anlamda hər kəsin öz məsuliyyəti var.

Möminin, mütədəyyin şəxsin xüsusiyyətlərindən biri - etibarlılıqdır. Bu xüsusiyyət həm çətin qazanılır, həm də rahat xərclənə bilir. İslamın böyük-böyük mövzularından çox danışmaq olar. Amma İslam elə bu məsələlərdən başlayır. Bu məsələlərdən başlayan İslam gedib böyük məsələlərə çıxır. Bünövrəsi bu məsələlər olmayan İslam şüarçılıqdan o tərəfə gedib çıxa bilmir. İnsanlar yüksək-yüksək sözlərdən çox danışa bilirlər, amma konkret mövzulara diqqət etmək daha önəmlidir.

Hamımız intizar fəlsəfəsindən xəbərdarıq, Xilaskarın (ə.f) gəlişinin nisgilini çəkirik. Nəzər alaq ki, müntəzirin halında etibarlılıq ən önəmli məsələdir. Dünyanı dağıdan məsələlərdən biri - etibarlılığın aradan getməsidir. Mömin deyildikdə etibarlı, gözütox, zəririnə də olsa Allah qatında verdiyi sözü yerinə yetirən şəxs göz önündə durmalıdır. Bu standartlara doğru getmək vacibdir.

**Allahım, səhv və xətalarımızı bağışla!**

**Allahım, bizləri dünyanın asılısına çevrilməyə qoyma!**

**Allahım, borcluların borcunu ödə!**

**Allahım, bizlərə etibarlılar zümrəsindən qərar ver! Amin!**

YENİ MÜSAVAT
N 222 (5931) 5 sentyabr 2014

**Son günlər istehlak bazarında qiymət artımı aqrar məhsullarda daha aydın görünür. Kartof, soğan, qarpız, yemiş, pomidor, xiyar, göyərtilər, kələm, meyvələr bahalaşıb. Kartofu 90 qəpikdən ucuz tapmaq olmur. Pomidor və xiyar isə baha olması ilə yanaşı, həm də qıtlaşıb. Zirə pomidoru 2 manat, Gürcüstan sortu isə 1 manat 50 qəpikdən ucuz deyil. Kələmin 1 kiloqramı 1 manat, soğan 70-80 qəpiyə alıcı gözləyir.**

# Deputatın bahalaşma ilə bağlı ittihamına reaksiya verildi

## KTN açıqlama yaydı və bahalaşmanı təkzib etdi, İİN isə fikirləşir...





Kənd Təsərrüfatı Nazirliyi (KTN) isə hər zaman açıqlamalarında məhsulların kifayət qədər, hətta lazım olanından artıq olduğunu bildirir.

**Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov** bahalaşmaya görə iki nazirliyi ittiham edib. "Həqiqətən məhsul boldur. Sadəcə, həmin məhsulu istehsal edən fermeri Bakının bazarlarına buraxmırlar. Fermer məhsulu gətirir ki, özü satsın. Amma möhtəkirlər qapını kəsib, məhsulu ucuz qiymətə özləri alıb satmaq istəyirlər. Bu möhtəkirlərin qarşısını almaq üçün bazar tənzimlənməlidir",- deyə deputat bildirib.

**Deputat hər zamankı kimi, Naxçıvandakı durumu misal gətirib:** "Naxçıvanda niyə bazar bahalaşmır? Çünki nəzarət var. İqtisadi İnkişaf Nazirliyi və Kənd Təsərrüfatı Nazirliyi bu işləri tənzimləməlidir. Kim deyirsə ki, Rusiya bazarına yol açılıb deyə, məhsul yoxdur, yalançıdır. Əlbəttə, Rusiyada Azərbaycan məhsullarına tələbatın artması özü-özlüyündə yaxşı haldır. Əlaqələrin genişləndirilməsi, daimi olması və bunun müqavilələrlə həyata keçirilməsinin tam tərəfdarıyam. Amma bazardakı bahalaşmada Rusiyanı səbəb göstərmək sadəcə bəhanədir".

Deputatın ittiham etdiyi nazirliklərdən biri onun fikirlərinə dolayısı ilə rəy bildirib, digəri isə açıqlama verməyə tələsmir. Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyevin sözlərinə görə, nazirlik bahalaşma barədə yayılan fikirlərə münasibətini açıqlayıb: "Biz açıqlama yaymışıq".

**Nazirliyin yaydığı açıqlamada isə bildirilir:** "Son günlər bəzi KİV-lərdə ölkədə istehsal edilən meyvə-tərəvəz məhsullarının Rusiya bazarlarına ixrac həcminin çoxalmasına görə daxili bazarda kəskin qiymət artımının baş verməsi ilə bağlı əsassız informasiyalar yayılır. Daha çox subyektiv mülahizələrə əsaslanan bu tip informasiyaların yerinə, sistemli şəkildə aparılan peşəkar təhlillər əslində vəziyyətin fərqli olduğunu göstərir. Hələ mövsümün əvvəlində əsas meyvə-tərəvəz məhsullarının daxili bazardakı satış qiymətləri ötən illə müqayisədə kifayət qədər aşağı idi. Məsələn, ötən ilin iyul ayına nisbətən cari ilin iyul ayında kələmin qiyməti 25 faiz, soğanın qiyməti 21 faiz, sarımsağın qiyməti 15 faiz, xiyarın qiyməti 13 faiz, almanın qiyməti 21 faiz, çiyələyin qiyməti 12 faiz, alçanın qiyməti 10 faiz aşağı idi və s. Ümumilikdə isə meyvə-tərəvəzlər üzrə istehsalçı qiymət indeksi, yəni ki, fermerlərin sahədən satış qiymətləri 4-5 faiz aşağı idi. Bir sözlə, cari mövsümün əvvəlində formalaşmış qiymət şərtləri ötən illə müqayisədə kənd təsərrüfatı istehsalçıları üçün olduqca əlverişsiz vəziyyətdə idi. Deməli, bütün hallarda qiymətlərin həm istehsalçılar, həm də istehlakçılar üçün optimal səviyyədə qərarlaşmasını təmin etmək üçün müvafiq tədbirlərə ehtiyac var idi. Avqust ayının əvvəlindən başlayaraq Rusiya bazarına ixrac imkanlarının genişlənməsi, təbii olaraq, yerli istehsalçılar üçün əlverişli bazar şərtlərinin yaranmasını şərtləndirən müsbət faktor kimi çıxış etdi. Bunun da nəticəsində daxili bazarda qiymət şərtləri həm də fermerlərin mənafeyinə uyğun yeni tarazlıq mərhələsinə daxil oldu. Bununla belə, burada üç məqama da diqqət yetirmək lazımdır.

Birincisi, Rusiya bazarına ixrac imkanlarının genişlənməsi qiymətlərə daha çox psixoloji təsir kimi çıxış edirdi. Yeri gəlmişkən, KİV-lərdə səsləndirilən və daha çox subyektiv mülahizələrə əsaslanan informasiyalar da bu psixoloji təsirin artmasında əsaslı rola malik oldu. Lakin əslində cari ilin ötən dövrü ərzində Azərbaycanda istehsal edilən meyvə, tərəvəz və bostan məhsullarının ixrac edilən hissəsi müxtəlif məhsullar üzrə ümumilikdə təqribən 7-10 faiz təşkil edib, ötən ilə nəzərən artım isə 20,5 faiz olub. Yəni "ölkədə istehsal edilən meyvə-tərəvəz məhsullarının hamısı götürülüb Rusiya bazarına aparıldı" kimi ajiotaj informasiyanın əsası yoxdur.

İkincisi, Kənd Təsərrüfatı Nazirliyinin monitorinqləri göstərir ki, Rusiya bazarına məhsul ixracının artırılmasından irəli gələn qiymətlərə psixoloji təsir faktoru avqust ayının 8-9-dan başlasa da, bu faktor avqust ayının 28-29-dan öz təsirini itirməyə başladı. Yəni artıq avqust ayının axırından etibarən qiymətlər yeni tarazlıq nöqtəsində sabitləşməyə başladı.

Üçüncüsü, aparılan təhlillər göstərir ki, artıq cari ilin avqust ayının sonunda qiymətlərin formalaşmış yeni səviyyəsi, demək olar ki, ötən ilin müvafiq dövrü ilə eyni səviyyədədir, hətta kartof, soğan, badımcan, çuğundur, alma, armud, şaftalı və üzüm kimi məhsullar üzrə daha aşağı səviyyədədir. Burada yalnız qarpız, yemiş, lobya və pomidorun qiyməti bu və ya digər səviyyədə istisnalıq təşkil edir, yəni ki, ötən ilin müvafiq dövrünə nisbətən yuxarıdır.

Bir sözlə, Rusiya bazarına ixracın təsiri ilə cari ilin avqust ayında meyvə, tərəvəz və bostan məhsullarının qiymətlərində baş verən dəyişiklik mövsümün əvvəlində istehsalçılar üçün əlverişsiz olan qiymət şərtlərinin, əlverişli vəziyyətə gəlməsini şərtləndirmişdir. Eyni zamanda qiymətlərin yeni tarazlıq səviyyəsi istehlakçıların da mənafeyinə toxunmadı, çünki bu ötən ilin müvafiq dövrü ilə eyni səviyyədədir".

**İqtisadi İnkişaf Nazirliyindən (İİN) isə bildirilib ki, deputatın açıqlamasından xəbərləri var və məsələ ilə bağlı açıqlama verməyə hələ tələsmirlər: "Bu barədə fikirləşirik".**

**❑ RÖYA**

# "London taksi"lərinin maaş qovğası bitmir





## Şirkət sürücülərə əmək haqqı vermək əvəzinə, planı artırıb

**"London taksi" sürücülərinə hər ay yeni problem yaradılır. "Badımcan" taksilərin şoferləri də artıq cana doyublar. Sürücülərin gündəlik planın 28 manatdan 34 manata qaldırılması narazılığa səbəb olub. Onlara nə yanacaq pulu verilir, nə də maaş.**

Bu xəbərlər mətbuatda yazılanda "Bakı taksi" MMC iddiaları təkzib etdi. Lakin problemin olduğu kimi qalması yenidən məsələyə toxunmaq zərurəti yaradıb. Belə ki, sürücülər hələ də maaş ala bilmir, onlara solyarka haqqı verilmir, üstəlik də gündəlik 34 manat plan ödəyirlər.

Şirkət bu qərarı sürücülərə belə izah edib ki, onlar işləyib qazana bilirlər, hotellərin, əcnəbilərin olduğu restoranların qarşısından götürdükləri müştərilərin verdiyi gediş haqqı kifayət edir. Bu məntiqsiz qeyri-rəsmi izahatdan sonra da sürücülər bu şəkildə işləməyə məcbur olublar.

**Çünki onlar imtina etsələr, alternativ iş yeri tapmaq indiki vaxtda çətindir. Odur ki, sürücülər başını aşağı salıb, narazı da olsa işləyirlər. Söhbətimiz zamanı sürücülərdən biri dedi ki, maaş söhbəti yığışıb:**

"Şərtlər tez-tez dəyişir. Şirkət özü də mətbuat yazdığını görəndə çıxıb inkar edir. Amma nə varsa belədir. Bu dəqiqə şərik işləyəndə hər sürücü 17 manat plan verir. Tək işləmək istəsən 34 manatdır. İndi gəl sən hesabla bunun gündəlik qazancını.

Mənim solyarka pulum var, ehtiyaclarım var, maşın xarab olur, düzəltmək lazımdır. Gün olur ki, müştəri gəlmir. Onda planı da ödəyə bilmirik. Evə çörək pulu aparmaq yaddan çıxır. Dərd eləyirik ki, şirkətin planını verək, borclu qalmayaq".

**Sürücünün sözlərinə görə, onlardan hər ay 6 manat Həmkarlar Təşkilatı üçün alınır:** "Maaş yox, təşkilat var. Belə gülməli zəmanədir. Şirkət özünü reklam edir. Ki, gələn il olimpiya oyunları vaxtı daha çox taksi gətiriləcək. Gətirilsin e, amma pul da verilsin".

**Sürücülərin sözlərinə görə, şikayət etməli yer yoxdur:** "Nəqliyyat Nazirliyinə gedəcəksən, onlar da şirkətlə işləyir. Bəhanə edirlər ki, bəs bizim müştərilərimiz çoxdur. Guya xarici qonaqları aparırıq, ay nə bilim sayğacdan kənar pul alırıq.

Lap elədirsə, bunu sübut etmək lazımdır. Araşdırıb həmin sürücünü qovsunlar. İkincisi, sübut olmadığı halda niyə mən maaş almamalıyam? Planın 34 manata qaldırılmasını da məntiqsiz izah edirlər. Guya ki, iş saatı azaldılır, bir taksini iki sürücü istifadə edir. Hər sürücüyə 17 manat düşür deyə ödəmək mümkündür. Bu da onların səbəbi. Sürücülərin də çoxu bu şərtlərlə işləməyə məcburdu".

**Azvision.az saytı isə yazıb ki, "Eurovision" müsabiqəsindən sonra sürücülərlə müqavilə bağlanıb. Sürücülərə əməlli-başlı maaş verilib. Ondan sonra əmək kitabçalarını sürücülərə qaytarıblar.** "Maşınların təmiri, texniki təchizatı şirkət tərəfindən həyata keçirilməlidir. Ancaq gedirsən, texniki avadanlıq yoxdursa, vəssalam, bunun da onlara dəxli yoxdur.

Deyir yoxdur, özün bilərsən. Məcbur olub, özümüz bir şey fikirləşirik. "Eurovision"da 1000-dən çox maşın gətirdilər. Ancaq 506 nömrəli maşına kimi "London taksiləri"nin qeydiyyatı var. Ondan sonra gələn maşınların hamısını gömrük Lökbatandakı cərimə meydançasına aparıb qoyub. 506 nömrəsindən sonra kim bu taksini sürürsə bilin ki, qorxa - qorxa, gizlicə edir".

**❑ E.SALAMOĞLU**

# YENİ MÜSAVAT

## Son səhifə

N 222 (5931) 5 sentyabr 2014




### Dünyanın ən güclü və ən bahalı sedanı

"Volkswagen Group" Bugatti sedanının yeni modelini hazırlaması barədə məlumatı təsdiq edib. ANS-in məlumatına görə, avtomobil dünyanın ən güclü və ən bahalı sedanı olmalıdır. "Mən yeni modelin üzə çıxma tarixin dəqiq deyə bilmərəm. Zənnimcə, bu, 2015-ci ilin sonu və ya 2016-cı ilin əvvəli olacaq" deyə, "Volkswagen Group"un dizayn şöbəsinin müdiri Valter de Silva bildirir. Yeni sedan Galiber konseptinin nəzdində yaranacaq. Avtomobilin kapotunun altında isə "Veyron" komplektasiyasında olan 8 litrlik motor olacaq. Mühərrikin 1350 at gücü olacaq. Maşının sürəti isə 450 kilometr saatı keçəcək. Kuzovun hazırlanmasında alüminium və karbondan istifadə olunacaq. Haqqında digər məlumatlar yayılmasa da, deyilənə görə, maşının qiyməti 1 milyon avrodan başlayacaq.

### Sevgilisinin dodağını qopardı

İngiltərədə yaşayan 23 yaşlı Ryans Culley qısqandığı sevgilisinin dodağını qoparıb. O, sevgilisini facebook sosial şəbəkəsində başqa oğlanla danışmaqda günahlandırıb. O, Çantelle Vard adlı sevgilisi ilə uzun müddət mübahisə etdikdən sonra onun dodağını dişləyib və qopardıb. Nyukasl Krallıq Məhkəməsi 23 yaşlı oğlanın qısqandığı üçün sevgilisinə zərər vermək istədiyini, məhz bu səbəbdən də belə bir addım atdığını deyib. İki ildir tanış olduğu sevgilisinin dodağını vəhşicəsinə qoparan oğlan həbs edilib.

# 5 yaşlı uşaq paltaryuyan maşında qaldı

ABŞ-da 5 yaşlı qız paltaryuyan maşından son anda xilas edilib. Texas ştatının ən böyük şəhəri olan Hyustonda 5 yaşlı qızın camaşırxanada paltaryuyan maşına necə düşdüyü bilinmir. Bunu oraya gələnlərdən biri görüb. Hadisə bir neçə saniyə içərisində baş verib. Camaşırxanaya gələn qadın paltaryuyan maşında uşağın olduğunu görüb və kənardakılara səslənib. Azyaşlı qız dərhal xəstəxanaya çatdırılıb. Boğulan azyaşlı qızın vəziyyətinin ağır olduğu bildirilir. Lakin həkimlərin fikrincə, uşaq bu bədbəxt hadisədən sağ qurtula biləcək. Hazırda polislər zərərçəkmiş uşağın paltaryuyan maşına necə girməsini araşdırır. Həmçinin qızın valideynlərinin də axtarışları davam edir.



# Ollandın keçmiş arvadından intiqam kitabı

Fransa prezidenti Fransua Ollandın keçmiş xanımı Valerie Trierveilerin satışa çıxan kitabı ölkə mediasının gündəmindən düşmür. Fransanın "Paris Match" jurnalı "Merci pour le moment" ("İndilik təşəkkürlər") adlı kitabda parçalar dərc edib. Trierveiler Ollandın aktrisa sevgilisi Julie Gayet ilə münasibətindən və ayrılıqlarından bəhs edib. O, Ollandla ayrılığı haqda bu sözləri deyib: "Evdə televizora baxırdıq. Xəbəri gördüm. Doğru olub-olmadığını soruşdum. Gözlərini qaçırmağa başladı. Hamama gedib içində dərmanlar olan qutunu götürdüm, Olland da arxamdan gəldi. Qutunu əlimdən alsa da yerə tökülən bütün dərmanları içdim. Artıq yaşamaq istəmirdim, yatmaq və hər şeyi unutmaq istədim".

Keçmiş birinci xanımın sözlərinə görə, Olland hər gün ona 29 mesaj yazırmış və barışmasını istəyirmiş. Hər axşam isə onu yeməyə dəvət edirmiş. Lakin o, xəyanəti qəbul etməyib və bir daha onun yanına qayıtmayıb.






### Həddindən artıq tərləmə stress yaradır

Həddindən artıq tərləmənin ciddi bir sağlamlıq problemi olduğu, lakin həyatı təhlükəsi olmadığı öyrənilib. Mütəxəssislər bədənin gündə 4-5 dəfə tərləməsinin normal olduğunu deyirlər. Tərləmənin normadan çox olması insanda narahatedici bir vəziyyətə çevrilir. Tərləmə bəzən davamlı da ola bilər. Həddindən artıq tərləmə fiziki, psixoloji və estetik problemlərə səbəb olur. Diabet, köklük, böyrəküstü vəzin xəstəlikləri, infeksiyalar, psixoloji pozğunluqlar həddindən artıq tərləməyə səbəb ola bilər. Buna görə həddindən artıq tərləyən şəxslər əvvəlcə bir dermatoloji mütəxəssisə müraciət etməlidir.




**QOÇ** - Əsas vaxtınızı iş prinsipinə yönəldin. Digər məsələlərə isə çox da aludə olmayın. Çünki işdən kənarda ciddi uğurlarınız gözlənilmir. Yersiz risklərə bugünlük son qoyun.

**BUĞA** - Məhəbbət məsələlərində uğurlara yiyələnmək üçün şanslarınız artacaq. Əgər səhv sizdədirsə, üzr istəməkdən çəkinməyin. Hər halda, ruhi yaxınlıq üçün çılğınlıqdan uzaq olmaq lazımdır.

**ƏKİZLƏR** - Münaqişəli gün olsa da, təmkin nümayiş etdirməklə sülhə nail olmaq mümkündür. Nahar ərəfəsində hisslərinizi daha bərk cilovlayın. Bu gün ulduzlar sizi varlandırmağa çalışacaq.

**XƏRÇƏNG** - İkitərəfli əməkdaşlığa başlamaq üçün gözəl ərəfədir. Bu səbəbdən də öhdənizə düşən işləri asanlıqla yerinə yetirə biləcəksiniz. Pul məsələlərində isə riskə getməyin.

**ŞİR** - Əməlli-başlı varlanma ehtimalınız var. Bunun üçün ilk növbədə məsuliyyətinizi dərk etməli və aldığınız dəvətlərə razılıq verməlisiniz. Nahardan sonra büdcənizdə artım mümkündür.

**QIZ** - Ətrafınızda olan insanlarla daha səmimi olmağa çalışın. Elə edin ki, hamının rəğbət mərkəzində olasınız. Bu cəhət daha çox sevgi və qohumluq tellərinə şamildir. Aktivliyinizi artırın.

**TƏRƏZİ** - Qərar çıxararkən təcrübəli insanların məsləhətlərindən bəhrələnə bilsəniz, gün ərzində narahatçılığınız olmayacaq. Saat 17-dən sonra yeni təklif və ya dəvətlər alacağınız gözlənilir.

**ƏQRƏB** - Büdcənizlə bağlı vəziyyət xeyrinizə olsa da, səhhətinizdə problem gözlənilir. Qan-damar sistemində, eləcə də qida məsələlərində diqqətli olun. Buna xatir münaqişələrdən qaçın.

**OXATAN** - Astroloji göstəricilər əsasən səfərlər istiqamətində uğurlara yiyələnəcəyinizdən xəbər verir. Odur ki, maddi imkanınız olduğu təqdirdə uzaq yola hazırlaşmağa dəyər.

**OĞLAQ** - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün ümumi əhvalınız aşağı ola bilər. Amma özünüzü tənzimləyə və məqsədinizə yetişə bilərsiniz. Ailə üzvlərinizlə mehriban və səmimi davranın.

**SUTÖKƏN** - Çox maraqlı bir təqvim yaşayacaqsınız. Ola bilsin ki, ürəyinizcə olan bir xəbər də eşidəsiniz. Əgər imkan tapsanız, günün birinci yarısında müqəddəs yerlərə baş çəkin.

**BALIQLAR** - Şəxsi işlərinizdə əsaslı dönüş yaratmaq imkanınız var. Bu istiqamətdə sizə ətrafınızda olan səmimi və təcrübəli insanların da köməyi dəyə bilər. Heç kimi incitməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

### "Lənətli qızı" itlə evləndirdilər



Hindistanın Jharkhand əyalətində yaşayan 18 yaşlı qız itlə evləndirilib. Qızın ailəsi bu qəribə evlilik üçün adət-ənənələrə uyğun toy mərasimi təşkil edib. İtlə evləndirilən Mangli Munda adlı qızın lənətli olduğu düşünülür. Onu bu lənətdən xilas etmək üçün belə bir toy mərasiminin təşkil edildiyi deyilir. Mundanın ailəsinin və qonşularının sözlərinə görə, qızın bədənində olan lənət onunla evlənəcək olan hər kəsi öldürəcək. Bu lənətdən xilas olması üçün isə Munda itlə evləndirilib. Yeni gəlin bu simvolik toydan sonra bədənindəki lənəti itə ötürəcək.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.